RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 257 (10002) 5 dekabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycanın "yaşıl enerji" gündəliyi

## Cənubi Qafqazı Avropa ilə birləşdirəcək dəniz dibi kabeli layihəsi tezliklə tam gücü ilə işə düşəcək

Prezident İlham Əliyev qeyd edib ki, bu çox böyük məsuliyyətdir və əlbəttə, Azərbaycan tək Avropanı 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qazla təchiz etmək üzrə öhdəliyini yerinə yetirmək üçün çalışır. Bu, Azərbaycanın hədəfidir.

Dövlət başçısı həmçinin digər enerji layihələri barədə məlumat verərək Azərbaycanın etibarlı enerji təchizatçısı olduğunu bir daha bəyan edib.

Azərbaycanın ənənəvi enerjidən bərpaolunan enerjiyə keçidinə gəldikdə isə deyə bilərik ki, bu istiqamətdə çox mühüm addımlar atılır, dost və tərəfdaş ölkələrlə müştərək layihələrin işlənməsi istiqamətində sazişlər imzalanır. Onlardan biri də 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"dir. Bu sazişə əsasən, 4 ölkə "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsini reallaşdırmaq üçün birgə səy nümayiş etdirirlər.

Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare layihə ilə bağlı mətbuata açılqlama verərək bildirib ki, onlar "Cənub qaz dəhlizi"ni ilk gündən dəstəkləyən ölkələrdən biridirlər. Bu, Azərbaycan qazını birbaşa Qərbi Avropaya, o cümlədən İtaliyaya çatdıran bir marşrutdur: "Təbii ki, bundan başqa, biz digər layihələrlə bağlı da işləyirik. Ona görə də fakt fakt olaraq qalır - Azərbaycan qazı artıq Avropa bazarına daxil olub".

O bildirib ki, Rumıniya ilə Azərbaycan eyni zamanda gələcək layihələrin təşəbbüskarlarıdır və "yaşıl enerji" ilə bağlı yeni layihələri inkişaf etdirirlər. "2022-ci ildə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında ən yüksək səviyyədə razılaşma imzalanıb. Bu, bərpaolunan enerji mənbələrinin, xüsusilə Xəzər dənizindəki böyük potensiala malik külək enerjisinin Avropa bazarına çatdırılması ilə bağlıdır. Hazırda bu layihənin texniki-iqtisadi əsaslandırılmasının tamamlanması gözlənilir. Bu prosesin başa çatdırılması əvvəlcə bu ilin sonunadək nəzərdə tutulmuşdu, lakin proses növbəti ilin yazına qədər uzadılıb. Texniki-iqtisadi əsaslandırma layihənin inkişaf etdirilməsinə imkan verəcək nəticələr təqdim edəcək. Layihə maliyyətutumlu olsa da, gələcəyin layihəsi kimi qiymətləndirilir. Düzdür, hazırda əsas enerji kimi qaz istifadə olunur, lakin yaxın gələcəkdə bu layihə enerji təchizatı sahəsində strateji əhəmiyyət kəsb edəcək. Bu, gələcək enerji tendensiyalarına uyğundur", - deyə V.Saore qeyd edib.

4

# Azərbaycan ilə Birləşmiş Krallıq arasında münasibətlər dostluq və etimada əsaslanır



## Prezident İlham Əliyev Birləşmiş Krallığın müdafiə üzrə dövlət nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakeri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən qonaq ilk növbədə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin salamlarını dövlətimizin başçısına çatdırdı.

Lord Vernon Koaker ölkələrimiz arasında dostluq və etimada əsaslanan münasibətləri qeyd edərək əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilməsində maraqlı olduqlarını vurğuladı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Kir Starmerin COP29-da iştirakını və onunla görüşünü məmnunluqla xatırladı.

İkitərəfli münasibətlərimizin zəngin tarixinin olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın enerji sektorundan başladığını və daha sonra bir çox sahəni əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev ticarət, investisiya və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifənin açılmasına toxunaraq, bunu qarşılıqlı etimadın göstəricisi kimi qiymətləndirdi.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, bütün bunların tarixi əhəmiyyət daşıdığını vurğuladı və bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi roluna toxundu. Dövlətimizin başçısı sülh gündəliyinin təşəbbüskarının məhz Azərbaycan olduğunu dedi və onun irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Fridrix Merts İlham Əliyevə zəng edib



**Dekabrın 4-də Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Fridrix Merts ilk növbədə Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Kansler Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulayıb.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanın regional sülh təşəbbüslərinin müəllifi olduğunu qeyd edib.

Prezident İlham Əliyev ölkəmizin regionda davamlı sülhün təmin olunması və möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini bildirib.

Telefon danışığı zamanı Azərbaycanla Almaniya arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Kansler Fridrix Merts dövlətimizin başçısını Almaniyaya səfərə dəvət edib. Dəvəti məmnunluqla qəbul edən Prezident İlham Əliyev öz növbəsində Almaniya Kanslerini Azərbaycana səfərə dəvət edib. Fridrix Merts də dəvəti məmnunluqla qəbul edib.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycanın təşəbbüsləri Cənubi Qafqazı əməkdaşlıq meydanına çevirib




Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Cənub qaz dəhlizi" kimi mühüm ixrac marşrutlarına nail olmaqla ölkəmiz özünün karbohidrogen ehtiyatlarını uzun illərdir ki, dünya bazarlarına çıxarır. Bu marşrutlar regionun və Avropanın enerji xəritəsinə çox mühüm dəyişikliklər etməklə, Azərbaycan dövlətinin həyata keçirdiyi enerji siyasətinin nə qədər mükəmməl və uzaqgörən olduğunu təsdiq edir. Təsadüfi deyil ki, Avropa İttifaqı enerji dəhlizlərinin şaxələndirilməsi məsələsində hər zaman Azərbaycanın təşəbbüslərinə dəstək verib. Ən mühümü odur ki, sözügedən enerji marşrutları Azərbaycanın mənafelərinə uyğun reallaşıb, kənar maraqlar bu dəhlizlərdə rol almayıb.

4

# Türk coğrafiyasından türk siyasi birliyinə



TDT-nin fəaliyyəti müxtəlif sahələri əhatə edir. Dövlətimizin başçısı İlham Əliyevin ötən il iyunun 6-da TÜRKPA-nın nümayəndə heyətini qəbul edərkən bildirdiyi kimi, türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir, böyük coğrafiyanı əhatə edir.

2

# Qərbi azərbaycanlılar da doğma yurdlarına qayıdacaqlar

Prezident İlham Əliyevin qərbi azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi soyqırımı və deportasiya məsələlərinin ətraflı şəkildə öyrənilməsi və tədqiqi, həqiqətin dünya xalqlarına çatdırılması 2022-ci ilin oktyabrında onun Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı çıxışından və imzaladığı fərmanlardan sonra sistemli şəkil almışdır.

Xatırladaq ki, icmanın beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanan, ədalətin və sülhün bərqərar olunmasına xidmət edən mövqeyini tərəqqipərvər dünya ictimaiyyəti də dəstəkləyir. Qürurverici haldır ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının, İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Müraciətin belə bir mötəbər qurum tərəfindən dəstəklənməsi və yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur.

İnsanlar boya-başa çatdıqları doğma yurdlarına, kəndlərinə qayıtmağı özlərinə mənəvi borc bilirlər və bu həqiqətin gec-tez reallaşacağına inanırlar. Dövlət başçısı çıxışında qətiyyətlə "Gün gələcək qərbi azərbaycanlılar tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar" deməsi onlarda bu inamı qat-qat artırıb.

3



# "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 180 (Cild I) birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "Vüqar Məcidli - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin" sözləri "Mehman İsmayılov - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İnvestisiya layihələrinin və infrastrukturunun" sözləri ilə əvəz edilsin.

2. "Rəşad İsmayılov - Azərbaycan İnvestisiya Holdinqinin Aktivlərin idarə olunması departamentinin Hasilat sənayesi və energetika şöbəsinin müdiri" sözləri "Əli Cəfərov - Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2025-ci il*

# Milli Məclisin Sədri Sahibə Qafarova seçicilərin növbəti qəbulunu keçirib

Milli Məclisin Sədri, 102 saylı Şəmkir şəhər seçki dairəsindən millət vəkili Sahibə Qafarova videokonfrans formatında seçicilərin növbəti qəbulunu keçirib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Sədri vətəndaşlara ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli inkişaf siyasəti və onun prioritetləri, Azərbaycanın əldə etdiyi misilsiz nailiyyətlər barədə məlumat verib. Həmçinin ölkəmizin iqtisadi inkişafı fonunda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində görülən tədbirlər seçicilərin diqqətinə çatdırılıb. Görüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən nəhəng yenidənqurma və bərpa işləri, "Böyük Qayıdışa dair Dövlət Proqramı"nın uğurla icra olunması, şəhid ailələrinə və müharibədə sağlamlığını itirmiş vətəndaşlarımıza yüksək dövlət qayğısı və dəstəyi, həmçinin digər tədbirlər haqqında da məlumat verilib.

Videoqəbulda spiker, Şəmkir şəhərindən, həmçinin rayonun Çinarlı qəsəbəsindən və Təzəkənd kəndindən olan seçicilərin bir sıra məsələlərlə əlaqədar müraciətlərini dinləyib. Müraciətlərdə əksini tapan bəzi məsələlər yerli xarakterli olduğundan, baxılması üçün icra hakimiyyəti nümayəndələrinə istiqamətləndirilib. Digər bir qism müraciətlərin araşdırılması üçün aidiyyəti orqanlara sorğular göndərilib, vətəndaşlara ətraflı izahat verilib.

***"Azərbaycan"***

# Türk coğrafiyasından türk siyasi birliyinə



Minilliklər boyu geniş coğrafiyada yaşamış türk xalqları zəngin tarixi və mədəni irsə malikdirlər. Ortaq tarixi dəyərlər, dil və mədəniyyət bağları onların birliyinin əsasını təşkil edir. Əsrlər boyu müxtəlif dövlətlər, imperiyalar qurmuş türklər geniş coğrafiyada yayılmalarına baxmayaraq, öz aralarında mədəni və mənəvi bağlarını heç vaxt tam itirməyiblər. Bu gün isə həmin bağlar yenidən bağlanır. Dünyanın dəyişən geosiyasi mənzərəsi fonunda türk ölkələrinin yaxınlaşması həm zəruri, həm də tarixi bir prosesə çevrilib.

Ötən əsrin sonlarında - sovet hökumətinin dağılmasından sonra ittifaqa daxil olan türk respublikalarının müstəqillik qazanması təkcə coğrafi sərhədlərin dəyişməsi deyil, eyni zamanda yeni bir tarixi imkanın yaranmasına şərait yaratdı. Həmin respublikaların hər biri öz inkişaf yolunu müəyyənləşdirsə də, ortaq dil, mədəniyyət və tarix onları sıx əməkdaşlıq qurmağa sövq etdi. Beləliklə, türk dünyasının yeni mərhələsi başlandı. Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanın beynəlxalq arenaya müstəqil çıxışı türk dövlətləri arasında siyasi, iqtisadi və humanitar əlaqələrin genişlənməsinə yol açdı.

Bu gün türk siyasi birliyinin ən mühüm platforması Türk Dövlətləri Təşkilatıdır. 2009-cu ildə Naxçıvan müqaviləsi əsasında yaradılan Türk Dövlətləri Təşkilatı (TDT) Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın iştirakı ilə fəaliyyətə başlayıb.

TDT-nin fəaliyyəti müxtəlif sahələri əhatə edir. Dövlətimizin başçısı İlham Əliyevin ötən il iyunun 6-da TÜRKPA-nın nümayəndə heyətini qəbul edərkən bildirdiyi kimi, türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir, böyük coğrafiyanı əhatə edir: "Nəqliyyat yolları, enerji resursları, insan kapitalı, artan əhali, demoqrafik vəziyyətin müsbət olması - bunlar, böyük bir güc potensialıdır. Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək, əminəm ki, bu olacaq, biz bunu görürük".

Bu gün türk dövlətləri enerji resursları, nəqliyyat yolları, geostrateji mövqeləri ilə dünyanın diqqətini cəlb edən böyük bir güc mərkəzi kimi formalaşır. Türk dünyası həm də qlobal çağırışlar qarşısında birgə hərəkət etməyin vacibliyini daha dərindən anlayır. Enerji təhlükəsizliyi, kibertəhlükəsizlik, regional münaqişələr, iqtisadi əməkdaşlıq və mədəni diplomatiya bu əməkdaşlığın əsas istiqamətlərini təşkil edir.

TDT ortaq iqtisadi məkanın formalaşdırılması, nəqliyyat-logistika layihələrinin həyata keçirilməsi, müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi, həmçinin mədəni inteqrasiyanın dərinləşdirilməsi istiqamətində real nəticələr əldə edir. Yeri gəlmişkən qeyd edək ki, Zəngəzur dəhlizinin (TRIPP) açılması TDT-yə üzv ölkələr arasında ticarət və nəqliyyat əlaqələrini sürətləndirərək münasibətləri daha da möhkəmləndirəcək.

Təşkilat bu il də müxtəlif sahələri əhatə edən türk dövlətləri arasında əməkdaşlığın möhkəmlənməsinə və inkişafa xidmət edən tədbirlərini davam etdirib. Aprelin 7-8-də Qazaxıstanın paytaxtı Astanada Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin Səhiyyə əməkdaşlığı işçi qrupunun ekspertlərinin 3-cü görüşü və TDT-yə üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin V iclası keçirilmişdir. Mayın 21-də isə Macarıstanın paytaxtı Budapeştdə təşkilatın dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü təşkil olunmuşdur. Zirvə görüşündə prezidentlər tərəfindən Bəyannamə imzalanmışdır.

Oktyabrın 7-də Azərbaycanın qədim şəhəri Qəbələdə TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyevin iştirak etdikləri tədbirdə əhəmiyytli qərarlar qəbul olundu.

TDT-yə üzv dövlətlərin Dəmiryolu İdarələrinin Rəhbərlərinin 3-cü iclası oktyabrın 31-də Bişkekdə baş tutub. İclasda qeyd olunub ki, Orta dəhliz strateji əhəmiyyətini artırmaqda davam edir. Toplantıda TDT-yə üzv dövlətlərin dəmir yolu idarələri və turizm strukturlarının nümayəndələrindən ibarət müvəqqəti işçi qrupunun yaradılması barədə qərar qəbul edilib.

Azərbaycanın təşəbbüsü ilə bu il noyabrın 24-də Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatları (QHT) ilk dəfə bir platformada toplaşdılar. Prezident İlham Əliyev forumun iştirakçılarına müraciət ünvanladı. Müraciətdə deyilirdi ki, türk dövlətlərinin artan potensialı və qlobal müstəvidə gündən-günə güclənən mövqeyi daha iddialı məqsədlərin qarşıya qoyulmasını, birgə səylərin artırılmasını, bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsini, çevik mexanizmlərin yaradılmasını zəruri edir. Prezident İlham Əliyev ilk dəfə keçirilən həmrəylik forumunu bu istiqamətdə atılmış mühüm addım kimi dəyərləndirdi: "2026-cı ildə 100 illiyi keçiriləcək I Türkoloji Qurultayın türk xalqlarının mədəni inteqrasiyası məsələləri ilə bağlı yarımçıq qalmış işlərinin QHT-lərin yaxından iştirakı ilə müasir çağırışlara uyğun davam etdirilməsi də xüsusi aktuallıq kəsb edir. Türk dünyası QHT-lərinin BMT və digər beynəlxalq təsisatlar çərçivəsində birgə, koordinasiyalı fəaliyyəti, vahid platformada birləşməsi ümumi işimizə və məqsədlərimizə böyük töhfə verə bilər".

Noyabrın 27-də isə Bakıda Türk Dövlətləri Təşkilatının Media və informasiya üzrə işçi qrupunun 12-ci iclası keçirildi. Türkdilli dövlətlərin media və kommunikasiya sahəsində əməkdaşlığını möhkəmləndirmək məqsədilə düzənlənən forum çərçivəsində "Müasir dövrdə artan qlobal informasiya təhdidlərinə qarşı dayanıqlı və preventiv addımlar: Türk dövlətlərinin media ekosistemi nümunəsində" mövzusuna həsr olunmuş panel sessiya təşkil olundu.

Noyabrın 28-də ölkəmizin paytaxtı bu təşkilatın daha bir əhəmiyyətli tədbirinə evsahibliyi etdi. Bakıda Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin, yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısı keçirildi.

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin "Xəritəçilik İşçi Qrupu"nun ikinci iclası da dekabrın 2-3-də Bakının evsahibliyi ilə keçirilib. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, həmçinin müşahidəçi qismində Macarıstan və Şimali Kipr Türk Respublikasının geodeziya və kartoqrafiya sahəsinə cavabdeh qurumlarının nümayəndələrinin qatıldığı iclasda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tarixi Zəfərdən sonra həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri barədə ətraflı məlumat verilib. Eyni zamanda 2026-cı ildə Bakıda keçiriləcək Dünya Şəhərsalma Forumu - WUF13 üzrə hazırlıq prosesi, gündəlik istiqamətlər və regional əməkdaşlıq imkanları barədə qonaqlar məlumatlandırılıb. Sonda Türk Dövlətləri Təşkilatının Xəritəçəkmə Qurumları Rəhbərlərinin 2-ci Toplantısının Bəyannaməsi imzalanıb.

Türk dünyası bu gün təkcə tarixi keçmişi ilə deyil, həm də gələcəyə istiqamətlənmiş, məqsədyönlü siyasi, iqtisadi və mədəni potensialı ilə diqqət mərkəzindədir. Bu gün baş verən hadisələr, həyata keçirilən tədbirlər deməyə əsas verir ki, türk coğrafiyasından türk siyasi birliyinə gedən yol strateji yanaşmanın nəticəsidir. Tarixi bağlar, mədəni yaxınlıq, ortaq dövlətçilik ənənələri və yeni geosiyasi reallıq türk xalqlarını birliyə doğru aparan əsas amillərdir. Bu yolun daha da möhkəmlənməsi türk dünyasının gələcək inkişafının və qlobal güc kimi formalaşmasının açarıdır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Ceyhun Bayramov Hakan Fidanla ikitərəfli və regional məsələləri müzakirə ediblər

Dekabrın 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 32-ci iclası çərçivəsində Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan ilə görüşüb.

XİN-dən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanla Türkiyə arasında möhkəm dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə inkişafı məsələləri, habelə bölgədə mövcud təhlükəsizlik vəziyyəti, regional sülh və sabitliyin təmin olunması istiqamətində görülən tədbirlər müzakirə olunub.



Bu çərçivədə iki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə davam etməsinin əhəmiyyəti vurğulanıb. Tərəflər iqtisadiyyat və ticarət, energetika və nəqliyyat-kommunikasiya layihələri, o cümlədən regional bağlantı təşəbbüslərinin reallaşdırılması ilə bağlı perspektivləri nəzərdən keçiriblər.

Nazirlər beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini qeyd edərək, Azərbaycan və Türkiyənin bir-birini qarşılıqlı şəkildə dəstəkləməsinin regional əməkdaşlığa müsbət töhfə verdiyini vurğulayıblar.

Nazirlər həmçinin digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan və Şimali Kipr arasında ailə, qadın və uşaq məsələləri üzrə əməkdaşlıq müzakirə olunub

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova dekabrın 4-də Şimali Kipr Türk Cümhuriyyətinin əmək və sosial müdafiə naziri Oğuzhan Hasipoğlu ilə görüşüb.

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə çıxış edən B.Muradova ölkələr arasındakı münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə edib. O, ölkəmizdə həyata keçirilən ailə siyasəti, qadınların sosial və iqtisadi baxımdan gücləndirilməsi, uşaq hüquqlarının müdafiəsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Həmçinin erkən nikah və qohum evlilikləri ilə bağlı qanunvericilikdəki son dəyişikliklərdən, gender bərabərliyinin təmin olunması, qızların təhsilinə dəstək məqsədilə reallaşdırılan layihələrdən danışıb. Bildirib ki, Azərbaycan bu sahədə formalaşmış müsbət təcrübəsini bölüşməyə hazırdır.

Nazir O.Hasipoğlu Şimali Kiprdə sosial müdafiə sahəsində görülən işlərdən danışıb. Qadınların məşğulluğunun artırılması, onların əmək bazarında iştirak imkanlarının genişləndirilməsi, peşə və sahibkarlıq bacarıqlarının gücləndirilməsi üzrə həyata keçirilən layihələri diqqətə çatdırıb. O, gələcəkdə birgə layihələrin reallaşdırılması, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı təkliflərini bölüşüb.



Görüş zamanı qarşıdakı dövr üçün nəzərdə tutulan əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

# Ankara Ermənistan ilə münasibətlərdə hər zaman Azərbaycanın maraqlarını nəzərə alıb

"Bu gün Ermənistanın Türkiyə ilə sərhədləri açmağa çalışması və rəsmi Ankaranın bu istəyə müsbət yanaşması Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı zəfər nəticəsində yaranan siyasi reallıqların nəticəsidir. Azərbaycanın qələbəsindən sonra Ermənistanın siyasi elitası uzun müddət təcrid vəziyyətində qala bilməyəcəyini aydın şəkildə başa düşdü".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyənin "Haber 365" media qrupunun rəhbəri, siyasi ekspert Yakub Aslan deyib.

Onun sözlərinə görə, Qarabağın işğaldan azad edilməsi regionda sülh prosesinin əsasını qoydu.

"Rəsmi Bakı nəqliyyat dəhlizlərini inkişaf etdirmək istiqamətində ölkə daxilində böyük infrastruktur layihələr həyata keçirdi ki, bu da Ermənistana nümunə oldu. Dəhlizlərdən istifadə etmək üçün region dövlətləri arasında sülhün hökm sürməsi zəruridir. Bir dövlətin digəri ilə münaqişə vəziyyətində qalması beynəlxalq marşrutların fəaliyyətini və investisiya cəlb edilməsini mümkünsüz edir. Bu baxımdan Ermənistan Azərbaycanın nəqliyyat və tranzit potensialını düzgün qiymətləndirərək, Zəngəzur dəhlizinin qurulmasına dəstək verərək öz ərazisində ABŞ sərmayəsi hesabına infrastruktur layihələr həyata keçirməyə başlayıb", - deyə ekspert əlavə edib.

Zəngəzur dəhlizinin Ermənistan üçün də təcrid vəziyyətindən çıxmaq anlamına gəldiyini deyən Yakub Aslan ilk dəfə cari ilin oktyabrında Qazaxıstandan yola salınan 1000 ton taxıl ilə yüklənmiş qatarın Azərbaycan ərazisindən keçərək Ermənistana daxil olmasına icazə verilməsinin rəsmi Bakının məqsədinin yalnız sülh olduğunu deməyə əsas verdiyini sözlərinə əlavə edib. Siyasi ekspert nəzərə çatdırıb ki, nəinki Türkiyə, eləcə də, ABŞ bu addımı dəstəkləyərək dəhlizin inkişafı üçün sərmayə yatıracağını açıqlayıb ki, bu da dəhlizin beynəlxalq ticarət üçün mühüm olduğunu göstərir: "Türkiyəyə gəlincə, qeyd etmək lazımdır ki, rəsmi Ankara Ermənistan ilə münasibətlərdə hər zaman Azərbaycanın maraqlarını nəzərə alıb və rəsmi Bakının mövqeyindən çıxış edib. Düşünürəm ki, bu gün Türkiyənin Ermənistan ilə sərhədləri açmaq məsələsi Azərbaycansız həyata keçməyəcək. Türkiyə hər zaman Azərbaycana istər hərbi, istərsə də humanitar sahələrdə dəstəyini davam etdirəcək. Zənnimcə, Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılması Zəngəzur dəhlizinin də fəaliyyətini intensivləşdirəcək və daşınan yüklərin həcminin artmasına imkan verəcək ki, bu da region dövlətləri üçün faydalı olacaq".

# Mərkəzi Bankın Xızıda vətəndaşlarla səyyar görüşü

Maliyyə xidmətləri sahəsində vətəndaşların hüquqlarının qorunması, habelə onlara göstərilən xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən görülən mütəmadi tədbirlərin davamı olaraq Xızı rayonunda vətəndaşların səyyar görüşü keçirilib.

AMB-dən AZƏRTAC-a bildirilib ki, vətəndaşların müraciətləri əsasən kredit istəyi və kredit müqaviləsi üzrə qoyulmuş öhdəliklərə güzəştlərin tətbiqi, fəaliyyəti dayandırılmış filialın yenidən bərpası ilə bağlı təklif və sorğular ilə bağlı olub.

Görüş zamanı Mərkəzi Bankın nümayəndələri tərəfindən vətəndaşların müraciətlərinə fərdi qaydada baxılıb və qanunvericiliyə uyğun atıla biləcək addımlar onlara izah olunub.

Vətəndaşlar səyyar görüşlərlə bağlı əlavə sual, təklif və müraciətlərini **www.contact.e-cbar.az** elektron müraciətlər sistemi vasitəsilə Mərkəzi Banka ünvanlaya və ya "966" Çağrı Mərkəzi ilə əlaqə saxlayaraq məlumat əldə edə bilərlər.

## Qərbi azərbaycanlıların tarixi torpaqlarından sonuncu deportasiyasından 38 il ötür

# Qərbi azərbaycanlılar da doğma yurdlarına qayıdacaqlar



**Müasir tariximizin son 25 ilində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük inkişaf yolu keçmişdir. Yüksək idarəçilik məharəti, milli maraqlara söykənən daxili və xarici siyasəti qısa müddətdə dövlət başçısına xalqda böyük rəğbət, sonsuz inam və etibar yaratmışdır. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər və birgünlük lokal antiterror tədbirlərinin uğurlu nəticəsində Ermənistanın 30 ildən artıq işğal altında saxladığı Azərbaycan torpaqları öz azadlığına qovuşmuşdur. Artıq Böyük qayıdışın işığında o kəndlərə, o rayonlara yüzlərlə məcburi köçkün ailəsi qayıtmışdır və proses uğurla davam edir.**

Onilliklər ərzində doğma torpaqlarını tərk etməyə məcbur olmuş qərbi azərbaycanlılar müxtəlif qurumlarda birləşərək daim öz etirazlarını və tələblərini bildirmiş, bu məsələyə beynəlxalq səviyyədə diqqət cəlb etməyə dəfələrlə cəhdlər göstərmişlər. Ötən müddətdə kütləvi informasiya vasitələri, saytlar yaradılmış, dədə-baba yurdlarımızın tarixinə, adət-ənənələrinə və digər məsələlərə həsr edilmiş yüzlərlə məqalə, onlarla kitab yazılmışdır. Ancaq nəyi necə və nə vaxt etmək lazım olduğunu hamıdan yaxşı bilən Azərbaycan Prezidenti bu icmanın vahid bir qurumda birləşməsini məsləhət görmüş, əslində, icmaya sahib çıxaraq onun fəaliyyətinə şərait yaratmışdır.

Prezident İlham Əliyev tarixi Zəfərdən sonra qərbi azərbaycanlıların da öz dədə-baba torpaqlarına qayıtmaq tələbini reallaşdırmağı zəruri və qanuni hesab edib. Artıq üç ilə yaxındır ki, Qərbi Azərbaycan İcması "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisi kimi fəaliyyət göstərir. İcmanın yeni nizamnaməsi təsdiq olunub. İcmada Müşahidə, Ağsaqqallar, Ziyalılar, Qadınlar və Qəyyumlar şuraları, İdarə Heyəti, Nəzarət-Təftiş Komissiyası, Gənclər Birliyi, xarici ölkələrdəki nümayəndəliklər kimi strukturlar yaradılıb. Təşkilat 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplanıldığı və saxlanıldığı ictimai quruma çevrilib. 1988-1991-ci illərdə Qərbi Azərbaycandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyan hesablanıb və hazırda bu işlər davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanmasını davam etdirir.

2022-ci il dekabrın 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olmuş və bir qrup ziyalı ilə görüşündə demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənəd təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Azərbaycan Xalq Cümhuriyyətinin yaranma dövründə İrəvanın orada yaşayan insanlardan xəbərsiz ermənilərə verilməsi tarixi xəyanət idi. Bu azmış kimi, 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə tarixi torpağımız olan Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər.

1948-1953-cü illərdə qərbi azərbaycanlılar növbəti deportasiyaya məruz qalmışlar. Bu, sovet hökuməti tərəfindən Azərbaycan xalqına qarşı məqsədli şəkildə həyata keçirilən növbəti ədalətsizlik idi. Azərbaycan Prezidenti Qərbi Azərbaycandan olan ziyalılarla görüşündə onu da vurğulamışdır ki, biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar. Azərbaycanlıların məskunlaşdıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda bütövlükdə indi depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik.

Ümumiyyətlə, Prezident İlham Əliyevin qərbi azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi soyqırımı və deportasiya məsələlərinin ətraflı şəkildə öyrənilməsi və tədqiqi, həqiqətin dünya xalqlarına çatdırılması 2022-ci ilin oktyabrında onun Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı çıxışından və imzaladığı fərmanlardan sonra sistemli şəkil almışdır.

Xatırladaq ki, icmanın beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanan, ədalətin və sülhün bərqərar olunmasına xidmət edən mövqeyini tərəqqipərvər dünya ictimaiyyəti də dəstəkləyir. Qürurverici haldır ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının, İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Müraciətin belə bir mötəbər qurum tərəfindən dəstəklənməsi və yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur.

İnsanlar boya-başa çatdıqları doğma yurdlarına, kəndlərinə qayıtmağı özlərinə mənəvi borc bilirlər və bu həqiqətin gec-tez reallaşacağına inanırlar. Dövlət başçısı çıxışında qətiyyətlə "Gün gələcək qərbi azərbaycanlılar tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar" deməsi onlarda bu inamı qatqat artırıb. Bunu Sosial Tədqiqatlar Mərkəzinin ölkəmizdə yaşı 18-24 arasında olanlarla keçirdiyi sorğudan da görmək olar. İctimai rəy sorğusunda respondentlərə "Prezident Qərbi Azərbaycana (İrəvan, Zəngəzur və Göyçə mahalına) qayıdışla bağlı yeni hədəfləri elan etdi. Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanırsınız" sualı ünvanlanıb. Ümumi nəticələr insanların 74,6 faizinin Qərbi Azərbaycana qayıdışın baş tutacağına inandıqlarını göstərib.

İcmanın Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışı məsələsinin Brüsseldə gündəmə gətirilməsini alqışlayan bəyanatında məmnunluqla bildirilir ki, əldə etdiyimiz məlumatlara görə, 2023-cü il iyulun 15-də Brüssel şəhərində keçirilmiş üçtərəfli görüşdə qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıdışı müzakirəyə çıxarılmışdı.

Ermənistandan zorla çıxarılmış hər bir azərbaycanlının qayıdış hüququnun reallaşması mütləqdir. Bu mütləqlikdən Ermənistan rəhbərliyi nə qədər tez nəticə çıxarsa, bir o qədər özünün və sülhün xeyrinə iş görmüş olar. Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtmaları insan haqlarının və ədalətin təntənəsi olmaqla bərabər, Ermənistan və Azərbaycan arasında davamlı sülhün bərqərar olması üçün zəruri şərtlərdən biridir.

Özü 1948-ci il deportasiyasının, oğlu İkinci Qarabağ müharibəsinin iştirakçısı olmuş Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski müxbirimizə demişdir:

- Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyası ilə əlaqədar istər fərdi qaydada, istər kollektiv şəkildə atılan ciddi addımlara dövlət dəstəyi getdikcə artırılır. Qərbi Azərbaycan həqiqətləri ilə bağlı araşdırmaların yeni yanaşmalarla aparılması gündəmdədir. Sanballı tədqiqatlarla bərabər, həm də vaxtilə yazılmış kitabların tarixi reallıqlara uyğun yenilənməsi nəzərdə tutulub. Bu məqsədlə ənənəvi beynəlxalq elmi konfransların və görüşlərin təşkilinə üstünlük verilir ki, mövzu daim özünün strateji əhəmiyyətini saxlaya bilsin.

İcma rəhbərliyi Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparmaq üçün beynəlxalq müstəvidə xalqımızın və dövlətimizin haqlı tələbini dünyaya bəyan edir. İcma davamlı olaraq Ermənistandan ətraf mühiti biləərəkdən çirkləndirməyə son qoymağı tələb edib. Ermənistan hökumətinin bu ölkədən zorla çıxartdığı azərbaycanlıların geri qayıdacağı gözlənilən əraziləri qəsdən yaşanılmaz hala gətirməyə yönəlmiş məqsədyönlü, mənfur səylərini dərhal dayandırması və nəticələrini aradan qaldırması üçün beynəlxalq ictimaiyyəti təcili olaraq qətiyyətli addımlar atmağa, habelə Ermənistana maksimum təzyiq göstərməyə çağıran bəyanatlar və müraciətlər yayıb.

Bəyanatlarda o da vurğulanıb ki, Ermənistan Azərbaycan ərazilərinin işğalı zamanı azərbaycanlıların qovulduğu şəhər, qəsəbə və kəndlərin, demək olar ki, hamısını dağıdıb, onların geri qayıtmamaları üçün həmin ərazilərdə bir milyondan çox mina basdırıb.

Eyni zamanda qeyd edilib ki, Qacarandakı Zəngəzur Mis-Molibden Kombinatı və Qafandakı mədən kombinatı tərkibində xrom, nikel, mis, molibden, sink, alüminium, vanadium, qurğuşun kimi ağır metallar olan mədən tullantılarını çaya buraxır. Bu çirklənmə Azərbaycana doğru axan Oxçuçay və Araz çaylarına birbaşa təsir edərək, bölgədəki insanların sağlamlığını və rifahını təhlükə altına qoyur.

Bundan başqa, Əkərək (Agarak) Mis-Molibden Kombinatı Kərçivançay vasitəsilə Araz çayını tərkibində ağır metallar olan mədən tullantıları ilə çirkləndirir. Göyçə (Geğarkunik) Mis Əritmə Zavodu çoxlu miqdarda kükürd qazı və digər çirkləndiriciləri ətrafa buraxaraq havanın və suyun çirklənməsinə səbəb olur. Mədənin yaxınlığında yerləşən Zod çayı mis, dəmir, kadmium və molibden kimi təhlükəli ağır metallarla çirkləndirilir. Bu misallar Ermənistanın dağıdıcı mədənçilik fəaliyyətinin məhz azərbaycanlıların vaxtilə sıx məskunlaşmış olduqları ərazilərdə cəmləşdirilməsinin bariz sübutudur.

Ermənistan hökumətinin təbiətə qarşı bu mənfur münasibəti onun azərbaycanlı qaçqınların geri qayıtmasının qarşısını almağa və etnik təmizləmə siyasətini davam etdirməyə hesablanıb.

Bəyanatlarda deyilib: "Biz beynəlxalq ictimaiyyəti Ermənistanın ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq konvensiyalar üzrə öhdəliklərinə zidd olan bədxah əməllərinə son qoymaq üçün qətiyyətli addımlar atmağa çağırırıq. Bu mədənlərin və zavodların azərbaycanlıların zorla qovulduğu ərazilərdə qəsdən cəmləşdirildiyini vurğulayırıq. Bu, Ermənistanın etnik təmizləmə siyasətini bir daha nümayiş etdirir. Beynəlxalq ictimaiyyət Ermənistanın bu dözülməz hərəkətlərini pisləməli və ondan beynəlxalq ekoloji normaları pozan, insan sağlamlığına təhlükə yaradan, azərbaycanlı qaçqınların yurdlarına təhlükəsiz qayıtmasına mane olan və qonşu Azərbaycana xeyli transsərhəd ziyan vuran bütün fəaliyyətləri dərhal dayandırmağı tələb etməlidir".

Görünən odur ki, bu tarixi hadisələrin əhəmiyyəti milli inkişafımızın yeni mərhələsinin başlanması ilə əlamətdardır. Qalib xalqın Prezidenti, Ali Baş Komandan, dünya azərbaycanlılarının Lideri İlham Əliyevin rəhbərliyi ilə bu gün Qərbi Azərbaycana qayıdış qarşımızda daha geniş üfüqlər açmışdır. Əminliklə deyə bilərik ki, həmişə olduğu kimi, bundan sonra da qərbi azərbaycanlılar Prezident İlham Əliyevin ətrafında sıx birləşərək son dayanacaqları İrəvan olmaqla Böyük qayıdışın ikinci mərhələsinin iştirakçısı olacaqlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Tarixi ədalətin tələbi

Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarından, tarixi Azərbaycan torpaqlarından 1987-ci ildən başladılan sonuncu deportasiyasından 38 il ötür. Hər il dekabrın 5-i qərbi azərbaycanlıların 1987-1991-ci il deportasiyasının anım günü kimi qeyd edilir.

Xəstə erməni təfəkkürünün məhsulu olan "dənizdən dənizə böyük Ermənistan" kimi sərsəm xülyanı həyata keçirmək üçün Ermənistan, erməni terrorçu təşkilatları, erməni diasporu və kilsəsi Azərbaycan xalqına qarşı milli zəmində silsilə şəkildə bəşəri cinayətlər törədiblər. Xarici güclər tərəfindən planlı şəkildə Cənubi Qafqaza yerləşdiriləndən və Azərbaycan torpaqları hesabına Ermənistan adlı qondarma dövlət yaradılandan sonra neonasist siyasət yürüdülərək indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar üç mərhələ ərzində son nəfərinə qədər tarixi torpaqlarından kütləvi şəkildə deportasiya ediliblər. Deportasiyalar zamanı soydaşlarımıza qarşı kütləvi qırğınlar həyata keçirən erməni şovinistləri daha çox ərazilər əldə etmək üçün həm də Azərbaycana qarşı işğal siyasətini həyata keçirməyə başlayıblar. Öz tarixi yurdlarından deportasiya edilən, didərgin salınan milyondan çox soydaşımız böyük məhrumiyyətlərlə, maddi, mənəvi əzablarla müşayiət olunan qaçqınlıq, məcburi köçkünlük kimi ağır həyat yaşamağa məhkum ediliblər.

Azərbaycanın Vətən müharibəsindəki zəfəri yüz minlərlə keçmiş məcburi köçkünümüzün yurd həsrətinə birdəfəlik son qoydu. 2021-ci ilin iyulundan etibarən Qarabağ və Şərqi Zəngəzura yola salınan qayıdış karvanları, Qərbi Azərbaycandan zorla deportasiya edilən soydaşlarımızın da düz dörd onilliyə yaxındır ki, ürəklərində yaşatdıqları qayıdış inamlarının işarmasına səbəb oldu. Hazırda Azərbaycan dövləti bu soydaşlarımızın da sülh yolu ilə təhlükəsiz şəkildə dədəbaba yurdlarına qayıdışının təmin edilməsi üçün bütün parametrlərdə əməli fəaliyyət göstərir.

### Deportasiyanın dəhşətli mərhələləri

XX əsrdə azərbaycanlılar Ermənistandan 3 əsas mərhələdə kütləvi deportasiya ediliblər. 1918-1920-ci, 1948-1953-cü və 1987-1991-ci illərdə.

Qərbi Azərbaycan İcmasının soydaşlarımızın deportasiya haqqında məlumatında deyilir ki, Birinci Dünya müharibəsi dövründə Şərqi Anadoluda türk-müsəlman əhalini qətlə yetirməkdə təcrübəsi olan, təpədən-dırnağacan silahlanmış erməni dəstələri Qafqaz cəbhəsini tərk edən rus ordusu ilə birləşərək 1918-ci ilin əvvəllərində İrəvan quberniyası ərazilərinin azərbaycanlı əhalidən təmizlənməsi istiqamətində bir sıra silahlı aksiyalar həyata keçirmişdilər. Həmin vaxt İrəvan quberniyasının İrəvan, Sürməli, Eçmiədzin və Novo-Bəyazid qəzalarında erməni silahlı dəstələri tərəfindən 199 kənd qarət olunmuş və nəticədə müsəlman (azərbaycanlı) əhali yurdlarını tərk etmişdilər. 1918-ci il may ayının sonlarında İrəvan quberniyası ərazisində Cənubi Qafqazda əvvəllər sahəsi 10 min kv. km-dən çox olmayan Ararat Respublikası yaradıldıqdan sonra isə soyqırımı siyasəti artıq dövlət səviyyəsində həyata keçirilməyə başlamışdı.

17-31 avqust 1919-cu il tarixlərində Ermənistan Respublikasının ərazisində Eçmiədzin, Sürməli, İrəvan və Novo-Bəyazid qəzalarında 50-yə qədər müsəlman (Azərbaycan) kəndi dağıdılmışdı.

1919-cu ilin son iki ayında Eçmiədzin qəzasının 62 kəndi, Sürməli qəzasının 34 kəndi və İrəvan qəzasının müsəlman (azərbaycanlı) kəndlərinin hamısı (Zəngibasardan başqa) erməni silahlı dəstələri tərəfindən yenidən dağıdılmışdı.

Himayədarlıq Nazirliyinin məlumatlarına əsasən, bunun nəticəsi olaraq, 1919-cu ilin sonuna qədər Novo-Bəyazid, İrəvan və Eçmiədzin qəzalarının dağıdılmış müsəlman (Azərbaycan) kəndlərindən olan qaçqınların sayı 200 min nəfər təşkil etmişdir.

Onların əsas hissəsi Naxçıvan, Şərur, Qazax, Gəncə və Şamaxıda məskunlaşmışdı.

İcmanın məlumatında deyilir ki, Sovet hakimiyyəti dövründə azərbaycanlıların Ermənistandan köçü davam etmişdir. Bu proses xüsusilə İkinci Dünya müharibəsindən sonra güclənmiş və SSRİ-nin süqutuna qədər daimi tendensiya şəklini almışdı: "Azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi barədə SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli Qərarı İ.Stalinin imzası ilə qəbul edilmişdi. Fərmana əsasən, Ermənistandan 100 min nəfərlik azərbaycanlı əhalinin 1948-1950-ci illər ərzində köçürülməsi nəzərdə tutulurdu".



Ancaq planlaşdırılan sayda azərbaycanlı ailənin Ermənistandan köçürülməsini müəyyən edilmiş müddətdə həyata keçirmək mümkün olmayıb. Məlumatda bildirilir ki, ona görə də 1950-ci il sentyabrın 6-da SSRİ Nazirlər Soveti "1951-1955-ci illərdə Azərbaycan SSR-in Kür-Araz ovalığının kolxozlarına köçürülmə haqqında" yeni qərar qəbul edib. Həmin qərara əsasən, müəyyən edilmiş müddət ərzində Ermənistan SSR-dən 15 min kolxozçu və digər azərbaycanlı əhalinin köçürülməsi nəzərdə tutulurdu.

1997-ci il dekabrın 18-də Ümummilli Lider Heydər Əliyevin imzaladığı fərmanla 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan deportasiyasına ilk dəfə hüquqi-siyasi qiymət verilib. Fərmanda xüsusilə qeyd olunurdu ki, bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə, onun vətəndaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakına zidd olan mövqeyi də az rol oynamamışdır.

Azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu və öz miqyasına və icra üsullarına görə ən dəhşətli mərhələsi 1987-1991-ci illərə təsadüf edib. Qərbi Azərbaycan İcmasının məlumatında göstərilir ki, 1948-1953-cü illərdəki deportasiyadan fərqli olaraq, o, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını irəli sürməsi ilə eyni vaxta təsadüf etmişdi və buna görə də ağırlığı ilə fərqlənirdi: "Vəziyyətin azərbaycanlılar üçün ağırlığı bununla bağlı idi ki, deportasiya azərbaycanlıların yaşadığı torpaqların tarixən ermənilərə məxsus olması iddiasına hüquqazidd əməllərlə haqq qazandırmaq istəyən Ermənistan inzibati və hüquq-mühafizə orqanlarının bilavasitə iştirakı ilə həyata keçirilirdi.

Sosial tərkibinə görə, Ermənistandan olan azərbaycanlı qaçqınların əsas hissəsini tarixi yurdlarını, atababalarına məxsus otlaqları, əkinəyararlı torpaqları, çəmənlikləri tərk edən kəndlilər təşkil edirdi. Onların yalnız kiçik bir hissəsi kiçik sənaye şəhərlərinin və Yerevanın (İrəvanın) sakinləri idi.

Azərbaycanlılar erməni dilini bilir və ana dili olan Azərbaycan dilində olduğu kimi, bu dildə də səlis danışırdılar, lakin daimi ayrı-seçkiliyə məruz qalırdılar və hüquqları tapdalanırdı. Ermənistanda azərbaycanlılara "türk" olduqları daim hiss etdirilib".

Təkcə 1987-1991-ci illər ərzində üç yüz minə yaxın azərbaycanlı Qərbi Azərbaycandan deportasiya olunub.

### Sülh yolu ilə qayıdış

Bölgədə sabitliyin, barışın və davamlı inkişafın əldə olunması üçün ilkin addım cari il 8 avqust tarixində Vaşinqton Sülh Sammitində atılıb. Ağ Evdə Azərbaycan-Ermənistan arasında Birgə Bəyannamənin imzalanması, sülh sazişinin mətninin paraflanması təkcə iki ölkənin deyil, ümumilikdə bölgə adına əldə olunan uğur kimi həm də bu coğrafiyada yaşayan xalqların firavan həyatının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu anlamda indiki Ermənistan ərazilərindən deportasiya edilən qərbi azərbaycanlıların qayıdış hüquqlarının təmin olunması üçün də tarixi an yetişib. Qərbi Azərbaycana qayıdış dövlətimizin gündəliyində duran vacib məsələlərdən biridir. Davamlı olaraq bu məsələ beynəlxalq gündəlikdə qaldırılır və bu istiqamətdə işlər görülür.

1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin adı 3 avqust 2022-ci ildə dəyişdirilərək "Qərbi Azərbaycan İcması" adlandırılıb. İcmanın yeni Nizamnaməsi təsdiq olunub, Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların geriyə qayıtmasının təmin edilməsi ilə bağlı Qayıdış Konsepsiyası hazırlanıb. Qayıdış Konsepsiyası indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün Qərbi Azərbaycan İcmasının həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir. Qafqaz Müsəlmanları İdarəsi (QMİ) tərəfindən İrəvan Qazılığının bərpa edilməsi barədə qərar da verilib. İrəvan Qazılığının Əsasnaməsi də artıq təsdiqlənib.

Beynəlxalq birlik də qərbi azərbaycanlıların qayıdış hüquqlarını dəstəkləyir. Bu il Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə qəbul edilən Xankəndi Kommünikesində Ermənistandan qovulmuş azərbaycanlıların öz doğma yurdlarına ləyaqətli qayıdış hüququ da əksini tapıb. İyunun 21-22-də İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasının yekununda ilk dəfə olaraq Qərbi Azərbaycan İcması ilə bağlı qətnamə qəbul olunması da bu qəbildəndir.

Prezident İlham Əliyevin 21 may 2025-ci ildə Türkiyənin paytaxtı Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilmiş beynəlxalq konfransın iştirakçılarına müraciəti də BMT sənədi kimi yayılıb.

Bir sözlə, Qərbi Azərbaycandan olan soydaşlarımızın tarixi torpaqlarına qayıdışları beynəlxalq hüququn və ədalətin təmini deməkdir.

Necə ki, bu barədə Prezident İlham Əliyev bildirib: "Tarixi ədalət bu insanların öz vətənlərinə dinc və təhlükəsiz qayıdışının təmin olunmasını tələb edir. Ermənistan azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtmaq hüququna hörmətlə yanaşmalıdır. Bu, bölgədə sülhün, barışığın və insan hüquqlarının bərqərar olması üçün vacib şərtdir".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycanın "yaşıl enerji" gündəliyi

### Cənubi Qafqazı Avropa ilə birləşdirəcək dəniz dibi kabeli layihəsi tezliklə tam gücü ilə işə düşəcək

**Neçə illərdir Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayan Azərbaycan artıq "yaşıl enerji"nin dünya bazarına nəqlini prioritet sahələrdən biri elan edib. Ümumiyyətlə, son illərdə Azərbaycan Avropanın təkcə enerji təhlükəsizliyində mühüm rol oynamır, eyni zamanda qitənin və Avropa İttifaqının gələcəyi ilə bağlı müzakirələrdə də rəyinə, mövqeyinə önəm verilən ölkə kimi çıxış edir.**

Avropa Komissiyası Azərbaycanı enerji üzrə etibarlı tərəfdaş və ümum-Avropa qaz təchizatçısı adlandırır. Bu barədə danışarkən Prezident İlham Əliyev qeyd edib ki, bu, çox böyük məsuliyyətdir və əlbəttə, Azərbaycan tək Avropanı 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qazla təchiz etmək üzrə öhdəliyini yerinə yetirmək üçün çalışır. Bu, Azərbaycanın hədəfidir.

Dövlət başçısı həmçinin digər enerji layihələri barədə məlumat verərək Azərbaycanın etibarlı enerji təchizatçısı olduğunu bir daha bəyan edib.

Azərbaycanın ənənəvi enerjidən bərpaolunan enerjiyə keçidinə gəldikdə isə deyə bilərik ki, bu istiqamətdə çox mühüm addımlar atılır, dost və tərəfdaş ölkələrlə müştərək layihələrin işlənməsi istiqamətində sazişlər imzalanır. Onlardan biri də 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"dir. Bu sazişə əsasən, 4 ölkə "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsini reallaşdırmaq üçün birgə səy nümayiş etdirir.

Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare layihə ilə bağlı mətbuata açılqlama verərək bildirib ki, onlar "Cənub qaz dəhlizi"ni ilk gündən dəstəkləyən ölkələrdən biridirlər. Bu, Azərbaycan qazını birbaşa Qərbi Avropaya, o cümlədən İtaliyaya çatdıran bir marşrutdur: "Təbii ki, bundan başqa, biz digər layihələrlə bağlı da işləyirik. Ona görə də fakt fakt olaraq qalır - Azərbaycan qazı artıq Avropa bazarına daxil olub".

O bildirib ki, Rumıniya ilə Azərbaycan eyni zamanda gələcək layihələrin təşəbbüskarlarıdır və "yaşıl enerji" ilə bağlı yeni layihələri inkişaf etdirirlər. "2022-ci ildə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında ən yüksək səviyyədə razılaşma imzalanıb. Bu, bərpaolunan enerji mənbələrinin, xüsusilə Xəzər dənizindəki böyük potensiala malik külək enerjisinin Avropa bazarına çatdırılması ilə bağlıdır. Hazırda bu layihənin texniki-iqtisadi əsaslandırılmasının tamamlanması gözlənilir. Bu prosesin başa çatdırılması əvvəlcə bu ilin sonunadək nəzərdə tutulmuşdu, lakin proses növbəti ilin yazına qədər uzadılıb. Texniki-iqtisadi əsaslandırma layihənin inkişaf etdirilməsinə imkan verəcək nəticələr təqdim edəcək. Layihə maliyyətutumlu olsa da, gələcəyin layihəsi kimi qiymətləndirilir. Düzdür, hazırda əsas enerji kimi qaz istifadə olunur, lakin yaxın gələcəkdə bu layihə enerji təchizatı sahəsində strateji əhəmiyyət kəsb edəcək. Bu, gələcək enerji tendensiyalarına uyğundur", - deyə V.Saore qeyd edib.

Səfir diqqətə çatdırıb ki, Rumıniya və Azərbaycan enerji resurslarını səmərəli istifadə edərək xarici bazarlara çatdırmağa hər zaman hazırdırlar.

"Yəni bizdə qaz da var, bu qazı istehlak edən bazar da. Gələcəkdə enerji istehlak edəcək digər bazarlar da olacaq. Biz - həm Rumıniya, həm də Azərbaycan bu enerjini təmin etməyə hazırıq. Əsas odur ki, bizdə düzgün yanaşma və idarəetmə olsun, bu resurslardan səmərəli istifadə edək və onlar ehtiyacı olan ölkələrin bazarına çatdırılsın", - deyə səfir vurğulayıb.

Ümumiyyətlə, Azərbaycan "yaşıl enerji" iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlə də sübut edir. Buna misal olaraq, Azərbaycan 1990-cı ilə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

Son illərdə dünyanın enerji sektorunda baş verən sürətli dəyişikliklər və innovativ texnologiyaların inkişafı, qlobal enerji bazarlarında yeni imkanlar yaradıb. Bu kontekstdə, Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsi və enerji istehsalının diversifikasiyası məsələləri ölkənin strateji prioritetləri arasında yer alır. Xüsusilə, regional əməkdaşlıq və infrastruktur layihələri Azərbaycanın enerji sektorunu daha möhkəm bir bünövrə üzərində qurmağı hədəfləyir. Bu kontekstdə, "Qara dənizin dibi ilə çəkiləcək kabel xətti" layihəsi Azərbaycanın enerji təhlükəsizliyi və iqtisadiyyatına əhəmiyyətli töhfələr verəcək.

Qara dəniz altından çəkiləcək kabel xətti, təbii qaz və elektrik enerjisi mübadiləsi üçün yeni bir əlaqə nöqtəsi yaradacaq. Bu layihə həm Azərbaycanın, həm də regional və qlobal enerji bazarlarının maraqları üçün strateji əhəmiyyət kəsb edir. Kabel xətti, müxtəlif enerji mənbələrindən əldə olunan elektrik enerjisinin mübadiləsini asanlaşdıracaq və Azərbaycanın enerji təchizatını daha etibarlı və davamlı edəcək.

Xüsusilə, Avropa ilə enerjinin mübadiləsi, Azərbaycanın enerji ixracını daha geniş bir bazara çıxarmağa imkan verəcək. Bu layihə ölkənin enerji ixracını artırmaqla yanaşı, Avropa enerji bazarlarında daha da rəqabətqabiliyyətli olmasına şərait yaradacaq.

Qara dəniz altından çəkiləcək kabel xətti, Azərbaycanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edəcək. Azərbaycanın mövcud enerji istehsalı, əsasən, fosil yanacaqlardan - təbii qazdan asılıdır. Lakin qlobal enerji bazarlarının dəyişməsi və "yaşıl enerji" mənbələrinin artan tələbatı fonunda Azərbaycanın enerji istehsalını diversifikasiya etmək, həm də ekoloji balansı qorumaq zəruridir.

Bu kabel xətti həmçinin ölkənin enerji istehsalının müxtəlif mənbələrdən - bərpaolunan enerji ilə, həm də konvansional mənbələrlə təmin olunmasını asanlaşdıracaq. Nəticədə Azərbaycanın enerji bazarına daxil olan müxtəlif təchizat zəncirləri, ölkənin iqtisadiyyatına daha çox dayanıqlılıq və təkrarlanan enerji böhranlarına qarşı müdafiəni təmin edəcək.

Qara dəniz altından çəkiləcək kabel xətti layihəsi Azərbaycanın iqtisadi inkişafı və regional əməkdaşlıq baxımından mühüm bir addım olacaq. Bu layihə Azərbaycanın beynəlxalq enerji bazarlarında mövqeyini gücləndirəcək, eyni zamanda ölkənin enerji təchizatını diversifikasiya edəcək. Həmçinin Avropa ilə daha sıx əməkdaşlıq və enerji mübadiləsi, Azərbaycanın qlobal enerji bazarlarında daha geniş bir yer tutmasına səbəb olacaq.

Gələcəkdə bu layihənin tam həyata keçirilməsi, Azərbaycanın enerji sektorunun müasir standartlara uyğun inkişafını təmin edəcək və ölkənin iqtisadiyyatına uzunmüddətli müsbət təsir göstərəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycanın təşəbbüsləri Cənubi Qafqazı əməkdaşlıq meydanına çevirib

### Respublikamızın yürütdüyü siyasət həm də iqtisadi inteqrasiya proseslərini dərinləşdirir

Azərbaycanı Cənubi Qafqazda aparıcı mövqeyə çıxaran, eyni zamanda geoisiyasi və geoiqtisadi səviyyədə söz sahibinə çevirən faktorların əhatə dairəsi genişdir. Bu sırada respublikamızın müəllifliyi və təşəbbüsləri ilə ərsəyə gətirilən enerji və nəqliyyat dəhlizlərinin rolu xüsusi qeyd edilməlidir. Bu gün Azərbaycan regionda və Avropada enerji təhlükəsizliyinin əsas təminatçılarından biri, beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişdiyi unikal coğrafi ünvandır.

#### Strateji və uzaqgörən yanaşma

Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Cənub qaz dəhlizi" kimi mühüm ixrac marşrutlarına nail olmaqla ölkəmiz özünün karbohidrogen ehtiyatlarını uzun illərdir ki, dünya bazarlarına çıxarır. Bu marşrutlar regionun və Avropanın enerji xəritəsinə çox mühüm dəyişikliklər etməklə, Azərbaycan dövlətinin həyata keçirdiyi enerji siyasətinin nə qədər mükəmməl və uzaqgörən olduğunu təsdiq edir. Təsadüfi deyil ki, Avropa İttifaqı enerji dəhlizlərinin şaxələndirilməsi məsələsində hər zaman Azərbaycanın təşəbbüslərinə dəstək verib. Ən mühümü odur ki, sözügedən enerji marşrutları Azərbaycanın mənafelərinə uyğun reallaşıb, kənar maraqlar bu dəhlizlərdə rol almayıb.

Eyni fikirləri nəqliyyat dəhlizləri barədə də demək olar. Vaxtilə Azərbaycanın təşəbbüsü ilə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əsasının qoyulması və inşasının başa çatdırılması bir daha Prezident İlham Əliyevin ilk növbədə Azərbaycanın milli maraqlarının təmin olunması baxımından nə qədər uzaqgörən və strateji yanaşma nümayiş etdirdiyini göstərdi.

Bu infrastrukturlar Azərbaycanın Cənubi Qafqazda regional iqtisadi proseslərin gedişatını müəyyən edən aparıcı dövlət kimi statusa malik olmasını şərtləndirir. Eyni zamanda Azərbaycanın təşəbbüsləri ilə reallaşan nəqliyyat və enerji layihələri Ukraynada davam edən müharibənin fonunda bütün Avrasiya regionu üçün həyati əhəmiyyət kəsb etdiyini ortaya qoyur. Müharibə səbəbindən enerji ilə təminatında ciddi problemlər yaşayan Avropanın bu gün Azərbaycanın təbii qazına tarixdə görünməmiş qədər ehtiyacı var. Eyni zamanda yalnız Şimalda deyil, Cənubda da alovlanan yeni savaşlar Azərbaycandan keçən Orta dəhlizi həm Avropa, həm də Asiya üçün daha cəlbedici edir. Bu reallıqlar bir daha Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətindən xəbər verir.

#### Azərbaycanın yaratdığı tərəfdaşlıq körpüləri

Azərbaycan regionun orta güc kimi həm də regional iqtisadi tərəfdaşlıqların genişlənməsində, qlobal maraqların uzlaşmasında aparıcı rol oynayır. Təsadüfi deyil ki, respublikamızın təşəbbüsləri ilə ərsəyə gələn enerji və nəqliyyat dəhlizləri regional və dövlətlərarası əməkdaşlığı, onlar arasındakı xüsusən iqtisadi tərəfdaşlığı əhəmiyyətli şəkildə inkişaf etdirir. Məsələn, Azərbaycanın yaratdığı enerji layihələri həm də dövlətlərarası həmrəyliyin nümunələridir. Bakı-Tbilisi-Ceyhan neft kəməri Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən polad körpüdür. BTC üç ölkə arasında enerji sferasında əməkdaşlıq formatı deməkdir. Hansı ki, bu əməkdaşlıq onlar arasında digər sahələrdə, o cümlədən siyasi sferada münasibətlərin daha güclü səviyyədə qurulmasına təsirsiz ötüşmür.

Respublikamızın təşəbbüsü ilə reallaşan "Cənub qaz dəhlizi"nin isə dövlətlər arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığa töhfəsi daha böyükdür. Avropaya qədər uzanan bu dəhliz öz ətrafında Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya, Rumıniya, Macarıstan kimi dövlətləri, o cümlədən Avropa İttifaqını birləşdirir. Bu baxımdan "Cənub qaz dəhlizi"ni ərsəyə gətirməklə Azərbaycan dövləti beynəlxalq əməkdaşlığın unikal bir formatını yaradıb. "Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki "Cənub qaz dəhlizi"nin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı", - deyə Prezident İlham Əliyev bildirib.

Eyni fikirləri respublikamızın böyük töhfələri ilə reallaşan nəqliyyat dəhlizləri barədə də söyləmək mümkündür. Azərbaycanın da böyüməsində yaxından iştirak etdiyi Orta dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur, həmçinin yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən optimal yoludur. Bu dəhlizin qlobal rəqabətdə fərqlənməsi, özünü çevik nəqliyyat marşrutu kimi göstərməsi məhz Azərbaycanın sayəsində mümkün olmuşdur. Həm Azərbaycanın daxildə yaratdığı mükəmməl yollar, logistika və digər nəqliyyat imkanları, həm də Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsi Orta dəhlizin tranzit rəqabətində imkanlarını daha da artırıb. Orta dəhliz də enerji dəhlizləri kimi dövlətlərarası əməkdaşlığın mükəmməl əməkdaşlıq vasitəsidir. Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi isə bu əməkdaşlığı daha da gücləndirəcək.

Xüsusilə qeyd edilməlidir ki, qlobal səviyyədə maraqları toqquşan, aralarında dərin siyasi və iqtisadi ziddiyətlər olan ABŞ və Çin Azərbaycanın müəllifliyi ilə reallaşan nəqliyyat dəhlizlərində eyni mövqedən çıxış edirlər. Orta Dəhlizə Çinin verdiyi böyük dəstək əvvəldən məlumdur. Çin rəhbərliyi tərəfindən dəfələrlə Azərbaycanın regionda reallaşdırdığı nəqliyyat layihələrinin önəmi xüsusi qeyd edilib. Bu məsələ iki dövlət arasındakı strateji tərəfdaşlığın da mühüm elementini təşkil edir. Eyni zamanda ABŞ-nin Zəngəzur dəhlizinə (TRIPP) dəstək nümayiş etdirməsi Azərbaycanın yürütlüyü düşünülmüş siyasətin mühüm təzahürlərindən biridir.

Azərbaycanın müəllifliyi və təşəbbüskarlığı ilə reallaşan enerji və nəqliyyat layihələrinin regional iqtisadi inteqrasiya proseslərinə və dövlətlərarası əməkdaşlığa verdiyi töhfələr bütün siyasi və iqtisadi səviyyələrdə rəğbətlə qarşılanır. Görünən həm də odur ki, Azərbaycanın həyata keçirdiyi fəal siyasi diplomatiyanın nəticəsi olaraq aralarında ziddiyətlər yaşanan siyasi qütblərin belə, Cənubi Qafqazdakı maraqları üst-üstə düşür. Bunun da sayəsində Cənubi Qafqaz regionu qlobal müstəvidə əməkdaşlıq meydanı kimi diqqəti çəkir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*




## Azərbaycana investisiya qoyuluşu həm risk baxımından, həm də gəlir baxımından sərfəlidir

Azərbaycan son illər regional iqtisadi xəritədə həm sabitlik, həm də gəlir potensialı baxımından seçilən ölkələrdən biridir. Buna görə də həm yerli, həm də xarici investorlar üçün Azərbaycana investisiya qoyuluşu həm təhlükəsiz, həm də sərfəli hesab olunur.

Bu barədə AZƏRTAC-a açıqlama verən iqtisadçı Kamran Hacıyev bildirib ki, ilk növbədə ölkədə siyasi və makroiqtisadi sabitlik təmin edilib.

"Manatın nisbətən sabit məzənnəsi, dövlət borcunun aşağı olması, büdcə intizamı və ehtiyat fondlarının mövcudluğu uzunmüddətli investisiya qərarları üçün etibarlı fond yaradır. Enerji resursları - neft və qaz - ölkənin maliyyə dayanıqlılığının əsas baza mənbəyi olmaqla, eyni zamanda Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaş kimi çıxış edir. Bunun fonunda bərpaolunan enerji layihələri (külək və günəş stansiyaları) üzrə irihəcmli sazişlər imzalanır və bu sahə yeni investisiya dalğası üçün açıqdır", - deyə Kamran Hacıyev vurğulayıb.

İqtisadçı qeyd edib ki, Azərbaycanda investorlar üçün ümumi mexanizm kimi "investisiya təşviqi sənədi" tətbiq olunur. İqtisadiyyat Nazirliyinə layihə əsasında müraciət edən hüquqi və fiziki şəxslər təsdiq edilmiş sahə və regionlarda müəyyən minimal məbləğdən yuxarı investisiya öhdəliyi götürdükdə və layihə dəyərinin bir hissəsini faktiki olaraq yatırdıqda bu sənədi ala bilirlər: "İnvestisiya təşviqi sənədi əldə edən sahibkarlar 7 il müddətinə mənfəət (və ya gəlir) vergisinin 50 faizindən azadolma, müvafiq əmlak və torpaq vergisindən tam azadolma, layihə çərçivəsində idxal olunan texnoloji avadanlıq və qurğulara görə gömrük rüsumu, ƏDV-dən azadolma kimi geniş vergi-gömrük güzəştlərindən yararlana bilirlər. Bu rejim həm yerli, həm də xarici investorlar üçün eyni qaydada tətbiq edilir.



Bundan əlavə, Ələt Azad İqtisadi Zonasının öz xüsusi hüquqi və vergi rejimi mövcuddur. Zona daxilində qeydiyyatdan keçmiş şirkətlər üçün mənfəət vergisi, ƏDV, əmlak vergisi və bir çox gömrük ödənişləri üzrə sıfır dərəcəli rejim tətbiq olunur, korporativ strukturda 100 faiz xarici mülkiyyətə məhdudiyyət qoyulmur, lisenziyalaşdırma və icazə prosedurları isə daha çevik qaydada icra edilir. Bu, xüsusilə istehsal, logistika, regional qərargah və xidmət mərkəzləri üçün Azərbaycanı cəlbedici edir".

K.Hacıyev vurğulayıb ki, sabit siyasi mühit, güclü enerji bazası, strateji coğrafi mövqe, azad iqtisadi zonalar və sənaye parkları, eləcə də rəsmi investisiya təşviqi mexanizmi və vergi-gömrük güzəştləri Azərbaycana investisiya etməyi həm risk baxımından idarəolunan, həm də gəlir baxımından sərfəli edir.

# "Yusif Məmmədəliyev: Elm. İrs. İnnovasiyalar" adlı beynəlxalq konfrans işə başlayıb

**Dekabrın 4-də akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunan "Yusif Məmmədəliyev: Elm. İrs. İnnovasiyalar" adlı beynəlxalq konfrans işə başlayıb.**















AZƏRTAC xəbər verir ki, Elm və Təhsil Nazirliyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) birgə təşkil etdiyi konfrans görkəmli kimyaçı-alimin, Azərbaycan elminin inkişafında müstəsna xidmətləri olan akademikin elmi irsinin tədqiqi və müasir perspektivlər fonunda yenidən qiymətləndirilməsinə həsr olunub.

Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət ediblər. Ümummilli Liderin və görkəmli oftalmoloq-alimin məzarları önünə əklil və gül dəstələri qoyulub, onların əziz xatirələri ehtiramla yad edilib.

Sonra akademik Yusif Məmmədəliyevin məzarı ziyarət edilib, xatirəsi ehtiramla anılıb.

AMEA-nın Rəyasət Heyətinin binasında keçirilən açılış mərasimindən öncə tədbir iştirakçıları akademik Yusif Məmmədəliyevin həyat və fəaliyyətinə həsr edilmiş fotosərgi ilə tanış olublar.

Mərasimin rəsmi açılış hissəsində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, Yusif Məmmədəliyevin elmi irsi bu gün kimya sənayesində, elmi-tədqiqat müəssisələrində və ali təhsil proqramlarında geniş şəkildə tətbiq olunur.

Elm və Təhsil Nazirliyinin elmin populyarlaşdırılması, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, geniş tədqiqatçı kütləsinin dəstəklənməsi istiqamətində ardıcıl addımlar atdığını vurğulayan Emin Əmrullayev qeyd edib ki, bu çərçivədə akademik Yusif Məmmədəliyevin 120 illiyi münasibətilə elm və təhsil müəssisələrində ölkə ictimaiyyətinə, alimlərə və tələbələrə onun həyat və elmi fəaliyyəti barədə ətraflı məlumat verən tədbirlər təşkil olunur, tələbələrə müvafiq mövzular üzrə tədqiqat tapşırıqları verilir.

O, Yusif Məmmədəliyev adına müxtəlif tədqiqat qrantlarının, təqaüdlərin və gənc alimləri dəstəkləyən digər alətlərin hazırlanmasının həmin irsin davamlı şəkildə yaşadılmasına mühüm töhfə olacağını qeyd edib.

Nazirin sözlərinə görə, gələcəkdə həm Azərbaycandan, həm də xarici ölkələrdən olan gənc alimlər üçün təqaüdlərin və müxtəlif "fellowship" proqramlarının təsis edilməsi Yusif Məmmədəliyev adının yeni nəslə daha düzgün formada çatdırılmasına, eləcə də dünya səviyyəsində istiqamətverici elmi təşəbbüslərin formalaşmasına şərait yaradacaq.

Emin Əmrullayev vurğulayıb ki, növbəti ildən başlayaraq, Yusif Məmmədəliyev adına kimya olimpiadasının keçirilməsi planlaşdırılır. Olimpiada həm Azərbaycan, həm də region ölkələrinin şagirdlərini əhatə edəcək və bu, olduqca vacib təşəbbüsdür.



Sonra çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli akademik Yusif Məmmədəliyevin elmi irsinin dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirildiyini deyib. O, Ümummilli Lider Heydər Əliyevin alimin heykəlinin açılışında iştirak etdiyini, Prezident İlham Əliyevin isə akademikin 120 illik yubileyi ilə bağlı sərəncamında onu Azərbaycan elminin yetirdiyi parlaq sima və Azərbaycanda neft kimyasının bünövrəsini yaratmış alim kimi səciyyələndirdiyini vurğulayıb.

"Yusif Məmmədəliyev Azərbaycanın elm tarixinə neft-kimya məktəbinin banisi olaraq düşüb. Yusif Məmmədəliyev ilk dəfə neft qazlarının xlorlaşması, alınan halogenli birləşmələrin müxtəlif sahələrdə istifadəsi, halogenləşmə prosesləri ilə bağlı mühüm tədqiqatlar aparıb. Yüksəkoktanlı aviasiya yanacağını kəşf edib ki, bu da SSRİ-nin İkinci Dünya müharibəsində qələbə əldə etməsində tarixi rol oynayıb. Həmçinin neft kimyası və neft emalında alkilləşmə ilə bağlı mühüm elmi nailiyyətlər əldə etmişdir. Bundan əlavə, Yusif Məmmədəliyev Naftalan neftinin sirlərini açmış, onun mahiyyətini elmi əsaslarla işləmişdir ki, insanlarımız bu gün də görkəmli alimimizin nailiyyəti əsasında Naftalan Sağlamlıq Mərkəzində müalicə olunurlar", - deyə akademik İsa Həbibbəyli diqqətə çatdırıb.

Akademik Yusif Məmmədəliyevin ölkəmizdə humanitar və ictimai elmlərin, Azərbaycan dilinin, ədəbiyyatının, tarixinin, mədəniyyətinin də inkişafında müstəsna xidmətləri olduğunu söyləyən akademik İsa Həbibbəyli bildirib ki, görkəmli alim AMEA-nın prezidenti kimi daim bu sahələrdə tədqiqatların aparılması və genişləndirilməsinə rəhbərlik edib. Həmin dövrdə Əlyazmalar Fondu, Şamaxı Astrofizika Rəsədxanası yaradılıb, Qobustan abidələrinə, "Kitabi-Dədə Qorqud" dastanına dair mühüm tədqiqatlar aparılıb.

Akademik İsa Həbibbəyli bildirib ki, həm akademik Yusif Məmmədəliyevin, həm də akademik Mustafa Topçubaşovun elmi nailiyyətləri həmin dövrdə Nobel mükafatına namizəd kimi irəli sürülsə də, sovet rəhbərliyinin bu mükafata soyuq münasibəti bunun qarşısını alıb.

Çıxışının sonunda akademik İsa Həbibbəyli görkəmli alimin zəngin elmi irsinin, ixtiralarının bu gün də gənc kadrların hazırlanmasına, onların gələcək fəaliyyətinə stimul verdiyini söyləyib.

Daha sonra çıxış edən Milli Məclis Sədrinin müavini akademik Rafael Hüseynov akademik Yusif Məmmədəliyevin həyatı barədə maraqlı məqamları konfrans iştirakçılarının diqqətinə çatdırıb. Yusif Məmmədəliyevin mədəniyyətə bütün ruhu və varlığı ilə bağlı bir insan olduğunu deyən Rafael Hüseynov akademikin Bülbül, Səməd Vurğun, Üzeyir bəy Hacıbəyli kimi böyük mədəniyyət xadimləri ilə dostluq münasibətlərindən danışıb.

Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev bildirib ki, Azərbaycanın ictimai və intellektual mühitində akademik Yusif Məmmədəliyevin timsalında onlarla, bəlkə də, yüzlərlə dünyaşöhrətli alim yetişir və Azərbaycan xalqı artıq dünyanın elm mərkəzlərindən birinə çevrilir. Azərbaycan xalqının elm və tərəqqi yolu ilə irəliləməsində akademik Yusif Məmmədəliyevin qoyduğu parlaq ideyaların xüsusi rolunu vurğulayan Şahin Mustafayev qeyd edib ki, bu yolda Beynəlxalq Türk Akademiyası həm Azərbaycan elminin, həm də türk dünyasının, türk xalqlarının, türk dövlətlərinin elminin inkişafına öz töhfəsini verməyə hazırdır.

AMEA-nın müxbir üzvü, akademik Yusif Məmmədəliyevin qızı Sevda Məmmədəliyeva Ulu Öndər Heydər Əliyev tərəfindən alimin xidmətlərinin hər zaman yüksək dəyərləndirildiyini, bu gün də Prezident İlham Əliyev tərəfindən akademikin xatirəsi və irsinə daim həssas münasibət göstərildiyini xüsusi vurğulayıb. Sevda Məmmədəliyeva Yusif Məmmədəliyevin xatirəsinə göstərilən ehtirama görə ölkə rəhbərliyinə dərin minnətdarlığını ifadə edib. O, yubiley konfransının bütün təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib. Qeyd edib ki, Yusif Məmmədəliyevin həyat yolu həm bir ideya, həm bir məktəb, həm də bir dəyər kimi yaşayır. Bu gün yüzlərlə alim, yüzlərlə təlim bu məktəbin davamçısıdır.

Konfrans çərçivəsində ICESCO-nun baş direktoru Səlim bin Məhəmməd əl-Malikin və UNESCO-nun baş direktorunun müavini Lidiya Britonun videomüraciətləri dinlənilib.

Çıxışlardan sonra akademik Yusif Məmmədəliyevin həyat və elmi fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş edilib.

Daha sonra bir sıra yerli və xarici alimlər "AMEA-nın Yusif Məmmədəliyev döş nişanı" və "AMEA-80" döş nişanı ilə təltif ediliblər.

Beynəlxalq konfransda "Yusif Məmmədəliyevin elmi, pedaqoji və təşkilati fəaliyyəti: Azərbaycan və dünya elminin inkişafına verilmiş töhfə", "Kimya elmində müasir çağırışlar: varislik və innovasiyalar" və "Elmi irs və gələcəyin üfüqləri" mövzularında panel sessiyaları keçirilib.

Konfrans işini bu gün davam etdirəcək. Naxçıvanda akademikin abidəsinə, həmçinin Yusif Məmmədəliyevin ev-muzeyinə ziyarət nəzərdə tutulub.

# Ermənistanda insan hüquqlarının pozulması beynəlxalq ictimaiyyətin selektiv münasibətinin nəticəsi kimi dəyərləndirilməlidir

"Ermənistanın daxili siyasi mühiti, insan hüquqlarının kobud şəkildə pozulması, müxalif düşüncəli şəxslərə, jurnalistlərə və vətəndaş cəmiyyəti institutlarına qarşı repressiv addımları Qərb siyasi dairələri və beynəlxalq demokratik təsisatları tərəfindən görməzdən gəlinir. Halbuki bu hadisələr regionda sabitlik və demokratik təhlükəsizliyə birbaşa təhdid kimi qiymətləndirilməlidir".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Allahverənov deyib.

Deputat tarixi kontekstdə Azərbaycan və Ermənistan münaqişəsində Qərbin ikili yanaşmalarını xatırladıb: "Azərbaycan və Ermənistan arasında yaşanan münaqişə dövründə Ermənistanın hərbi, siyasi və humanitar müstəvidə həyata keçirdiyi təcavüzkar fəaliyyətlər beynəlxalq hüququn birmənalı pozuntusu kimi sənədləşdirilsə də, Qərb institutları tərəfindən adekvat siyasi və hüquqi qiymət almayıb. Bir milyondan çox azərbaycanlının öz doğma torpağından didərgin salınması, Xocalı soyqırımının baş verməsi, işğal olunmuş ərazilərdə mədəni irsin məhv edilməsi və ekoloji fəsadların yaradılması faktları dünya ictimaiyyətinin səssizliyi fonunda öz həllini uzun illər tapmadı. Qəti şəkildə demək olar ki, Ermənistana münasibətdə yaradılan bu "toxunulmazlıq imici" regionda geopolitik balansın qorunması ilə deyil, daha çox Cənubi Qafqazda Qərbin uzunmüddətli strateji alətlərindən biri kimi bu ölkədən istifadə etməsi ilə bağlıdır. Bu mövqe təkcə Azərbaycanla bağlı məsələlərdə deyil, Ermənistan daxilində insan hüquqları sahəsində baş verən mənfi tendensiyalarda da özünü göstərir".

A.Allahverənov Ermənistan daxilində insan hüquqlarının pozulması faktlarından və mövcud reallıqlardan da bəhs edib: "Ermənistan hakimiyyətində dəyişikliklərin baş verməsinə baxmayaraq, ölkədə demokratikləşmə və siyasi azadlıqlar sahəsində real nəticələr müşahidə edilmir. Hakimiyyət orqanları mütəmadi olaraq siyasi müxalifətə, müstəqil jurnalistlərə, bloqçulara və vətəndaş fəallarına qarşı təzyiqlər, həbslər və susdurma kampaniyaları həyata keçirir.

Ermənistan siyasi tarixində ən sarsıdıcı hadisələrdən biri parlamentdə qətllə nəticələnən hadisədir. Bu hadisə ölkənin siyasi sistemində kök salmış korrupsiya, klan idarəçiliyi və avtoritar tendensiyaların göstəricisidir. Həmçinin rəsmi dairələr informasiya sahəsində nəzarəti gücləndirir, müstəqil media resursları bağlanır və ya ağır təzyiqlərə məruz qalır. Son illərdə bir sıra bloqçuların, jurnalistlərin



və sosial media fəallarının həbsi və ya məhkəmə proseslərinə cəlb olunması bunu açıq şəkildə sübut edir. Müxalifət nümayəndələrinə qarşı təqib kampaniyaları aparılır, sərbəst toplaşma azadlığı məhdudlaşdırılır, mitinqlər dağıdılır və iştirakçılar saxlanılır. Bu faktlar göstərir ki, Ermənistan yalnız xarici siyasətdə deyil, daxili idarəçilik modelində də demokratik mexanizmlərdən uzaqlaşma xəttini davam etdirir".

Onun sözlərinə görə, demokratiya, insan haqları və söz azadlığı prinsipləri Qərbin rəsmi dəyərlər sisteminin əsas sütunları hesab edilsə də, bu prinsiplər regiondakı real proseslərə tətbiq edilərkən ciddi uyğunsuzluq yaranır. Azərbaycanla bağlı məsələlərdə həssaslıq nümayiş etdirən və sərt bəyanatlarla çıxış edən dairələr, Ermənistanla bağlı problemlərin eyni ciddiliklə beynəlxalq gündəmə daşınmasına maraq göstərmir. Bu yanaşmanın başlıca səbəbi Ermənistanın uzun illərdir Cənubi Qafqazda geosiyasi manevr alətinə çevrilməsi və regionun enerji-təhlükəsizlik siyasətində balans rolunu oynayan Azərbaycanın müstəqil xəttinə qarşı təzyiq mexanizmlərinin formalaşdırılması ilə bağlıdır.

Deputat deyib: "Ermənistanda insan hüquqlarının kobud şəkildə pozulması təkcə daxili siyasi böhran və sosial sistemin iflası ilə bağlı deyil, həm də beynəlxalq ictimaiyyətin selektiv münasibətinin nəticəsi kimi dəyərləndirilməlidir. Qərb institutlarının və beynəlxalq təşkilatların susqunluğu Ermənistan hakimiyyətinə cəzasızlıq mühiti yaradır ki, bu da nəticədə həm Azərbaycan xalqına qarşı törədilmiş cinayətlərin, həm də öz vətəndaşlarına qarşı hüquq pozuntularının davam etməsinə gətirib çıxarır. Bu səbəbdən regionda davamlı sülhün və real demokratik transformasiyanın təmin edilməsi üçün beynəlxalq münasibətlər sisteminin birtərəfli yanaşmadan imtina edib bütün tərəflərə bərabər hüquqi-siyasi qiymət verməsi vacibdir. Əks halda, cəzasızlıq sindromu həm regionun təhlükəsizliyini, həm də qlobal miqyasda hüquq və ədalət prinsipinin etibarlılığını ciddi şəkildə sual altına alır".

# BMT-nin Ətraf Mühit Assambleyasının 7-ci sessiyasının prezidenti Azərbaycanın Keniyadakı səfirliyində olub

**Dekabrın 4-də BMT-nin Ətraf Mühit Assambleyasının 7-ci sessiyasının (UNEA7) prezidenti, Oman Sultanlığının ətraf mühit naziri Abdullah Bin Ali Al-Amri Azərbaycanın Keniyadakı səfirliyini ziyarət edib.**



Səfirlikdən AZƏRTAC-a bildirilib ki, Abdullah Bin Ali Al-Amri, Omanın Keniyadakı səfiri Nasra Salem Əl-Haşmi və onları müşayiət edən heyət səfirlikdə yaradılmış Ümummilli Lider Heydər Əliyevin xatirə otağı və dövlətçilik guşəsi ilə tanış olub, onun xatirəsini ehtiramla yad edib. Səfir Sultan Hacıyev Azərbaycanın dövlətçilik tarixi, Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlər, işğaldan azad olunmuş ərazilərdə bərpa-yenidənqurma və humanitar minatəmizləmə üzrə aparılan genişmiqyaslı işlər, habelə sülh gündəliyində müşahidə olunan irəliləyişlər haqqında məlumat verib.

Nazir Abdullah Bin Ali Al-Amri BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Daimi Nümayəndələr Komitəsinin sədri qismində Azərbaycanın növbəti həftə başlayacaq UNEA-nın 7-ci sessiyasına hazırlıqlarda Omanın UNEA7 sədrliyi ilə səmərəli əməkdaşlığından razılığını ifadə edib. Azərbaycanın sədrliyi ilə öz işinə başlayan Daimi Nümayəndələr Komitəsinin açıqtərkibli iclasının məhsuldar fəaliyyətinə görə təşəkkür edib.

Səfir Sultan Hacıyev 2024-cü ilin noyabrında COP29-a evsahibliyi etmiş Azərbaycanın UNEP-lə əməkdaşlığa və UNEA-nın uğurlu nəticələr göstərməsinə böyük diqqət göstərdiyini bildirib, Omanın UNEA7-nin hazırlıq proseslərində göstərdiyi aktiv fəaliyyətini yüksək qiymətləndirib.

Səfir Azərbaycanın 2026-cı ilin mayın 17-22-də evsahibliyi edəcəyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) barədə məlumat verib. Bildirib ki, iqlim dəyişmələri və dayanıqlı şəhərsalma proseslərinin qarşılıqlı təsirləri bu mötəbər tədbirin əsas mövzularından olacaq.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Minsk qrupunun ləğvi ölkənin ərazi bütövlüyü əsasında qurulmuş yeni reallığın bütün beynəlxalq platformalarda tanınması deməkdir

**"ATƏT-in Minsk qrupunun ləğv olunması Azərbaycan dövlətinin çox mühüm diplomatik qələbəsidir. Ermənistan-Azərbaycan münaqişəsinin davam etdiyi müddətdə heç bir səmərəli fəaliyyəti olmayan bu təşkilatın ləğvi tamamilə məntiqli və qanunauyğun addımdır".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib.



Deputat xatırladıb ki, Azərbaycan Prezidenti və Ermənistan Baş naziri ABŞ Prezidentinin iştirakı ilə avqustun 8-də Vaşinqtonda baş tutan görüşü zamanı belə bir razılığa gəliblər. Bu razılıq çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət ünvanladılar. Buna uyğun olaraq, ATƏT-in Minsk prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin münaqişə üzrə şəxsi nümayəndəsinin və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə xitam verilib. Sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub. Bu günlərdə isə bu təsisatın tam ləğvi prosesi rəsmi olaraq başa çatıb.

Millət vəkilinin sözlərinə görə, ATƏT-in Minsk qrupunun fəaliyyətinin rəsmi şəkildə dayandırılması 2025-ci ilin ən mühüm siyasi-diplomatik hadisələrindən biri kimi qiymətləndirilməlidir. Bu qərar Cənubi Qafqaz üçün təkcə bir institutun bağlanması deyil, həm də regionda onilliklər boyu mövcud olmuş vasitəçilik mərhələsinin başa çatması deməkdir. Azərbaycan üçün isə Minsk qrupunun ləğvi, ölkənin ərazi bütövlüyünün bərpasından sonra formalaşan yeni geosiyasi reallığın beynəlxalq səviyyədə tanınması baxımından əlamətdar hadisədir.

"1992-ci ildə yaradılan Minsk qrupu, Ermənistan-Azərbaycan münaqişəsinin siyasi həlli üçün beynəlxalq platforma rolunu oynayırdı. Lakin illər keçdikcə bu mexanizmin təsir imkanları əhəmiyyətli dərəcədə zəiflədi. ABŞ, Fransa və Rusiyanın həmsədrliyi altında fəaliyyət göstərən format zamanla vahid mövqe nümayiş etdirmək qabiliyyətini itirdi. Xüsusilə 2022-ci ildən sonra böyük dövlətlər arasındakı kəskin siyasi ziddiyyətlər qrupun işini faktiki olaraq dondurdu", - deyən deputat əlavə edib ki, çoxsaylı görüşlərə, sənədlərə və təşəbbüslərə baxmayaraq, Minsk qrupu münaqişənin real həllinə yaxınlaşa bilmədi. Ekspert dairələrində dəfələrlə vurğulandığı kimi, proses illər keçdikcə münaqişəni həll etməkdən daha çox onu donduran bir format halına çevrilmişdi.

Sevinc Fətəliyevanın fikrincə, 2020-ci ilin 44 günlük Vətən müharibəsi və sonrakı siyasi proseslər regiondakı vəziyyəti köklü şəkildə dəyişdi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi və uzun illər danışıqların mərkəzində dayanan "status" məsələsi tamamilə gündəmdən çıxdı. Yeni regional reallıq 1990-cı illərin başlanğıcında formalaşdırılmış vasitəçilik mexanizmlərinin davam etdirilməsini həm mənasız, həm də yersiz etdi. Bu səbəbdən Azərbaycan 2021-2023-cü illərdən etibarən Minsk qrupunun missiyasının artıq bitdiyini açıq şəkildə bəyan edirdi. Regiondakı digər aktorlar da anlayırdı ki, müasir çağırışlara uyğun yeni diplomatik yanaşmalar tələb olunur.

Millət vəkili qeyd edib ki, bu ilin avqustunda Azərbaycan və Ermənistanın Minsk qrupunun və ona bağlı strukturların rəsmi şəkildə bağlanması ilə bağlı razılaşması yeni mərhələyə keçid baxımından ciddi siyasi iradənin göstəricisi idi. Dekabrın əvvəlinə qədər ATƏT katibliyi bütün texniki və inzibati prosedurları tamamladı və beləliklə, uzunmüddətli vasitəçilik mərhələsinə rəsmi nöqtə qoyuldu.

Deputat hesab edir ki, Minsk qrupunun ləğvi aşağıdakı əsas amillərin məntiqi nəticəsi idi:

1. Beynəlxalq sistemdə köklü dəyişikliklər; qlobal güclər arasındakı ziddiyyətlər həmsədrlərin vahid mövqe sərgiləməsini mümkünsüz etdi.
2. Cənubi Qafqazdakı yeni siyasi reallıq; münaqişə faktiki olaraq həll olunub və artıq əvvəlki kimi vasitəçilik predmetindən söz gedə bilməz.
3. Regional təşəbbüslərin güclənməsi; artıq region ölkələri təhlükəsizlik və əməkdaşlığın çərçivəsini özləri müəyyənləşdirməyə üstünlük verirlər.
4. Tərəflərin siyasi iradəsi; Azərbaycan və Ermənistan danışıqları yeni formatlarda, daha çevik və modern modellərlə aparmaq niyyətini nümayiş etdirirlər.

"Bununla belə, ATƏT-in Minsk qrupunun ləğv olunması diplomatiyanın bitməsi demək deyil. Əksinə, işini görməyən mexanizmin aradan qalxması tərəflərə yeni, daha effektiv və müasir vasitələrlə əməkdaşlıq qurmaq imkanı verir. Bundan sonra sülh prosesi ikitərəfli danışıqlara, regional layihələrə və qarşılıqlı maraqlara əsaslanacaq. Azərbaycan üçün Minsk qrupunun ləğvi ölkənin ərazi bütövlüyü əsasında qurulmuş yeni reallığın bütün beynəlxalq platformalarda tanınması deməkdir. Region üçün isə bu addım onilliklərdir ki, davam edən münaqişə dövrünü arxada qoyaraq, sülh və inkişafın yeni səhifəsini açır", - deyə Sevinc Fətəliyeva vurğulayıb.



## Cənubi Qafqazda gərginlik dövrü sona çatıb

### Regiona böyük fayda gətirəcək yeni imkanlar erası başlayır

Müharibə sonrası inkişaf və dövlətlərarası əməkdaşlığın davam etdirilməsi regionda uzunmüddətli sülhün təmin olunması üçün vacib addımlardır. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda start verdiyi iqtisadi inkişaf, regional iqtisadiyyatı gücləndirən layihələr, eləcə də qonşu dövlətlərlə olan ticarət əlaqələri sabitliyin zəmanəti ola bilər.

Ermənistanın daxili islahatlar həyata keçirməsi və sosial-siyasi sabitliyi təmin etməsi, o cümlədən Azərbaycana qarşı sərt mövqedən geri çəkilməsi bölgədəki gərginliyin azalmasına və dövlətlərarası münasibətlərin müsbətə doğru inkişaf etməsinə kömək edəcək.

Siyasi ekspertlər hesab edirlər ki, Cənubi Qafqazın gələcəyi yalnız regional oyunçuların deyil, həm də beynəlxalq güclərin müdaxiləsi ilə formalaşacaq. Azərbaycanın strateji siyasəti yalnız ərazi bütövlüyünün təmin olunması ilə məhdudlaşmamalıdır, həm də bölgənin iqtisadi və mədəni inkişafına, eləcə də daha geniş regional əməkdaşlığa doğru yönəlməlidir. Bu, Cənubi Qafqazın gələcək inkişafını, sabitliyini və münaqişələrin aradan qaldırılmasını təmin edəcək.

Artıq demək olar ki, Cənubi Qafqaz regionunda gərginlik dövrü bitməkdədir, amma bu heç də əbədi sabitlik anlamına gəlmir. Bütün tərəflər, qarşılıqlı maraqları və təhlükəsizlik məsələlərini ön planda tutaraq, daha sülhsevər və konstruktiv yanaşmalar seriyasını həyata keçirməlidirlər. Azərbaycan öz gücünü və təsirini artırmaqla, həm regionda, həm də beynəlxalq aləmdə daha böyük rol oynaya bilər. Yalnız davamlı diplomatik səylər ilə Cənubi Qafqazda real sülhün və sabitliyin təmin olunması mümkündür.

Noyabrın 28-də Qəbələ şəhərində Baş nazirin müavini Şahin Mustafayev və Ermənistanın Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın 12-ci görüşü keçirilib.

Görüş zamanı tərəflər 2025-ci il yanvarın 16-da keçirilmiş 11-ci görüşün yekunları üzrə əldə olunmuş, delimitasiyası üzrə kompleks işlərin dövlət sərhədinin şimal sahəsindən başlayaraq, Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının İran İslam Respublikası ilə sərhədinə qədər başlanması barədə razılaşmanı qeyd ediblər.

Tərəflər delimitasiya tədbirləri ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar. Həmçinin delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair müvafiq təlimat layihələrini müzakirə ediblər.

Şahin Mustafayev və Mher Qriqoryan qarşılıqlı maraq doğuran məsələlər üzrə ayrıca fikir mübadiləsi aparıblar. Tərəflər növbəti görüşün tarixini iş qaydasında, Ermənistanın şəhərlərindən birində müəyyən etmək barədə razılığa gəliblər.

Dekabrın 4-də Ermənistanın Baş naziri Nikol Paşinyan da sülh danışıqları ilə bağlı aparılan danışıqların son durumunu dəyərləndirib: "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında sülh bərqərar olub. Bizim vəzifəmiz bu sülhü qorumaq, gücləndirmək və institutlaşdırmaqdır. Son zamanlar görülən işləri təhlil edərkən aşağıdakıları qeyd etmək vacibdir: çox kobud desək, Ermənistan və Azərbaycan arasındakı etimad hətta 1 millimetr artdıqda 10 santimetr praktik irəliləyiş əldə edir…

Bu məsələ ilə bağlı təəssüratlarımı bölüşmək istəyirəm. Və demək istəyirəm ki, bu gün sülh perspektivləri ilə bağlı, məsələn, 15-20 avqust 2025-ci il tarixlərindən daha nikbinəm, baxmayaraq ki, o zaman əvvəlkindən daha nikbin idim", - deyə o bildirib.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə Tbilisi səfəri çərçivəsində Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşdə sülh danışıqlarından söz açıb. O qeyd edib ki, Ermənistan ilə Azərbaycan arasında Vaşinqtonda başlanmış sülh danışıqları artıq bir sıra praktiki nəticələr verib və sülh sazişinin yekun imzalanması ilə bağlı danışıqlar aparılır. XİN başçısının sözlərinə görə, Cənubi Qafqaz regionunda gərginlik dövrü başa çatıb və regiona böyük fayda gətirəcək yeni imkanlar erası başlayır.

Baş verən proseslərə və Ermənistan tərəfindən verilən açıqlamalara etibar etsək, iki ölkənin sülh sazişini imzalamağa bir qədər də yaxınlaşdığını söyləyə bilərik.

Əlbəttə ki, Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh sazişi, hər iki ölkənin və bütövlükdə Cənubi Qafqazın gələcəyinə əhəmiyyətli təsir göstərəcək. Bu, siyasi, hərbi və iqtisadi sahələrdə yeni bir başlanğıc yarada bilər, amma bu prosesin tam olaraq müsbət nəticələnməsindən, hər iki tərəfin sülhə və qarşılıqlı əməkdaşlığa doğru atacağı davamlı və inamlı addımlardan asılı olacaq. Gələcəkdə sülh sazişi həm də beynəlxalq güclərin regionda daha aktiv rol almasına, iqtisadi inkişafın sürətlənməsinə və yeni əməkdaşlıq formatlarının yaranmasına yol aça bilər.

Bir sözlə, Cənubi Qafqazda sülhün qorunması, həm də ümumilikdə Qafqazın təhlükəsizliyini və inkişafını təmin edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## "Ermənistan-Azərbaycan münaqişəsinin başa çatması nikbinlik yaradan çox uğurlu nümunədir"

"Azərbaycan və Ermənistan arasında münaqişənin başa çatması bütün ATƏT regionunda nikbinlik yaradan çox uğurlu nümunədir".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Finlandiyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Elina Valtonen jurnalistlər üçün açıqlamasında səsləndirib. O bildirib ki, Azərbaycanla Ermənistan arasında razılaşmaların əldə edilməsi irəliyə atılmış addımdır və bu məsələ ATƏT-in builki fəaliyyətində əsas uğurlardan biri olub: "Mən hər iki ölkəyə səfər edərək, sülh prosesilə yaxından tanış olmaq şansı əldə etmişəm. Hər iki ölkə ilə daim məhsuldar əlaqələrimiz mövcuddur. ATƏT bundan sonra da tərəflər arasında hazırda müzakirə edilən məsələlərlə bağlı istənilən dəstəyi verməyə hazırdır".

## Azərbaycanın diplomatik gündəliyində ən mühüm nailiyyətlərdən biri

**"Azərbaycanın ATƏT-in Minsk qrupu ilə bağlı illərlə davam edən siyasi mövqeyinin reallaşması çağdaş diplomatik gündəliyin ən mühüm nailiyyətlərindən biri kimi qiymətləndirilməlidir. Minsk prosesinin və ona bağlı strukturların rəsmi şəkildə ləğv edilməsi təkcə simvolik addım deyil, həm də regionda yeni təhlükəsizlik arxitekturasının formalaşması istiqamətində Bakının uzunmüddətli və ardıcıl siyasətinin hüquqi-siyasi təsdiqidir. Bu qərar 30 ilə yaxın davam etmiş, nəticə verməyən bir vasitəçilik modelinin tarixin arxivinə göndərilməsi, eyni zamanda 2020-ci ildən etibarən Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqların beynəlxalq səviyyədə tanınması deməkdir".**

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Elçin Mirzəbəyli deyib.



O qeyd edib ki, Azərbaycan Minsk qrupu ilə bağlı hədəfinə nail olmaqla, postmünaqişə mərhələsində diplomatik gündəliyin ən mühüm elementlərindən birinə son qoyub. Bu, təkcə simvolik qərar deyil, eyni zamanda Azərbaycanın bölgədə yeni təhlükəsizlik arxitekturasının formalaşdırılması və proseslərin yalnız ikitərəfli, regional əsasda həllinə üstünlük verilməsi istiqamətindəki siyasətində əldə etdiyi mühüm nəticədir: "ATƏT-in Minsk prosesi və ona bağlı strukturların rəsmi şəkildə ləğvi 30 ilə yaxın davam etmiş, nəticəsiz vasitəçilik modelinin hüquqi və siyasi cəhətdən tarixə çevrilməsi anlamına gəlir. Minsk qrupunun ləğvi ilə bağlı tələbin Ermənistan tərəfindən uzun süründürməçilikdən sonra qəbul edilməsi iki məqamı göstərir. Birincisi, İrəvan artıq əvvəlki vasitəçilik formatlarının bərpasının mümkün olmadığını anlayır, ikincisi, Ermənistanın regional proseslərdən tam təcrid vəziyyətində qalmaqdan çəkinməsi onu Bakının irəli sürdüyü şərtlərə uyğun davranmağa vadar edir.

Azərbaycan həm Vyana, həm Brüssel, həm Moskva, həm də Vaşinqton formatında aparılan müzakirələrdə münaqişənin artıq bitdiyini, vasitəçilik mexanizmlərinin isə yeni reallıqlara uyğun yenidən qurulmalı olduğunu prinsipial şəkildə bildirərək vahid mövqedən çıxış edib. Nəticədə 57 ölkənin konsensusla qərar qəbul etməsi Azərbaycanın mövqeyinin legitimliyini, beynəlxalq hüquqa əsaslandığını və geniş diplomatik dəstəyə malik olduğunu nümayiş etdirir".

Deputatın sözlərinə görə, mövcud reallıqlar Ermənistan üçün bir sıra hüquqi-siyasi öhdəlikləri də gündəmdə saxlayır. Bunların arasında iki istiqamət xüsusi strateji əhəmiyyət daşıyır: "Birinci istiqamət, Ermənistan Konstitusiyasının dəyişdirilməsi və Azərbaycana qarşı ərazi iddialarına son qoyulmasıdır. Ermənistan Konstitusiyasının preambula hissəsi bu ölkənin Müstəqillik Bəyannaməsinə istinadən Azərbaycana qarşı ərazi iddilarını əks etdirir ki, bu da sülh sazişinin mahiyyətinə ziddir. Prezident İlham Əliyevin "əks halda sülh sazişinin mənası olmayacaq" fikri Azərbaycanın bu məsələdə qəti və dəyişməz mövqeyini göstərir. Ərazi iddialarına konstitusion səviyyədə son qoyulması sülh müqaviləsinin imzalanması üçün baza şərtdir və bu addımın gecikdirilməsi prosesin yenidən dalana dirənməsi riskini artırır.

İkinci istiqamət, Avropa İttifaqının Ermənistandakı mülki missiyası ilə bağlıdır. Azərbaycan bu missiyanı bölgədə geosiyasi balansı pozan, Ermənistanın təhlükəsizliklə bağlı əsassız mülahizələrini birtərəfli şəkildə qeyri-region ölkələrinə yönəldən və sərhəd məsələlərinin həllinə kənar müdaxilə yaradan mexanizm kimi dəyərləndirir. Bakı dəfələrlə bildirib ki, Ermənistan sülh müqaviləsini imzalamaqda həqiqətən maraqlıdırsa, bu missiyanın davam etməsi məqsədəuyğun deyil. Ermənistanın Aİ missiyasına ehtiyac duyduğunu göstərməsi isə regionda təhlükəsizlik məsələlərinin yalnız üçüncü tərəflərin iştirakı ilə həll edilə biləcəyi kimi yanlış təsəvvür formalaşdırır və prosesi süni şəkildə uzadır".

Elçin Mirzəbəyli qeyd edib ki, Ermənistanın bu addımları atıb-atmayacağı bir neçə amildən asılıdır. Paşinyan hökumətinin daxili siyasi təzyiqlərlə üzləşməsinə baxmayaraq, həm Vaşinqton razılaşmasının mövcudluğu, həm də ölkənin real alternativ təhlükəsizlik mexanizmlərinə malik olmaması onu Bakının müəyyən etdiyi çərçivə daxilində irəliləməyə məcbur edir. Ermənistan iqtisadi geriləmə, kütləvi miqrasiya və təhlükəsizlik boşluğu fonunda əlavə gərginlik yaratmaq imkanına malik deyil. Bu səbəbdən Konstitusiya dəyişiklikləri və Aİ missiyası ilə bağlı qərarlar qaçılmazdır. Əsas sual onların nə qədər tez və real siyasi iradə ilə həyata keçiriləcəyidir.

"Nəticə etibarilə, Minsk qrupunun ləğvi Azərbaycanın diplomatik müstəvidə daha bir strateji hədəfə çatdığını göstərir və sülh prosesinin yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilməlidir. Ermənistanın qarşıdakı addımları isə sülh müqaviləsinin taleyini, regionun uzunmüddətli təhlükəsizlik modelinin konturlarını və İrəvanın Cənubi Qafqazda davamlı sabitliyin təmin olunmasında maraqlı olub-olmadığını müəyyən edəcək. Azərbaycanın isə hədəfi aydındır: ərazi iddiaları tam və geri dönməz şəkildə ləğv olunmalı, sərhədlərin dəqiqləşdirilməsi prosesi sürətləndirilməli və regionda kənar hərbi-siyasi iştiraka son qoyulmalıdır. Bu tələblər təkcə Azərbaycanın milli maraqlarına deyil, həm də regionda dayanıqlı sülhün və qarşılıqlı etimad mühitinin formalaşmasına xidmət edir", - deyə deputat vurğulayıb.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Nikol Paşinyanın açıqladığı sənədlər bəlli həqiqətlərə yenidən işıq saldı



Ermənistan hökumətinin Azərbaycanın müəllifi olduğu sülh təklifini qəbul etməkdən başqa yolu yoxdur. Bu reallığı qəbul etmək istəməyən bəzi revanşist qüvvələr separatçı çağırışları davam etdirirlər. Onlar 2026-cı il seçkilərində yenidən siyasi meydana atılmağa can atırlar. Bu dəfə də Qarabağ üzərindən siyasi oyunlar qurmaq cəhdləri diqqətdən qaçmır.

Bu barədə qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Nigar Məmmədova bildirib. Onun sözlərinə görə, Nikol Paşinyanı "təslimçi sülh"də ittiham edən müharibə caniləri Robert Köçəryan və Serj Sarkisyan, eləcə də qondarma demokrat Levon Ter-Petrosyan bu günlərdə növbəti dəfə ifşa olundular: "Nikol Paşinyan əvvəlcədən də söylədiyi kimi, "Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinin sənədləri"ni ictimailəşdirib. Təbii ki, bu sənədlərlə bağlı rəsmi Bakının heç bir narahatlığı yoxdur. Azərbaycan Prezidenti bu illər ərzində danışıqların gedişi ilə bağlı hər zaman ictimaiyyəti məlumatlandırırdı. Sözügedən 13 sənəd 1992-2020-ci illərdə həmsədr ölkələrin iştirakı ilə aparılmış danışıqları əhatə edir. Burada da beynəlxalq vasitəçilərin qərəzi, ikili standartlara söykənən mövqeyi açıq şəkildə əks olunub. Bir daha təsdiq olunur ki, məhz beynəlxalq birliyin məsələyə ədalətli yanaşmaması səbəbindən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri kağız üzərində qaldı. Təcavüzkar Ermənistan dialoq masasında özünü arxayın hiss edərək, işğalçı mövqeyindən əl çəkmədi. Vasitəçilər isə işğalçı ilə işğala məruz qalan arasında fərq qoymadan müxtəlif yarımçıq həll paketləri irəli sürürdülər".

Nigar Məmmədova qeyd edib ki, bu sənədlərin açıqlanması ilə bir daha təsdiqləndi ki, Qarabağda yaradılan separatçı rejim Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində danışıqlardan kənarda saxlanılıb, Ermənistan və Azərbaycan münaqişə tərəfləri kimi qəbul edilib. "Prezident İlham Əliyevin iştirak etdiyi bütün danışıqlarda da Azərbaycanın heç bir halda Qarabağdan imtina etməyəcəyinə dair prinsipiallıq nümayiş olunub. Həmsədrlərin Ermənistanın maraqlarına uyğun olan "kompromis" həll variantları isə qəbul edilməyib. Azərbaycan sona qədər danışıqlarda iştirak etsə də, bir gün belə milli maraqlara söykənən mövqeyindən geri çəkilməyib. Rəsmi Bakı müzakirələrdə iştirakdan imtina etməməklə həm də beynəlxalq təzyiqlərin qarşısını alıb. Eyni zamanda bu müddət ərzində beynəlxalq qurumlarda Azərbaycanın əlini gücləndirən qətnamələrin qəbuluna da nail olundu. Bir sözlə, danışıqlar masasında nəticə olmasa belə, ilbəil Azərbaycanın siyasi-hərbi və siyasi mövqeyi gücləndi", - deyə deputat qeyd edib.

N.Paşinyan açıqladığı sənədlərə əsasən, Aprel döyüşlərindən sonra Ermənistanın ozamankı prezidenti Serj Sarkisyanın Rusiya dövlət başçısına məktubunda ölkəsinin Azərbaycanın hərbi gücü qarşısında aciz qaldığına dair etiraf əks olunur. Nigar Məmmədovanın sözlərinə görə, o, açıq şəkildə etiraf edir ki, Azərbaycan heç bir qarşılıqlı güzəştə getmək istəmir: "Üstəlik, bu sənədlərdən bir daha aydın olur ki, Ermənistan tərəfi sülh danışıqlarında ərazi bütövlüyü ilə bağlı heç vaxt konstruktiv mövqe tutmayıb. Bu səbəbdən də 28 il davam edən nəticəsiz danışıqlara son qoyuldu və Azərbaycan öz gücü hesabına ərazi bütövlüyünü, suverenliyini təmin etdi".

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Nikol Paşinyanın həmləsi kilsənin "müqəddəs" obrazını yerlə bir edib

### Uzun illər xalqını qara günə qoymuş Qaregin indi özü qara gündədir

44 günlük müharibədə qazandığımız tarixi Zəfərimizdən sonra Ermənistanda başlanan təlatüm səngimək bilmir. Əvvəllər dünyaya sırınan "erməni cəmiyyətinin bütövlüyü" yalanı daha işləmir. Ümumiyyətlə, İkinci Qarabağ savaşından sonra Ermənistan cəmiyyətinin pozulan növrağı düzəlmir və yəqin ki, heç düzəlməyəcək də.



Məğlubiyyətin ilk dövrlərində siyasi gərginlik iqtidarla müxalifət arasında uçurumu daha da dərinləşdirmişdi. Birincisi hakimiyyətini qorumaq, ikincisi isə yenidən hakimiyyətə qayıtmaq üçün hər cür hiylə və şantajdan istifadə etməyə başlamış və beləliklə, gərginlik pik həddə çatmışdı. Bu zaman dünya siyasi tarixində çox nadir hallarda rast gəlinən siyasi hadisə baş verdi. N.Paşinyan, yəni müharibəni uduzan baş nazir yeni parlament seçkilərinə getdi və qalib gəldi. Sual oluna bilər: erməni xalqı niyə ölkəni ağır məğlubiyyətə düçar edən Nikol Paşinyanı yenidən hökumət başçısı görmək istədi?

Bu sualın cavabını ondan əvvəlki iqtidarlarda axtarmaq lazımdır. Qarabağ klanı Ermənistanda hakimiyyətə gəldikdən sonra milyardların sahibi oldu. Erməni xalqı isə ac-yalavaclar cəmiyyətinə çevrildi. Korrupsiya, qanunsuzluq, özbaşınalıq Ermənistanda baş alıb getdi. Erməni gəncləri zorla Qarabağda ağır şəraitdə hərbi xidmət keçməyə məcbur edilirdi. Qarabağ erməniləri Ermənistandan gələn soydaşlarına olmazın əzablar verirdilər. Atəşkəs olsa da, Ermənistana göndərilən əsgər tabutlarının ardı-arası kəsilmirdi. Rəsmi məlumatlara görə, onların guya Azərbaycan əsgərlərinin açdıqları atəş nəticəsində öldükləri bildirilsə də, cidanı çuvalda gizlətmək mümkün olmurdu. Erməni mətbuatında onların Qarabağ erməniləri tərəfindən öldürüldüyü barədə çoxsaylı məlumat dərc olunurdu. Bir də İrəvan mətbuatı yazırdı ki, Qarabağ klanı öz oğullarını ya Qarabağa göndərmir, ya da onlar "əsgərlik"də olsalar da, cəbhə xəttinə getmirlər, evlərində yatıb, restoranlarda yeyib-içib kef edirlər. Bütün bunlar Ermənistan cəmiyyətində hakimiyyətdə olan Qarabağ klanına qarşı sonsuz nifrət yaratmışdı. Odur ki, məğlubiyyətdən sonrakı siyasi vəziyyət erməni xalqını ayıq düşünməyə vadar etdi. Atalar demiş, "göz gördüyündən qorxar". Elə ona görə də erməni xalqı savaş avantüristlərinə yox, sülh deyən N.Paşinyana səs verdi.

İndi qarşıdan növbəti seçkilər gəlir. Erməni müxalifəti və onların havadarları müxalifətin bu seçkini də təkbaşına uda bilməyəcəyini anlayıb kilsəni bu işə qoşub. Erməni kilsəsi isə həmişə anti-türk, anti-Azərbaycan fitnəsini körükləməklə məşğul olub. O üzdən kilsə bu çağırışa can-başla qoşularaq iqtidarı yıxmaq üçün özünün zəngin tarixi fitnə-fəsadlarından istifadə etməyə başlayıb.

Belə bir ritorik sual yaranır: Ermənistanda müxalifət və onları himayə edən xarici qüvvələr nədən N.Paşinyan iqtidarına qarşı kilsəni qabağa verib? Bəri başdan deyək ki, dünyanın bütün tərəfsiz və qərəzsiz tarixçiləri erməni tarixinin yalan və uydurulmuş əfsanələrdən ibarət olduğunu söyləyirlər. Bunu təkcə başqa millətlərdən olan elm adamları deyil, ağlı başında olan erməni tarixçiləri də yazırlar. Real tarixdə nə "böyük Ermənistan" kimi ölkə olub, nə də böyük tiqran kimi dövlət başçısı. Ermənilər bütün tarix boyu başqa imperiyaların tərkibində təbəə kimi yaşayıblar. Odur ki, erməni icması ilə yaşadıqları dövlət arasında olan münasibətlər həmişə kilsə vasitəsilə həll olunub. Yəni tarix boyunca erməni icması kilsə tərəfindən idarə edilib, onlar müxtəlif adlar altında kilsəyə vergi ödəyib, bəxşiş verib. Bu səbəbdən də erməni keşişləri həmişə erməni xalqından fərqli olaraq yağ-bal içində yaşayıblar.

Ermənistanda 1918-1920-ci illər hakimiyyətdə olan daşnaklar erməni kilsəsinin dediyi ilə oturub-durublar və bu barədə çoxlu tarixi faktlar var. Ermənistanda sovetlər dönəmində hakimiyyətdə olan kommunistlər də açıq və ya gizli şəkildə kilsə ilə sıx əməkdaşlıq ediblər. Həmin dövrdə Ermənistan Kommunist Partiyasında diasporla iş şöbəsi vardı. Kommunist cildinə girən erməni millətçiləri bu şöbəyə rəhbərlik etməyi qeyri-rəsmi şəkildə kilsəyə həvalə etmişlər. Ona görə ki, xaricdəki soydaşları ilə bütün gizli əlaqələr kilsə vasitəsilə aparılırdı.

N.Paşinyan ikinci dəfə baş nazir seçilənədək erməni kilsəsi toxunmaz statusunda idi və bura müqəddəs yer sayılırdı. Ancaq N.Paşinyan belə statusla barışa bilməzdi. Odur ki, müxalifətlə birləşən kilsəyə qarşı açıq şəkildə savaş elan etdi. Bu, ilk baxışdan erməni cəmiyyətində şok effekti yaratsa da, N.Paşinyan kilsədə kök salmış "müqəddəs"lərin çirkin simasını açıb erməni cəmiyyətinə göstərə bildi.

İndi daxildə mövqeyinin sarsıldığını görən II Qaregin xaricdəki erməni kilsə rəhbərlərinə kömək üçün yalvarır. Amma bu yalvarışlara daxildə nə N.Paşinyan, nə də erməni cəmiyyəti ciddi yanaşır. Çünki cəmiyyətdə kilsəyə olan inam sarsılıb, çünki erməni xalqının çoxu bir daha müharibədə oğlanlarının ölməsini istəmir, çünki artıq hamı başa düşüb ki, Azərbaycanla yeni müharibə Ermənistanın məhvi ola bilər.

Erməni kilsəsi ilə iqtidar arasında başlanan savaş əsrlər boyu "müqəddəs" sayılan erməni kilsəsinin cəmiyyətdə olan dayaqlarını sarsıdıb. N.Paşinyan kilsənin bu vaxtadək gizli qalan fəaliyyətinin qaranlıq tərəfinə işıq sala bilib. Baş nazirin ən böyük uğuru isə əvvəlki kimi qıraqdan deyil, içəridən II Qareginin düz ürəyinə zərbə endirməsidir. İndi bir çox nüfuzlu din xadimi, yumşaq desək, II Qareginin üzünə ağ olub onun istefasını istəyir. Ermənistan cəmiyyətində kilsənin nüfuzdan düşməsi isə qarşıdakı seçkilərdə N.Paşinyanın xeyrinə işləyir. Elə Ermənistanın və erməni xalqının da...

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Ermənistanda siyasi müxalifət "dövlət çevrilişi-terror" ittihamları altında

"Son aylarda Ermənistan hakimiyyəti müxalifət partiyalarının üzvlərini, müstəqil deputatları, fəalları və hətta kilsəni əhatə edən geniş bir kütləni "terror", "çevriliş planı" və ya "konstitusiya quruluşuna qarşı cinayət" ittihamları ilə həbs edib. Məsələn, 2025-ci ilin iyulunda icra orqanları bir sıra müxalif fiqurlarını saxlayıblar. Onların aralarında deputatlar və gənc fəallar də yer alır.



Bu əməliyyatlarla birgə məhkəmə müstəqilliyi faktiki olaraq aradan qaldırılmış kimi görünür. Telefonların müsadirəsi, deputat toxunulmazlığının pozulması kimi hallar qeydə alınıb. Hökumət tərəfindən irəli sürülən çevriliş hazırlığı ittihamları müxalifət dairələri və beynəlxalq insan haqları müdafiəçiləri tərəfindən saxta və siyasi motivli sayılır. Müstəqil müşahidəçilər bu işlərin demokratik müxalifəti boğmaq üçün vasitəyə çevrildiyini bildirirlər.

Bu kontekstdə müxalifətin tamamilə təsirsizləşdirilməsi, seçilmiş və ya ictimai dəstəyə sahib siyasətçilərin belə, "rejim əleyhdarı" elan edilərək təqsirləndirilməsi Ermənistanda demokratik institutların ciddi şəkildə aşındığını göstərir. Bu, siyasi rəqabətin aradan qalxması, plüralizmin boğulması və cəmiyyətin qorxu və özünüsenzura mühitinə sürüklənməsi deməkdir".

AZƏRTAC xəbər verir ki, bu sözlər Ankara Hacı Bayram Vəli Universitetinin dosenti Levent Ersin Orallının "Ermənistanda siyasi müxalifətə qarşı "dövlət çevrilişi-terror" ittihamları altında təzyiqlər" başlıqlı təhlilində yer alıb. Təhlili təqdim edirik:

### Media və ifadə azadlığının geriləməsi

Azad media və müstəqil jurnalistika demokratik nəzarətin əsas sütunlarındandır. Lakin beynəlxalq və yerli hesabatlara görə, Ermənistanda 2024-2025-ci illərdə media və ifadə azadlığı sahəsində ciddi pozuntular qeydə alınıb. 2025-ci ilin ilk yarısında mediaya və jurnalistlərə qarşı ən azı 29 məhkəmə işi açılıb. Fiziki zorakılıq, təhdid, qorxutma və məhkəmə təzyiqləri formasında 122 müxtəlif pozuntu faktı qeydə alınıb.

Bəzi rəsmilərin "media özünə nəzarət etməsə, ciddi hüquqi addımlar atılacaq" kimi açıqlamaları göstərir ki, təzyiq yalnız polis və məhkəmə yolu ilə deyil, həm də ictimai ritorika və qorxutma vasitəsilə həyata keçirilir.

Bu, təkcə fərdi jurnalistlərin deyil, həm də müstəqil xəbər mənbələrinin və tənqidi media orqanlarının "susdurulması" anlamına gəlir. Beləliklə, ictimaiyyətin məlumatlanması və dövlət siyasətinin demokratik şəkildə müzakirə edilməsi mümkünsüz olur. Bu isə demokratiyanın əsas elementlərindən olan məlumatlı vətəndaş hüququnun ciddi şəkildə zədələnməsi deməkdir.

### Dini qurumlara və kilsəyə qarşı təzyiqlər

Tarixən xristian kimliyi ilə tanınan Ermənistanda dini qurumların siyasətdə rolu həmişə əhəmiyyətli olub. Lakin hazırda hökumət ilə Erməni Apostol Kilsəsi (EAK) arasındakı qarşıdurma təkcə ictimai qütbləşmə deyil, həm də avtoritar transformasiyanın göstəricisinə çevrilib.

2025-ci ilin ortalarında EAK-ın bir çox yüksəkrütbəli ruhani rəhbəri "çevriliş", "terror planlama", "konstitusiyaya zidd fəaliyyət" ittihamları ilə həbs edilib. Saxlanmalardan sonra kilsə və insan haqları müdafiəçiləri həbslərin hüquqazidd üsullarla aparıldığını, vəkillərə çıxış imkanı verilmədiyini, ailələrin məlumatlandırılmadığını, sübutların zəif və ziddiyyətli olduğunu bildiriblər.

Təzyiqlər yalnız fərdi din xadimləri ilə məhdudlaşmayıb, kilsə institut olaraq hədəfə alınıb, onun nüfuzu zəiflədilib, dini icmalar üzərində polis nəzarətli, qorxutmaya əsaslanan rejim qurulub. Bu isə dini azadlıqların pozulması, kilsə-dövlət münasibətlərinin siyasi alətə çevrilməsi və ictimai müxalifətin dini platforma üzərindən sıxışdırılması kimi ciddi problemləri gündəmə gətirir.

### Avropa İttifaqı və beynəlxalq ictimaiyyətin susqunluğu: təhlükəli legitimləşdirmə

Bu qədər genişmiqyaslı təzyiq və avtoritarlaşma qarşısında beynəlxalq ictimaiyyətin susqun qalması təhlükəli presedent yaradır. Bu susqunluq həm Ermənistandakı demokratik zəifliyi dərinləşdirir, həm də başqa ölkələr üçün "etirazsız avtoritarlaşma" nümunəsi yaradır. 2025-ci ilin payızında ABŞ-də bəzi hüquq müdafiəçiləri Konqresdə Ermənistan hökumətinin kilsəyə qarşı həbslərini və seçkiqabağı təzyiqlərini gündəmə gətirsələr də, çağırışlar real siyasi təzyiqə çevrilməyib.

Avropa dəyərlərinə inteqrasiya iddiasında olan bir ölkə üçün bu pozuntulara qarşı səssizlik demokratiya və insan hüquqları anlayışının mənasını boşaltmış olur və beynəlxalq mexanizmlərin təsirini zəiflədir.

### Yeni diktatura xətti riski varmı?

Siyasət elminə görə, Ermənistanda baş verənlər - müxalifətin, medianın, vətəndaş cəmiyyətinin və dini qurumların cəza mexanizmləri ilə idarə olunması, seçki ərəfəsində bütün alternativ səslərin cinayət kimi təqdim edilməsi, ifadə və dini azadlıqların faktiki ləğvi təkcə ayrı-ayrı qanunsuzluqlar deyil, sistematik güc yenidənqurmasıdır.

Bu yenidənqurma hakimiyyətin legitimliyini cəmiyyətin dəstəyinə deyil, qorxu və cəza mexanizmlərinə bağlayır. Buna görə də, Ermənistanda "yeni diktatura xətti"nin qurulduğu iddia edilə bilər.

Bu kontekstdə demokratik müxalifətin, vətəndaş cəmiyyətinin və beynəlxalq aktorların, xüsusilə Avropa İttifaqının, insan hüquqları təşkilatlarının və dini azadlıq müdafiəçilərinin daha güclü reaksiya göstərməsi həm etik, həm də siyasi baxımdan zəruri görünür.

## Son dövrlərdə Ermənistanda siyasi repressiyalar daha da kəskinləşib



"Ermənistanda insan hüquqlarının pozulması, diktatura və vətəndaş cəmiyyəti nümayəndələrinə qarşı repressiyalar bugünkü və ya dünənki hadisələr deyil. Bu, uzun illərdir Ermənistan siyasi dairələri tərəfindən erməni xalqına və ictimaiyyətin üzvlərinə qarşı aparılan qanunsuz və antidemokratik bir prosesdir. Təəssüf ki, həm əvvəlki illərdə, həm də son dövrlərdə baş verən bu proseslərə Qərb dairələri, xüsusilə Avropa İttifaqı ölkələri susqunluq nümayiş etdirir və Ermənistana qarşı heç bir əməli tədbir həyata keçirmirlər".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi şərhçi Sahil Kərimli deyib. Onun sözlərinə görə, son dövrlərdə Ermənistanda siyasi repressiyalar daha da kəskinləşib. Müxalifətin neytrallaşdırılması, müxalifət liderlərinə qarşı təqiblər, jurnalistlərin və bloqçuların həbs edilməsi kimi neqativ tendensiyalar müşahidə olunur. Bu, media azadlığının pozulması və jurnalistlərə qarşı haqsızlıqların, təqiblərin artması deməkdir. Hazırkı Paşinyan hakimiyyəti hətta kilisəyə qarşı müəyyən repressiv addımlar atmaqda davam edir. Din xadimlərinin və kilsənin təqib olunması Ermənistanın daxili gərginliyinin yüksək səviyyədə olmasının göstəricisidir, təəssüf ki, bu hallarla bağlı Qərb və Avropa İttifaqı ölkələrinin susqunluğu davam edir.

"Eyni zamanda Nikol Paşinyan hakimiyyəti öz hərəkətlərini haqlı hesab edə bilər. Son dövrlərdə radikal və işğalçı meyilli qüvvələr Ermənistan daxilində aktivləşməkdədir və bu qüvvələr Azərbaycanla sülh müqaviləsinin imzalanması prosesində gərginlik yaratmağa çalışırlar. Kilsə və din xadimləri, müxalifət nümayəndələri və fəallar qarşıdan gələn parlament seçkilərində Paşinyanı zəiflətmək, onun elektoratını azaltmaq məqsədi güdürlər. N.Paşinyan da bu proseslərə adekvat olaraq sərt reaksiya göstərir. Lakin bu, insan hüquqlarının pozulması və qanunsuz hərəkətlər üçün əsas ola bilməz. Ermənistan hakimiyyəti bütün addımlarında qanunçuluğu təmin etməli, insan haqlarının və söz azadlığının pozulmasına, repressiyalara yol verməməlidir", - deyə siyasi şərhçi vurğulayıb.

# Konstitusiya və Suverenlik medianın gözü ilə: Dövlətçilik ideyasının yeni mərhələsi

2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan olunması milli dövlətçilik tarixi-mizin məntiqi davamı, müasir inkişaf mərhələsinin isə əsas ideoloji xətti-dir. Bu il konstitusiyanın mahiyyətini, suverenliyin tarixi və siyasi anlamını ictimai şüurda daha dərindən izah etməyə, medianın analitik və maarifçi rolunu gücləndirməyə xidmət edir. Suverenliyin bərpası və konstitusiya quruluşunun bütün ərazilərdə təsbiqi Azərbaycan dövlətçiliyinin tarixində yeni dövrün başlanğıcıdır və media bu dövrün ictimai təhlilində aparıcı mövqedədir. AZƏRTAC "Konstitusiya və Suverenlik İli"nin prioritetlərinə və yeni reallıqlara nəzər salır.



Azərbaycan xalqının müstəqil dövlətə sahib olmaq arzusu 1991-ci ildə gerçəkləşsə də, o dövrdəki siyasi qeyri-sabitlik müstəqilliyin möhkəmlənməsinə imkan vermədi. Yalnız 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müasir dövlət quruculuğu üçün real əsas formalaşdı. 1995-ci il Konstitusiyası isə Azərbaycan Respublikasının siyasi, hüquqi və ideoloji doktrinasını müəyyənləşdirərək, dövlətin müstəqilliyinin qorunması, insan hüquqlarının təminatı və idarəçilik sisteminin institusional çərçivəsini yaratdı. Bu konstitusiya həm də suverenliyin qorunmasını dövlətin ali məqsədlərindən biri kimi təsbit edir.

Ermənistanın 1990-cı illərin əvvəllərindən etibarən Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində ölkə ərazisinin 20 faizi işğal altında qaldı. Etnik təmizləmə, Xocalı soyqırımı, şəhər və kəndlərimizin dağıdılması yalnız humanitar fəlakət deyil, həm də Azərbaycanın suveren hüquqlarının pozulması idi. Bu mərhələdə media ölkənin səsi kimi beynəlxalq auditoriyaya faktları çatdırmaq, insanlıq əleyhinə cinayətləri sənədləşdirmək və ictimai yaddaşı qorumaq kimi həyati funksiyanı yerinə yetirdi.

## Zəfərdən sonra yeni konstitusion reallıq: Suverenliyin tam bərpası

Qırx dörd günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər Azərbaycan dövlətçiliyində tamamilə yeni mərhələnin əsasını qoydu. Bu Qələbə Ermənistan ordusunun darmadağın edilməsinə və ölkəmizin ərazi bütövlüyünün bərpasına nail olmaqla Azərbaycan Respublikasının suverenlik tarixində dönüş nöqtəsinə çevrildi. Lakin suverenliyin bərpası prosesi bununla məhdudlaşmadı. 2023-cü il sentyabrın 19-da həyata keçirilmiş lokal antiterror tədbirləri Azərbaycanın bütün ərazilərində konstitusiya quruluşunun tam təsis edilməsinə şərait yaratdı və dövlət suverenliyinin faktiki olaraq bütövlükdə bərqərar olunmasını təmin etdi.

Bu yeni reallıq Prezident İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə hüquqi-siyasi müstəvidə rəsmiləşdirildi. Sərəncam yalnız baş vermiş tarixi proseslərin təsdiqi deyil, həm də müasir Azərbaycan dövlətçiliyinin inkişaf fəlsəfəsini müəyyənləşdirən strateji sənəddir. Burada qeyd olunan müddəalar göstərir ki, suverenlik anlayışı ölkəmiz üçün sırf hərbi və ya siyasi kateqoriya deyil, o, keçmişin ağır sınaqlarının, bu günün möhkəm dövlət təməlinin və gələcəyin milli maraqlara əsaslanan inkişaf kursunun kompleks ifadəsidir.

Sonədə vurğulandığı kimi, Ermənistanın uzun illər ərzində həyata keçirdiyi işğalçılıq siyasəti Azərbaycanı yalnız torpaq itkisi ilə üzləşdirməmiş, həm də ciddi humanitar fəlakətlərə səbəb olmuşdu. Şəhər və kəndlərin viran edilməsindən tutmuş Xocalı soyqırımına qədər baş verən ağır cinayətlər Azərbaycan dövlətinin suverenliyinə qarşı yönəlmiş ən ciddi təhdidlərdən biri kimi tarixə düşmüşdür.

Bu ədalətsizliyə son qoyan məqam isə 2020-ci ildə 44 günlük Vətən müharibəsi oldu. Azərbaycan Ordusunun qazandığı şanlı Qələbə təkcə işğalın aradan qaldırılması deyil, həm də BMT Təhlükəsizlik Şurasının illərlə icra olunmamış qətnamələrinin faktiki yerinə yetirilməsi demək idi. Bu, beynəlxalq hüququn bərpası, tarixi ədalətin təntənəsi və dövlətimizin siyasi-hərbi gücünün dünyaya nümayişi idi.

2023-cü il sentyabrın 19-da keçirilən antiterror tədbirləri isə suverenliyin bərpa prosesinin son mərhələsi oldu. Cəmi 23 saat davam edən əməliyyat nəticəsində separatizmin qalıqları zərərsizləşdirildi və Azərbaycanın konstitusiya quruluşu ölkənin hər guşəsində bərpa edildi. Bununla da dövlətin suveren iradəsi artıq heç bir məhdudiyyət olmadan bütün ərazilərdə həyata keçirilməyə başladı.

Bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağının Qarabağdan Naxçıvana, Şərqi Zəngəzurdan talan edilmiş kəndlərə qədər bütün məkanlarda əzəmətlə dalğalanması yeni konstitusion reallığın ən parlaq təcəssümüdür. Bu mənzərə suverenliyin yalnız hərbi qələbə deyil, həm də hüquqi, siyasi və ideoloji baxımdan möhkəmləndirilməsinin rəmzidir. Məhz bu tarixi gerçəklik nəzərə alınaraq Azərbaycan Prezidentinin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə hər il 20 Sentyabrın Dövlət Suverenliyi Günü kimi qeyd olunması qərara alındı. Bu gün, sadəcə, bir yubiley deyil, xalqımızın mübarizə əzminin, dövlətimizin suverenliyinin və otuzillik ədalət mübarizəsinin simvoludur.

Beləliklə, sərəncam Azərbaycanın müasir tarixində yeni mərhələnin siyasi-hüquqi rəmzinə çevrilir. Azərbaycan bu gün suverenliyini yalnız qoruyan yox, onu tam şəkildə həyata keçirən, öz iradəsini bölgədə və bütün dünyada açıq şəkildə ortaya qoyan güclü və müstəqil dövlətdir.

## Medianın suverenlik dövründə yeni analitik funksiyası

Müharibədən sonrakı dövrdə Azərbaycan mediasının missiyası əvvəlki illərlə müqayisədə xeyli genişlənib və dərinləşib. Suverenliyin tam bərpa olunduğu bu mərhələdə media artıq təkcə xəbərləri çatdıran vasitə deyil, həm də yeni siyasi-hüquqi reallıqları izah edən, dövlətçilik düşüncəsini gücləndirən, ictimai təhlil və maarifləndirmə funksiyasını həyata keçirən strateji institut kimi çıxış edir. Bu kontekstdə medianın əsas prioritetlərindən biri konstitusiyanın baza prinsipləri, vətəndaşların hüquq və vəzifələri, eləcə də dövlət suverenliyinin hüquqi-siyasi mahiyyəti barədə cəmiyyətdə düzgün təsəvvür formalaşdırmaqdır. Suverenliyin məzmununun, onun hüquqi əsaslarının və dövlət idarəçiliyi ilə qarşılıqlı əlaqəsinin izahı medianın analitik fəaliyyətinin mərkəzinə çevrilir və bu da ictimai hüquq mədəniyyətin yüksəlməsinə mühüm töhfə verir. Bununla yanaşı, regionda yaranmış yeni geosiyasi reallıqlar medianın üzərinə əlavə məsuliyyət qoyur. Qafqazda dəyişən təhlükəsizlik arxitekturasının şərhi, Azərbaycanın regional güc kimi mövqeyinin analizi və suveren xarici siyasətin beynəlxalq proseslərə təsirinin izahı həm peşəkar media yanaşması tələb edir. Azərbaycanın suverenliyi nəticəsində formalaşan yeni geosiyasi düzənin mahiyyətinin auditoriyaya izah olunması həm ölkədaxilində analitik düşüncə mühitini genişləndirir, həm də xarici auditoriyaya obyektiv informasiya ötürməsini təmin edir. Azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma və reinteqrasiya prosesləri də medianın fəaliyyətində xüsusi yer tutur. Burada konstitusiya quruluşunun tətbiqi, idarəetmə institutlarının bərpası, sosial-iqtisadi layihələrin icrası və böyük qayıdış proqramının gedişatı barədə dolğun, obyektiv və davamlı informasiya axınının təmin edilməsi cəmiyyətin dövlət siyasəti barədə məlumatlılıq səviyyəsini artırmaqla yanaşı, həm də milli həmrəyliyi gücləndirir. Eyni zamanda, işğal dövrünün nəticələri, etnik təmizləmə faktları, Xocalı soyqırımı kimi tarixi gerçəkliklərin sistemli şəkildə işıqlandırılması medianın milli yaddaşın qorunmasında və tarixi həqiqətlərin beynəlxalq aləmdə təqdimatında əvəzsiz rolunu önə çıxarır. Bu istiqamətdə aparılan peşəkar media fəaliyyəti həm informasiya müharibəsində üstünlüyün təmin olunmasına xidmət edir, həm də tarix, ədalətə və milli kimliyə dair həqiqətlərin gələcək nəsillərə ötürülməsini təmin edir. Beləliklə, tam suverenlik dövründə Azərbaycan mediası ölkənin strateji inkişaf kursunun ideoloji-informasiya təminatçısı kimi çıxış edir və dövlətçilik maraqlarını, milli təhlükəsizlik prioritetlərini və ictimai şüurun formalaşmasını bir-birinə bağlayan mühüm platformaya çevrilir.

## 2025-ci il: "Konstitusiya və Suverenlik İli" - strateji mesajlar

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi Azərbaycanın müasir inkişaf mərhələsinin fəlsəfi, hüquqi və strateji konturlarını müəyyən edən mühüm dövlət qərarıdır. Bu il həm tarixi yaddaşın dərinləşdirilməsi, həm də gələcəyə yönəlmiş dövlət idarəçiliyinin yeni modelinin formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. İl ərzində aparılacaq fəaliyyətlər dövlətçilik prinsiplərinin yenilənməsi və konstitusiyanın birbaşa idarəçilik mexanizmlərinə inteqrasiya olunması prosesini daha da gücləndirir, dövlət hakimiyyəti institutlarının funksionallığını və hüquqi sistemin dayanıqlılığını artırır. Bununla yanaşı, suverenliyin yalnız hərbi və siyasi qələbə ilə deyil, həm də sosial, hüquqi və ideoloji sahələrdə möhkəmləndirilməsi əsas prioritet kimi müəyyənləşir. Bu il cəmiyyətin hüquqi savadlılığının artırılması, dövlətçilik şüurunun təkmilləşdirilməsi və vətəndaşların konstitusiya dəyərlərinə bağlılığının gücləndirilməsi baxımından geniş maarifləndirici imkanlar açır. Eyni zamanda "Konstitusiya və Suverenlik İli" media üçün xüsusi məsuliyyət mərhələsi yaradır: peşəkar yanaşma, obyektivlik, analitik baxış və dövlətçilik dərkini gücləndirən informasiya siyasəti bu dövrün əsas tələblərindən biridir. Bütün bunlar göstərir ki, 2025-ci il yalnız retrospektiv tarixi qiymətləndirmə üçün deyil, həm də Azərbaycanın gələcək inkişaf kursunun, suveren dövlətçilik modelinin və milli ideoloji xəttin müzakirəsi və möhkəmləndirilməsi üçün geniş konseptual platforma rolunu oynayır.

Bir sözlə, Azərbaycanın müstəqillik və suverenlik yolu çətin, lakin şərəfli tarixdir. 2020-2023-cü illərdə qazanılmış zəfərlər konstitusiyada təsbit edilmiş suverenlik hüququnun faktiki olaraq bütün ərazilərdə bərqərar olmasını təmin etdi. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2024-cü ildə Dövlət Suverenliyi Gününün təsis olunması bu tarixi prosesin siyasi rəmzi, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi isə tarixi reallığın normativ-hüquqi müstəvidə ümumiləşdirilmiş ifadəsi kimi çıxış edir.

Əminliklə deyə bilərik ki, Azərbaycan mediası "Konstitusiya və Suverenlik İli"ndə bu mövzuların obyektiv təhlili, hüquqi maarifləndirmənin təşviqi və dövlətçilik ideallarının təbliği istiqamətində mühüm missiyaların uğurla icra edib. Azərbaycan isə bu gün tam suveren, hüquqi və qüdrətli dövlət kimi yeni mərhələdə inamla irəliləyir.

# Ermənistan vətəndaşlarının məhkəməsində təqsirləndirilən şəxslərin vəkillərinin müdafiə çıxışları yekunlaşıb

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 4-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər birinin bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunublar.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclası təqsirləndirilən şəxslərin müdafiəçilərinin çıxışları ilə davam etdirilib.

Təqsirləndirilən Davit İşxanyanın müdafiəçisi Aqşin Məmmədli çıxışında deyib ki, məhkəmənin vəzifəsi yalnız ittiham aktında göstərilən məsələləri yoxlamaq deyil, həm də ədalət prinsipini, qanunların aliliyini və təqsirsizlik prezumpsiyasını təmin etməkdir. Mövcud qanunvericiliyin, eyni zamanda Cinayət Məcəlləsinin tələbinə əsasən hökm yalnız şübhəsiz və qəti sübutlar əsasında çıxarılmalıdır.

O, D.İşxanyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

D.İşxanyanın digər vəkili Elçin Əmirov da müdafiəçisi olduğu şəxs barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Levon Balayanın müdafiəçisi Vəfa Mehdiyeva çıxışında vəkili olduğu şəxsin ifadəsinə istinadla deyib ki, o, 1995-1998-ci illərdə Şuşada, Xankəndidə və Xocalıda yerləşən nömrələrini xatırlamadığı hərbi hissələrdə əsgər kimi xidmət edib. Bu müddətdə ona "AKS 74" konstruksiyalı avtomat silah təhkim olunub.

Vəkil hüquqlarını qoruduğu şəxsin əməllərində cinayət tərkibinin əlamətlərinin olmadığını deyib və barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

L.Balayanın digər vəkili Saqi Məmmədov da hüquqlarını müdafiə etdiyi şəxslə bağlı bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Davit Allahverdiyanın müdafiəçisi Nizami Əliyev deyib ki, hüquqlarını qoruduğu şəxs özünü təqsirli bilmir. O bildirib ki, D.Allahverdiyana qarşı irəli sürülmüş sübutlar əsassızdır və mötəbər deyil. Müdafiəçi D.Allahverdiyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Onun digər vəkili Elməddin Məmmədov da özündən əvvəl çıxış etmiş müdafiəçinin çıxışında göstərilən xüsusatlarla razılaşdığını deyib.

Təqsirləndirilən Erik Qazaryanın müdafiəçisi Natiq Mustafayev çıxışında hüquqlarını qoruduğu şəxsin özünü təqsirli bilmədiyini, silahını təhvil verərək Azərbaycan Silahlı Qüvvələrinin hərbçilərinə könüllü təslim olduğunu bildirib. O, E.Qazaryan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Melikset Paşayanın müdafiəçisi Elnaz Səmədova hüquqlarını qoruduğu şəxsin heç bir aktiv döyüşdə iştirak etmədiyini söyləyib. Vəkil deyib ki, M.Paşayana elan edilmiş ittihamlar öz təsdiqini tapmayıb, bu səbəbdən də ona bəraət verilməlidir. O, M.Paşayan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Levon Mnatsakanyanın müdafiəçiləri Oqtay Mədətov və Xəyyam Əsgərov hüquqlarını qoruduqları şəxsin özünü təqsirli bilmədiyini deyərək, onun barəsində ədalətli hökm çıxarılmasını məhkəmədən xahiş ediblər.

Təqsirləndirilən şəxs Bako Sahakyanın müdafiəçisi Nigar Mirbabayeva deyib ki, hüquqlarını qoruduğu şəxs arxa cəbhədə xidmət edib, mülki şəxs kimi çalışıb və onun vəzifələrinə ərzaq və geyimin paylanması, dərmanların təminatının təşkili daxil olub.



Vəkil bildirib ki, onun təcavüzkar müharibənin planlaşdırılmasında iştirakı olmayıb, mülki əhaliyə qarşı əməliyyatlarda iştirak etməyib, fəaliyyəti əsasən humanitar xarakter daşıyıb.

N.Mirbabayeva söyləyib ki, B.Sahakyanın hərəkətləri qanuni vəzifələrinin sərhədlərini aşmayıb və heç bir cinayəti törətmək məqsədi daşımayıb. Vəkil bildirib: "Bu şəxs cinayətkar deyil, faciəli bir dövrün canlı şahididir".

O deyib ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 42.2.3-cü və 42.2.4-cü maddələrinə əsasən, ittihamın təqdim etdiyi dəlillər Bako Sahakyanın təqsirini sübuta yetirmək üçün kifayət qədər əsas vermir. Onun sözlərinə görə, təqsirləndirildiyi cinayətlərin törədilməsinə aidiyyəti olmaması sübut edildiyindən bəraət hökmünün çıxarılması yeganə ədalətli və hüququyğun qərar olardı.

B.Sahakyanın digər vəkili Gülərə İsmayılova müdafiə etdiyi şəxsə bəraət verilməsini məhkəmədən xahiş edib.

Təqsirləndirilən Qarik Martirosyanın müdafiəçisi Rəşadət Axundov deyib ki, hüquqlarını qoruduğu şəxs ifadəsində özünü təqsirli bilməyib. Vəkil bildirib ki, Q.Martirosyanı cinayətkar birliklə bağlayan dəlillər müəyyən edilməyib. O, "hərbi hissədə" sıravi əsgər kimi xidmət edib, sonradan aylıq ödəniş müqabilində posta çıxıb. Müdafiəçi Q.Martirosyan barəsində ədalətli hökm çıxarmağı məhkəmədən xahiş edib.

Təqsirləndirilən şəxs Arayik Harutyunyanın müdafiəçisi Cavid Rzazadə çıxışında hüquqlarını qoruduğu şəxsə qarşı irəli sürülmüş ittihamlarla razılaşmayıb.

Müdafiəçi 2020-ci ildə 44 günlük müharibə dövründə Gəncənin raketlərlə vurulmasından da danışıb. Bildirib ki, müvafiq qərarları (Gəncənin və digər şəhərlərin raket atəşinə tutulmasını - red.) təqsirləndirilən şəxs verməyib, həmin raketlərin Ermənistan rəhbərliyinin əmri ilə həmin ölkənin ərazisindən atıldığı həm istintaq materiallarından, həm də işin faktiki hallarından birmənalı şəkildə məlum olur.

Vəkil qondarma rejimin "ordusu"nun Ermənistan silahlı qüvvələrinə tabe olduğunu və bu faktın ittiham tərəfindən təkzib edilmədiyini, həmçinin uzaqmənzilli raketlərin vaxtilə işğal edilmiş ərazilərdə deyil, Ermənistanda olduğunu bildirib.

A.Harutyunyanın digər vəkili Anar Məmmədov çıxışında deyib ki, müdafiə etdiyi şəxsə qarşı elan olunan ittihamlar sübut olunmayıb.

O, A.Harutyunyanın əməlində cinayət tərkibi olmadığını deyərək bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Məhkəmə prosesi dekabrın 11-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qarayan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

## İŞİMİZ, GÜZƏRANIMIZ

# Sosial sahədə əməkdaşlığın genişləndirilməsi TDT-ni daha effektiv edəcək

**Türk dövlətləri arasında əməkdaşlığın güclənməsi son illər siyasi, iqtisadi və təhlükəsizlik sahələrində olduğu kimi, sosial istiqamətdə də birgə fəaliyyətə şərait formalaşdırıb. Dövlətləri bir araya gətirən ortaq tarix, dil və mədəni irs kimi təməl amillər sosial sahədə də həmrəylik üçün əsas yaradır. Bu baxımdan, türk dövlətlərinin sosial sahədə birliyi tarixi bağların davamıdır. Eyni zamanda bu birlik müasir çağırışlara birgə cavab vermək üçün strateji əhəmiyyət daşıyır.**



Türk xalqları arasında sosial sahədə birlik ideyasının kökləri qədim dövrlərə uzanır. Orta əsrlərdə Mərkəzi Asiyada formalaşmış türk dövlətləri ictimai idarəçilik prinsipləri və həyat tərzi ilə də bir-birilərinə bağlı olmuşlar. Qonşu xalqlarla müqayisədə türk toplumlarının ailə institutuna, yardımlaşma ənənəsinə, icma strukturlarına və sosial həmrəyliyə verdiyi yüksək dəyər bu birliyin təməl elementləridir. XX əsrdə, xüsusilə Mərkəzi Asiya və Türkiyə kimi türk dövlətləri arasında mədəni və sosial yaxınlıq müstəqillikdən sonra daha sistemli əməkdaşlığa çevrilib. 2009-cu ildə imzalanmış Naxçıvan Sazişi nəticəsində Türk Dövlətləri Təşkilatı (TDT) yaradılıb və bu, sosial sahədə birgə fəaliyyətin yeni mərhələsinə təkan verib.

Hazırda TDT çərçivəsində üzv ölkələr arasında sosial sahədə əməkdaşlıq bir neçə əsas istiqamətdə inkişaf etdirilir. Əmək və sosial müdafiə sahəsində əməkdaşlıq önəmli istiqamətlərdəndir. Üzv ölkələr arasında işçi miqrasiyası, sosial sığorta və sosial təminat sistemlərinin uyğunlaşdırılması üzrə təcrübə mübadiləsi aparılır. Bu, yalnız sosial rifahın artırılmasına deyil, həm də regionda sabitliyin möhkəmlənməsinə stimul verir. Bu sahəyə yönəlmiş bir sıra layihələr türk dövlətləri arasında humanitar həmrəyliyi və idarəçilik sahəsində təcrübə mübadiləsini gücləndirir. Sosial xidmətlərin təkmilləşdirilməsi, uşaq və qadın siyasətinin koordinasiyası, həmçinin səhiyyə sahəsində təcrübə paylaşımı TDT-yə üzv dövlətlər arasında qarşılıqlı fəaliyyətin nümunələridir. Həmrəylik prinsipi təbii fəlakətlər zamanı birgə yardım və resurs paylaşımı ilə özünü göstərir. Fəlakət baş verdikdə TDT dövlətlərinin bir-birinə yardım göstərməsi təşkilatın sosial həmrəylik prinsiplərini daha da gücləndirir. Bu, türk dünyasında "birlikdə daha güclüyük" anlayışının real tətbiqidir.

Bu kontekstdə 2024-cü il oktyabrın 31-də Ankarada "Türk dövlətlərində sosial müdafiə, iş həyatı və sosial xidmətlər" mövzusunda keçirilən beynəlxalq konfrans böyük əhəmiyyət daşıyıb. Konfransın əsas məqsədi üzv dövlətlər arasında təcrübə mübadiləsini genişləndirmək, sosial müdafiə və əmək siyasətində ortaq yanaşmaların müəyyənləşdirilməsinə dəstək vermək idi. Tədbir çərçivəsində müxtəlif işçi qrupları yaradılıb, gələcək birgə layihələrin və əməkdaşlıq mexanizmlərinin planlaşdırılması ilə bağlı qərarlar qəbul edilib. Müzakirələrdə əmək bazarının inkişafı, sosial müdafiə sistemlərinin təkmilləşdirilməsi, sosial xidmətlərin koordinasiyası və ölkələr arasında işçi miqrasiyasının idarə olunması məsələlərinin ortaq yanaşma ilə həll edilməsinin vacibliyi vurğulanıb.

Qeyd edək ki, TDT çərçivəsində əmək və sosial müdafiə sahəsində yalnız fikir mübadiləsi deyil, həm də praktik əməkdaşlıq həyata keçirilir. Bu mənada Azərbaycanın DOST Agentliyi ilə Türkiyənin İŞKUR qurumu 2024-2025-ci illər üçün hazırlanan tədbirlər planı çərçivəsində təcrübə mübadiləsi aparır. 2025-ci ilin iyun ayında Ankarada bu əməkdaşlıq mexanizmləri ilə bağlı görüş keçirilib və birgə fəaliyyətin daha da genişləndirilməsi müzakirə olunub. Azərbaycan və Türkiyə arasında isə sosial müdafiə sahəsində ikitərəfli köklü əməkdaşlıq mövcuddur. 1998-ci ildə imzalanmış "Sosial müdafiə sahəsində əməkdaşlıq" sazişi və digər prosedur-müqavilələr bu sahədə hüquqi əsas yaradaraq, iki ölkə arasında davamlı və sistemli əməkdaşlığı təmin edir.

Bu istiqamətdə Mərkəzi Asiya dövlətləri arasında da mühüm əməkdaşlıq tədbirləri həyata keçirilir. Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan sosial müdafiə və məşğulluq sahələrində təcrübə mübadiləsi aparır, əmək bazarının inkişafı və sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün birgə layihələr həyata keçirirlər. Qazaxıstan və Qırğızıstan arasında əmək miqrasiyası ilə bağlı hazırlanmış ortaq proqramların sayəsində əmək hüquqları və sosial təminat sahəsində təcrübə paylaşımı sistemli şəkildə aparılır. Eyni zamanda Mərkəzi Asiya ölkələrinin sosial xidmət qurumları təlimlər, seminarlar və konfranslar vasitəsilə qarşılıqlı təcrübə mübadiləsi həyata keçirir ki, bu da regiondakı sosial stabilliyin möhkəmlənməsinə töhfə verir. Beləliklə, Azərbaycan, Türkiyə və Mərkəzi Asiya dövlətləri TDT çərçivəsində əmək və sosial müdafiə sahəsində birgə fəaliyyətləri gücləndirərək, sosial rifahın artırılması, eləcə də qarşılıqlı həmrəyliyin təmin olunmasına nail olurlar.

Qeyd etdiyimiz əməkdaşlığın növbəti mərhələsi kimi üzv ölkələr arasında birbaşa dialoq və təcrübə paylaşımını gücləndirmək üçün mühüm görüşlər keçirilir. Məhz bu çərçivədə bu gün Bakıda keçirilən TDT-yə üzv ölkələrin "Əmək, məşğulluq və sosial müdafiə nazirləri"nin birinci iclası region üçün önəmli hadisə kimi diqqət çəkir. Belə tədbirlər üzv dövlətlər arasında koordinasiyanı artırır, sosial siyasət, sosial müdafiə sistemləri və əmək bazarı ilə bağlı təcrübə və təklif mübadiləsinə zəmin yaradır. Üstəlik də məşğulluq xidmətlərinin təşkili, sosial ödənişlərin verilməsi mexanizmləri və sosial xidmətlərin rəqəmsallaşdırılması sahəsində üzv ölkələrə bir-birindən öyrənməyə imkan verir. Hər ölkə öz sosial siyasətini daha optimal və ölkə şərtlərinə uyğun qurmaq üçün nümunələr götürə bilir. Beləliklə, nazirlərin iclaslarının başlaması və nazirliklərarası birbaşa əməkdaşlıq strukturlarının yaradılması, ortaq yanaşmaların müəyyənləşdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin təşkili və birgə sənədlərin (bəyannamə) imzalanması göstərir ki, bu sahə uzunmüddətli strateji prioritetdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət nazirlərinin 4-cü iclasında iqtisadi əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

**İqtisadiyyat nazirinin müavini D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət nazirlərinin 4-cü iclasında iştirak edib. Misir Ərəb Respublikasının Qahirə şəhərində D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət nazirlərinin 4-cü iclası keçirilib.**

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli iclasda çıxış edərək Azərbaycanın D-8 ölkələri ilə səmərəli tərəfdaşlıq əlaqələrinə malik olduğunu vurğulayıb. D-8 təşkilatının üzv dövlətlər arasında ticarət üzrə dayanıqlılığın gücləndirilməsi, bazarların şaxələndirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından effektiv platforma olduğu qeyd edilib. Təşkilat daxilində ticarət həcmlərinin artırılması və daha səmərəli iqtisadi əlaqələrin formalaşdırılması istiqamətində aparılan müzakirələrin önəmi diqqətə çatdırılıb. Azərbaycanda mövcud əlverişli biznes mühiti, ölkəmizin strateji nəqliyyat-logistika üstünlükləri, sənaye potensialı və geniş investisiya imkanları barədə məlumat verilib.

Tədbirdə üzv ölkələr arasında ticarət inteqrasiyasının dərinləşdirilməsi, sərmayə axınının artırılması, davamlı inkişafın təşviqi və bilik mübadiləsinin genişləndirilməsi üzrə müzakirələr aparılıb. İqtisadi əməkdaşlığın yeni mərhələyə yüksəldilməsi məqsədilə ticarət forumlarının təşkili, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri və birbaşa biznes əlaqələrinin qurulmasının əhəmiyyəti xüsusi vurğulanıb. D-8 ölkələri arasında ticarətin dövriyyəsinin artırılması üçün birgə səylərin gücləndirilməsinin zəruri olduğu diqqətə çatdırılıb.

İclasda D-8 üzvü olan dövlətlərin ticarət üzrə məsul nazirləri və nümayəndə heyətləri iştirak edib və Ticarət Əməkdaşlığı haqqında Qahirə Bəyannaməsi qəbul edilib.

## Azərbaycan şərabları Çinin Nankin və Sian şəhərlərində tanıdılıb

**Azərbaycanın Çindəki ticarət nümayəndəsi aparatının, Nankin və Sian şəhərlərində fəaliyyət göstərən Azərbaycan ticarət evlərinin birgə təşkilatçılığı ilə Azərbaycan şərablarının tanıdılmasına həsr olunmuş tədbirlər keçirilib.**

Çinin Nankin və Sian şəhərlərində Azərbaycan şərablarının tanıdılması məqsədilə tədbirlər keçirilib. 27 noyabr-4 dekabr tarixlərində keçirilən tədbirlər Azərbaycanın Çindəki ticarət nümayəndəsi aparatının, Nankin və Sian şəhərlərində fəaliyyət göstərən Azərbaycan ticarət evlərinin birgə təşkilatçılığı ilə baş tutub. Tədbirlərin keçirilməsində məqsəd Azərbaycan şərablarının Çin bazarında tanıdılması, ölkəmizin ixrac potensialının artırılması və bazara çıxış imkanlarının genişləndirilməsinə töhfə verməkdir.

Tədbirlərdə çinli şərab idxalçıları və alıcılarına Azərbaycan şərablarının qədim tarixi, hazırda ölkəmizdə şərabçılığın inkişafı üzrə görülən işlər barədə məlumat verilib. Həmçinin tanınmış şərab mütəxəssisi Kevin Dinq tərəfindən master-klass və şərab dequstasiyaları keçirilib.

Tədbirlər çərçivəsində potensial çinli tərəfdaşlarla əməkdaşlıq imkanları müzakirə olunub.

## İlə yekun vurulur

# Azərbaycanın ərzaq kompleksinin yeni ünvanları

### Onların sırasında meyvə qurusu istehsal edən müəssisədən tutmuş iri heyvandarlıq təsərrüfatınacan var

**Bu il istifadəyə verilən onlarla müxtəlif təyinatlı müəssisə ölkəmizin iqtisadi xəritəsini zənginləşdirməklə yanaşı, həm də ayrı-ayrı sahələrin inkişafına təkan verib. Təqdirəlayiqdir ki, bunların bir çoxu ərzaq təhlükəsizliyinə xidmət edir.**

Bu qəbildən olan müəssisələrin qurulması, onların fəaliyyətinin iqtisadi cəhətdən səmərəliliyi, rəqabətədavamlı məhsulun istehsalı və çeşidinin genişləndirilməsi ümumilikdə ölkə iqtisadiyyatının inkişafında böyük rol oynayır. Yerli xammal əsasında istehsalın genişləndirilməsi isə daxili bazarın sabit saxlanılması ilə bərabər, həm də ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir, ixrac potensialını daha da artırır. Bunlar "Made in Azerbaijan" brendi ilə məhsulların xarici bazarlara çıxarılması məsələsində olduqca mühüm əhəmiyyət kəsb edir.

Bu istiqamətdə atılan növbəti addımlardan biri iyunun 12-də Prezident İlham Əliyevin iştirakı ilə Bakıda "Nobel Food İndustry" MMC-nin müxtəlif növ və çeşiddə qəlyanaltı məhsullarının istehsalı zavodunun açılışı oldu. Açılışında da qeyd edildiyi kimi, "Azərsun Holdinq"ə məxsus "Qafqaz" konserv zavodu və "Shervan" MMC-nin həmtəsisçiliyi ilə istismara verilən bu müəssisədə müxtəlif növ və çeşiddə qəlyanaltı məhsulları - popkorn, çərəz və quru meyvə istehsal olunacaq. Məhsulların yerli istehlakçılara təqdim edilməsi ilə bərabər, müxtəlif ölkələrə ixracı da nəzərdə tutulur.

İllik istehsal həcmi 9600 ton olan zavodda dünyanın aparıcı ölkələrinin müasir avadanlıqları quraşdırılıb. İstehsalatda istifadə ediləcək günəbaxan, badam, fındıq kimi məhsullar yerli xammal hesabına təmin olunacaq. Ümumi sahəsi 7 hektardan çox olan müəssisədə 210 nəfər daimi işlə təmin ediləcək. Zavodun ümumi investisiya dəyəri 38 milyon manat təşkil edir ki, bunun da 5 milyon manatı Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən ayrılmış güzəştli kreditdir.

Bu yeni zavodun yaradılması sahibkarlığın təşviqi, ərzaq təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərin Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunun göstəricisidir.

Açılan hər yeni müəssisə həm də yeni iş yerləri deməkdir. Sözügedən müəssisələrin bir çoxunun regionlarda açılması bölgələrimizdə yaşayan əhalinin məşğulluğuna dəstək baxımından da xüsusi məna daşıyır. Götürək elə oktyabrın 28-də İmişlidə "Promalt" MMC-nin arpa emalı müəssisəsinin açılmasını. Onu da deyək ki, açılışda Prezident İlham Əliyev iştirak edib.

Müəssisədə pivə istehsalı zamanı əsas xammal hesab olunan arpanın xüsusi proseslərdən keçərək mayalanma və fermentasiya üçün hazır vəziyyətə gətirilməsi ilə əldə edilən məhsul - malt istehsal olunacaq. İsveçrənin "Bühler GmbH" şirkətinin müasir texnologiyası əsasında hazırlanmış avadanlıqla təchiz olunan və emal prosesi tam avtomatlaşdırılan müəssisədə ildə 11 min ton arpa istehsal ediləcək. Müəssisənin investisiya dəyəri 33,2 milyon manatdır.

İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu, "Azərşəkər" və "Azərsun Holdinq" MMC-lərin tərəfdaşlığı əsasında həyata keçirilən layihəyə dövlətin investisiya təşviqi mexanizmi çərçivəsində vergi və gömrük güzəştləri ilə dəstək göstərilib. "Carlsberg Azerbaijan" pivə zavoduna da xammal satışı həyata keçirən müəssisə Cənubi Qafqazda pivəlik arpa səmənisinin emalı üzrə ixtisaslaşmış ilk müasir istehsal obyektidir. Layihə regionda aqrar-sənaye inteqrasiyasını gücləndirməklə yanaşı, texnoloji modernləşmə, daxili bazarın dayanıqlı xammal təminatı, istehsalın lokallaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

İmişli rayonunun onlarla sakini burada öz daimi iş yerini tapıb.

İsmayıllı rayonunun Topçu kəndində dövlət başçısının iştirakı ilə mayın 26-da açılan "Coca-Cola Bottlers" MMC-nin yeni istehsal müəssisəsi illik 165 milyon litr istehsal gücünə malikdir. Layihənin investisiya dəyəri 80 milyon manatdır. Bu, "Coca-Cola Bottlers" MMC-nin ölkəmizdə ikinci istehsal müəssisəsidir. "Coca-Cola"nın Azərbaycana investisiyalarının artırılması da ölkədə əlverişli biznes mühitinin və cəlbedici investisiya şəraitinin mövcudluğundan irəli gəlir. Onu da qeyd edək ki, "Azerbaijan Coca-Cola Bottlers" MMC ölkəmizdə istehsala 1996-cı ildə başlayıb. Şirkət indiyədək Azərbaycan iqtisadiyyatına 200 milyon dollar sərmayə yatırıb.

"Coca-Cola"nın yeni müəssisəsi 15 hektar ərazidə inşa edilib. Beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verən bu istehsal sahəsində 100-dən çox yerli sakin daimi işlə təmin olunub. Burada istehsal olunacaq məhsulların, əsasən, daxili bazarda satışı nəzərdə tutulub.








Müəssisə İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilən investisiya təşviqi sənədi çərçivəsində 7 il müddətində mənfəət və gəlir vergisindən 50 faiz güzəşt əldə edib. Bundan əlavə, əmlak və torpaq vergisindən, texnika, texnoloji avadanlıq və qurğuların idxalına görə ƏDV-dən və gömrük rüsumlarından azad olunub. Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən layihənin maliyyələşdirilməsinə 10 milyon manat güzəştli kredit ayrılıb. "Azerbaijan Coca-Cola Bottlers" MMC ətraf mühitin mühafizəsi üzrə öhdəliklərə sadiq qalaraq istehsal zamanı sərf olunan enerjinin bir qismini günəş panelləri vasitəsilə alınan "yaşıl enerji" ilə təmin etməyi nəzərdə tutur.

İsmayıllı rayonunda belə bir istehsal müəssisəsinin açılması bölgənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, sənaye potensialının reallaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Yeni müəssisənin açılması istehsalın lokallaşdırılmasını, texnologiya transferini və idxalın əvəz edilməsini stimullaşdırır.

Xocalı rayonunun Xanabad kəndi ərazisində yerləşən heyvandarlıq kompleksi də ölkəmizin ərzaq təhlükəsizliyinə sanballı töhfə verəcək. Kompleks Prezident İlham Əliyevin xeyir-duası ilə mayın 9-da fəaliyyətə başlayıb. Yurd yerinə geriyə dönən insanların məşğulluğunun həllində də bu iri heyvandarlıq kompleksinin əhəmiyyətli rolu olacaq.

Kompleksə damazlıq, ətlik-südlük heyvandarlıq, istehsal və ictimai iaşə xidmətləri daxildir. Damazlıq fermer təsərrüfatının ümumi tutumu 750 baş iribuynuzlu heyvandan ibarətdir. Fəaliyyətə başladığı vaxt təsərrüfatda 355 baş üç növ müxtəlif cins iribuynuzlu damazlıq heyvan var idi. Türkiyə və Almaniya texnologiyaları tətbiq olunmaqla fəaliyyət göstərən kompleks illik 100 ton ət, 2 min ton süd istehsalı gücünə malikdir. Gələcəkdə süd istehsalının illik 3 min tona çatdırılması nəzərdə tutulur. Kompleksdə istehsal edilən məhsullar daxili bazarla yanaşı, Birləşmiş Ərəb Əmirliklərinə və Qətərə ixrac olunacaq.

Layihə dəyəri 4,2 milyon manat olan kompleksin ərazisi 7,6 hektardır. Böyük sahədə əkilən arpa və buğda isə təsərrüfatda yemə olan ehtiyacı qarşılayacaq.

Bu və digər müəssisələrin açılışı göstərir ki, regionların davamlı inkişafı, istehsal və ixrac imkanlarının artırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının önəmli istiqamətləri olaraq qalır. Davamlı islahatlarla investorlar üçün yaradılan əlverişli işgüzar şərait, güzəşt və imtiyazlar onları ölkəmizə daha çox sərmayə yatırmağa sövq edir. Paytaxtla yanaşı, regionlara yatırılan sərmayələr sayəsində yeni istehsal müəssisələrinin açılması həm də qeyri-neft sektorunun inkişafının göstəricisi olmaqla bərabər, bölgələrin iqtisadi potensialının daha da möhkəmləndirilməsində böyük rol oynayır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

**5 Dekabr Beynəlxalq Könüllülər Günüdür**

# Cəmiyyətin gücünü bir araya gətirənlər



**Dünyanın bir çox ölkəsində olduğu kimi, Azərbaycanda da könüllülük artıq cəmiyyətin inkişafında mühüm yer tutan bir dəyərə çevrilib. BMT Baş Assambleyasının 1985-ci ildə qəbul etdiyi qərarla 5 dekabrın Beynəlxalq Könüllülər Günü kimi qeyd olunması könüllülərin fəaliyyətinə verilən yüksək qiymətin təzahürüdür.**

Bu fəaliyyət iradə və seçimin nəticəsi olaraq həyata keçirilən, heç bir maddi marağa əsaslanmayan, ancaq cəmiyyətin rifahını yaxşılaşdırmağa yönəlmiş sosial missiya kimi qəbul edilir. Könüllülük insanlara yalnız yardım etmək fürsəti vermir, həm də onların şəxsi inkişafında mühüm rol oynayır, gənclər yeni bacarıqlar qazanır, kollektiv iş təcrübəsi əldə edir, liderlik xüsusiyyətlərini gücləndirir və fərqli mədəniyyətlərlə tanış olmaq imkanı qazanırlar.

Azərbaycan könüllülük hərəkatının tarixi uzun illər əvvəllərə dayanır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə dövlət qurumlarının və beynəlxalq təşkilatların birgə proqramı çərçivəsində ölkədə ilk genişmiqyaslı könüllülər komandası yaradıldı. Bu təşəbbüs sonrakı illərdə gənclərin sosial fəallığının artmasına, ictimai layihələrdə iştirakın genişlənməsinə zəmin hazırladı. Heydər Əliyevin formalaşdırdığı bu xətt bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə daha böyük miqyasda davam etdirilir.

Azərbaycanda gənclər siyasətinin əsas istiqamətlərindən biri onların könüllü fəaliyyətlərə cəlb edilməsidir. Buna nail olunmasında 2009-cu ildə qəbul edilmiş "Könüllü fəaliyyəti haqqında" qanun xüsusi önəm daşıyır. Bu hüquqi baza sayəsində könüllülərin müxtəlif sahələrdə iştirakı genişləndi, dövlət qurumları ilə əməkdaşlıq daha çevik və məqsədyönlü şəkildə həyata keçirilməyə başladı. Həmin qanun ölkəmizdə könüllülük hərəkatının hüquqi çərçivəsini müəyyənləşdirərək onun fəaliyyətinin daha sistemli və dayanıqlı şəkildə formalaşmasına şərait yaratdı.

2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yanında aktiv və konstant könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı (AKT) yaradılıb. 1 saylı "ASAN kommunal" mərkəzinin açılışında Prezident İlham Əliyev könüllülərin "ASAN xidmət"dəki rolunu yüksək qiymətləndirərək deyib: "Əlbəttə ki, biz "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir... Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır. Mənə verilən məlumata görə, 10 min gənc artıq könüllü kimi "ASAN xidmət" mərkəzlərində işləyib və bu insanların bir çoxu bu gün müxtəlif vəzifələrdə, müxtəlif işlərdə ölkəmizin gələcək inkişafı üçün çalışırlar".





Hazırda "ASAN xidmət", DOST Agentliyi, Miqrasiya xidməti, KOB Agentliyi, Ədliyyə Nazirliyi və digər strukturlar yanında formalaşan könüllülər qrupları minlərlə gənci ətrafında birləşdirir. Bu təşkilatlar vasitəsilə gənclər sosial layihələrdə, humanitar təşəbbüslərdə, maarifləndirici kampaniyalarda, ictimai tədbirlərdə və dövlət xidmətləri prosesində fəal rol oynayırlar.

Müstəqillik dövründə Azərbaycan beynəlxalq tədbirlərin uğurlu təşkilatçısı kimi tanındı və bu tədbirlərin əksəriyyətində könüllülərin rolu danılmaz oldu. "Eurovision-2012" mahnı müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları kimi böyükmiqyaslı layihələrin həyata keçirilməsində minlərlə gənc könüllü fəal iştirak etdi. Onların birgə və fədakar əməyinin nəticəsində ölkəmiz həm təşkilati bacarıqları, həm də qonaqpərvərliyi ilə dünyaya nümunə göstərdi. Xüsusilə, 2024-cü ildə Bakıda keçirilən COP29 kimi qlobal əhəmiyyətli tədbirdə 3000-dən çox könüllünün iştirakı Azərbaycan gəncliyinin potensialını bir daha nümayiş etdirdi.

COP29 könüllülüyü ilə bağlı proseslər öz miqyası və təşkilati yanaşması ilə əvvəlki tədbirlərdən fərqləndi. Qeydiyyatın başladığı ilk 24 saatda 9000 nəfərin müraciət etməsi ölkəmizdə könüllülük hərəkatına göstərilən böyük marağı ortaya qoydu. Ümumilikdə isə 16 mindən çox gənc bu proqramda iştirak etmək arzusunu ifadə etdi. Tədbirdə fəaliyyət göstərən könüllülər təkcə qonaqlara deyil, həm də müxtəlif şöbələrdə çalışan mütəxəssislərə dəstək verməklə beynəlxalq təşkilatçılığın önəmli hissəsinə çevrildilər. COP29-un fərqli cəhətlərindən biri bu tədbirlə yanaşı təşkil edilən COP29 akademiyası oldu. Akademiya iştirakçılarına iqlim dəyişmələri, davamlı inkişaf, idarəetmə və peşəkar fəaliyyət kimi sahələrdə yeni biliklər qazandırdı. İki aylıq proqram çərçivəsində seçilmiş 29 iştirakçı müxtəlif şöbələrdə təcrübə keçərək həm fərdi inkişaf imkanları əldə etdilər, həm də gələcək karyeraları üçün mühüm addımlar atdılar.

Azərbaycan dövlətinin könüllülüyə verdiyi böyük önəmi Prezident İlham Əliyevin 2020-ci ili "Könüllülər ili" elan etməsi də sübut edir. Həmin sərəncamda könüllülüyün cəmiyyətdə həmrəyliyi gücləndirdiyi, sosial məsuliyyət hissini artırdığı və gənclərin potensialının düzgün istiqamətə yönəldilməsində mühüm rol oynadığı vurğulanır. Könüllülük yalnız yardım etmə fəaliyyəti deyil, həm də gənclər üçün vətənpərvərlik məktəbidir. Dövlətimizin başçısının çıxışlarında dəfələrlə qeyd etdiyi kimi, bu hərəkat cəmiyyətin saflaşmasına, gənclərin təşkilatlanmasına və yeni kadr potensialının formalaşmasına xidmət edir.

Azərbaycan könüllüləri bu gün idman, ekologiya, turizm, mədəniyyət, diaspor işi, təhsil, qanunvericilik, kənd təsərrüfatı və digər sahələrdə də nümunəvi layihələr həyata keçirirlər. "ASAN Könüllüləri", "Bir Könüllü", "RİİB Könüllüləri", "Aqrar İnkişaf Könüllüləri", "Miqrasiya Könüllüləri", "Ədliyyə Könüllüləri" və gəncləri birləşdirən digər hərəkatlar artıq ölkəmizin sosial arxitekturasının vacib hissəsinə çevrilib.

Könüllülərin fəaliyyətinin güclü tərəflərindən biri onların bütün cəmiyyəti əhatə edən sahələrdə iştirak etməsidir. Qanuna əsasən, könüllülər sosial təminata ehtiyacı olan qocalara, əlilliyi olan şəxslərə, kimsəsiz uşaqlara, aztəminatlı ailələrə, qaçqın və məcburi köçkünlərə dəstək göstərirlər. Eyni zamanda sağlam həyat tərzinin təbliği, epidemiyalar barədə məlumatlandırma, mədəni irsin qorunması, ətraf mühitin mühafizəsi, fövqəladə hallar zamanı yardım kimi əhəmiyyətli missiyaları da həyata keçirirlər. Bu fəaliyyətlər cəmiyyətin həm sosial həmrəyliyini gücləndirir, həm də vətəndaş məsuliyyətini artırır.

Seçkilər dövründə də könüllülər yüksək fəallıq göstərirlər. 2024-cü ilin fevralında keçirilmiş növbədənkənar prezident seçkiləri ərəfəsində respublikanın müxtəlif bölgələrində "Gəncin səsi, Gələcəyin səsi!" şüarı ilə keçirilən maarifləndirici görüşlər gənclərin seçki prosesinə hazırlığının bir hissəsi idi. Bu görüşlərdə könüllülər region gənclərinə seçki hüquqları, prosedurlar və səsvermə qaydaları barədə məlumat verərək, onların fəal və məlumatlı seçici kimi prosesə qoşulmasına şərait yaratdılar.

Azərbaycan könüllüləri yalnız sülh dövründə deyil, çətin və həlledici anlarda da cəmiyyətin önündə gediblər. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı minlərlə könüllünün dövlətin çağırışına cavab verərək müxtəlif sahələrdə dəstək göstərməsi onların vətənpərvərlik nümunəsi idi. Müharibədən sonra azad olunmuş ərazilərdə aparılan yenidənqurma işlərinə qoşulan "Qayıdış Könüllüləri" isə hazırda Böyük qayıdış proqramının icrasının aktiv iştirakçılarıdır. Bu gənclər həm bərpa işlərinə kömək edir, həm də doğma torpaqlarına qayıdan insanların həyatına sosial dəstək göstərirlər.

Könüllülüyün cəmiyyətdə yaratdığı dəyər yalnız görülən işlərlə ölçülmür. Könüllülər həm də yeni düşüncə tərzinin, sosial məsuliyyət anlayışının, vətəndaş fəallığının daşıyıcılarıdır. Onlar cəmiyyətdə nümunə yaradır, başqalarını da sosial proseslərə qoşulmağa həvəsləndirirlər. Bu isə ölkənin ümumi inkişafı və milli həmrəyliyin möhkəmləndirilməsi baxımından əvəzolunmaz rol oynayır.

Bu gün könüllülük Azərbaycanda artıq bir mədəniyyətə çevrilib. Gənclər yalnız yerli layihələrdə deyil, beynəlxalq proqramlarda da Azərbaycanı layiqincə təmsil edirlər. Könüllülük fəaliyyəti sayəsində gənclər həm dünyagörüşlərini genişləndirir, həm də ölkəmizin adını qürurla xaricdə tanıdırlar.

Könüllülük hərəkatı Azərbaycanın sosial, iqtisadi və ictimai həyatında mühüm mövqeyə malikdir. Gənclərimizin könüllülük ruhu ölkəmizin sabahı üçün etibarlı dayaqdır. Onların gördüyü işlər bir tərəfdən, dövlətin inkişafına xidmət edir, digər tərəfdən, gənclərin özlərini təsdiqləməsi üçün geniş imkanlar açır. Azərbaycanın gələcəyi məhz bu fədakar, təşəbbüskar və enerjili gənclərin üzərində qurulur. Bu səbəbdən könüllülük hərəkatının inkişafı yalnız bu günün deyil, həm də gələcəyin prioriteti olaraq qalır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# "ASAN xidmət"də Beynəlxalq Könüllülər Günü qeyd olunub

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "ASAN Könüllüləri" ilə görüşüb.



Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş 5 Dekabr - Beynəlxalq Könüllülər Günü ərəfəsində təşkil olunub.

Ü.Mehdiyev iştirakçıları əlamətdar gün münasibətilə təbrik edib, onlara fəaliyyətlərinə görə təşəkkür edib.

Tədbir çərçivəsində "ASAN Könüllüləri"nin 2025-ci il ərzindəki fəaliyyətini əks etdirən videoçarx da nümayiş olunub. Ardınca il ərzində xüsusi fəallıq göstərən bir sıra könüllülər "İlin ASAN Könüllüsü" nominasiyası üzrə, habelə könüllülər üzrə məsul şəxslər könüllülük fəaliyyətinin təbliğində aktiv iştiraklarına, fəal təşkilatçılıq fəaliyyətlərinə və təşəbbüskarlıqlarına görə mükafatlandırılıblar.

"ASAN xidmət"in fəaliyyətə başladığı dövrdən etibarən 44000-ə yaxın gənc bu prosesə könüllü kimi qoşulub. Bu müddət ərzində könüllülər tərəfindən 6500-dən çox təlim, 850-dən çox yerli və beynəlxalq layihə icra olunub, 3400-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin edilib.

# Şəhadətini yuxuda anasına agah edən qəhrəman döyüşçü




"Noyabrın 4-ü gecə idi. Yenicə yuxuya getmişdim ki, Elmazı gördüm. Mənə dayanmadan üşüdüyünü deyirdi. Dünyasını dəyişmiş atası ilə nənəsi də yuxuma gəlmişdi. Qəfil yuxudan oyandım. Çox narahat olmuşdum. Həyəcanımı aparmaq üçün su içdim. Yenidən yatmağa çalışsam da, səhərə kimi gördüyüm yuxunun təsirindən gözlərimi yuma bilmədim. Dan üzü ağarana yaxın birtəhər mürgülədim. Bu dəfə gördüyüm yuxu daha dəhşətli idi. Elmaz əlində çanta ilə dağdan aşağı enirdi. Bir ağacın yanına yaxınlaşaraq əyləşir. Buranın hara olduğunu soruşanda dedi ki, ana, bura Laçındır, mən də burada şəhid olmuşam. Elmazın boynu qaralmışdı. Sən demə, yuxum həqiqət imiş. Elmaz noyabrın 4-də Laçın istiqamətində gedən qızğın döyüşlər vaxtı boynundan vurularaq şəhid olmuşdu. Onun nəşi 28 gün sonra elə yuxuda gördüyüm yerdən tapıldı..."

Bunu AZƏRTAC-ın müxbiri ilə söhbətində Vətən müharibəsi şəhidi Elmaz Hacıyevin anası Ziyafət Hacıyeva deyib.

Z.Hacıyeva fikirlərinə belə davam edib: "Elmaz Vətən müharibəsinə könüllü yollananlar sırasında idi. Evdən çıxarkən ailəsini, övladları Elmar və Yağmuru mənə əmanət edib getdi. Füzulidən başlayaraq, Laçına kimi döyüşdü. Sonuncu dəfə noyabrın 3-də evə zəng vurmuşdu. Elmarın doğum gününü təbrik etdi. Ondan sonra Elmazdan xəbər ala bilmədik. Elmaz noyabrın 3-dən 4-nə keçən gecə Laçın istiqamətində aparılan hərbi əməliyyatların birində şəhadətə yüksəlib. Biz onun şəhid olduğundan noyabrın 10-da xəbər tutduq. Bir aya yaxın onu axtardıq. Oğlumun nəşi o zaman neytral hesab olunan ərazidə qalmışdı. Dekabrın 1-də elə yuxuda gördüyüm yerdən də tapıldı... Dekabrın 2-də isə onu torpağa tapşırdıq".

Qardaşı Eldənizin sözlərinə görə, döyüş yoldaşları arasında "Qəhrəman" ləqəbi ilə tanınan Elmaz savaş meydanında neçə-neçə yaralı dostunu çiynində daşıyaraq xilas edib. Lakin özü namərd gülləsinə tuş gələrək ən ali zirvəni fəth edib.

"44 günlük Vətən müharibəsi zamanı bir döyüş tapşırığının icrası məqsədilə komandir tabeliyində olan əsgər və zabitlərə üzünü tutaraq, kimin onunla gedə biləcəyini soruşub. Elmaz irəli çıxaraq komandiri ilə sonacan gedə biləcəyini bildirib", - deyə Eldəniz qeyd edib.

Sevdiyi qadını oğluna əmanət edən qəhrəmanımız sonuncu dəfə ailəsi ilə noyabrın 3-də telefonla danışarkən həyat yoldaşı Pünhan Hacıyevaya qayıdacağına söz verib. Əgər qayıtmasam, şəhid olduğum gün namaz qılarsan deyib.

Pünhanın sözlərinə görə, şəhid olacağı sanki Elmazın ürəyinə damıbmış. Hətta onun ağzından "şəhid olub gələcəyəm" kəlməsi də çıxıb. O, şəhid həyat yoldaşının döyüşə yollandığı günü belə xatırlayıb: "Bir gün əvvəl ona gedəcəyi ilə bağlı zəng gəlmişdi. Tezdən oyanıb hazırlaşanda mən yenə ağladım. Elmarı öpərək anan sənə əmanətdir dedi. Bu vaxt gözlərindən süzülən yaş oğlumuzun üzərinə düşdü. Ondan bunun səbəbini soruşanda dedi ki, mənim yoxluğumda o, məni əvəz edəcək. O zaman Elmarın nə demək istədiyini ya anlamamışdım, ya da qəbul etməməyə çalışmışdım. Çünki onun yoxluğunu düşünmək belə, mənim üçün əsl faciə idi. Artıq beş ildir ki, bu nisgillə yaşayıram...

Yadımdadır, bir dəfə Laçından zəng eləmişdi. Dedi ki, Pünhan anangildəyəm. Laçında olduğuna sevinirdi. Güləgülə "Görürsən, laçınlı qızla evləndim, gəlib Laçına da çıxdım" deməsi, müharibənin dəhşətini sezdirməməyə çalışması, addım-addım əldə edilən Qələbənin sevincini bölüşməsi bir ömür boyu təbəssümlə xatırlanacaq davranışlardır. Elmaz bizim üçün həmişə var. Fiziki cəhətdən ayrı düşsək də, ruhən bizimlə olduğunu hiss edirik".

Vətən müharibəsi şəhidi Elmaz Hacıyev "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", Vətən müharibəsi iştirakçısı" medalları, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

# Budapeşt şəhərində Qərbi Azərbaycan reallıqlarına həsr olunmuş beynəlxalq seminar keçirilib



Dünya Azərbaycanlıları Gənclər Təşkilatı Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin dəstəyi, Qərbi Azərbaycan İcmasının tərəfdaşlığı və "AYİD - Gənclərin İnkişafına və İnteqrasiyası Assosiasiyası"nın evsahibliyi ilə Budapeştdə "Youth Perspectives on the Realities of Western Azerbaijan" mövzusunda beynəlxalq seminar keçirib.

AZƏRTAC xəbər verir ki, seminarın keçirilməsində əsas məqsəd qayıdış hüququnun beynəlxalq hüquq çərçivəsində müzakirəsi, avropalı gənclərin diqqətinin Qərbi Azərbaycan həqiqətlərinə yönəldilməsi və yeni əməkdaşlıq imkanlarının təşviqi olub. Tədbir Avropada yaşayan əcnəbi gənclərin fəal iştirakı ilə baş tutub.

Seminarın moderatoru AYİD-in sədri Fərqanə Bayramlı olub. O, gənclərin Qərbi Azərbaycan həqiqətləri barədə məlumatlılığının artırılmasının, onların beynəlxalq müzakirələrə cəlb edilməsinin və tarixi ədalətin bərpasına yönəlmiş təşəbbüslərdə iştirakının vacibliyini vurğulayıb.

Köln, Varşava və Budapeştdə keçirilən tədbirlər göstərib ki, avropalı gənclər, həmçinin xaricdə təhsil alan azərbaycanlı gənclər mövzuya böyük maraq göstərir və bu prosesdə fəal şəkildə iştirak etməyə hazırdırlar.

Dünya Azərbaycanlıları Gənclər Təşkilatı gələcəkdə də Qərbi Azərbaycan mövzusunda maarifləndirici layihələr həyata keçirməyi planlaşdırır.

# Azərbaycan Cənubi Qafqaz ölkələri arasında ticarət dövriyyəsində liderdir



Cənubi Qafqazın ticarət dövriyyəsi 8,8 faiz azalıb. Bu ticarətdə Azərbaycanın payı isə artaraq 51,4 faiz təşkil edir.

AZƏRTAC xəbər verir ki, 2025-ci ilin yanvar-oktyabr aylarında Cənubi Qafqaz regionunun ticarət dövriyyəsi 76,467 milyard dollar təşkil edib.

"Gnomon Wise" tədqiqat təşkilatının məlumatına görə, 2024-cü ilin eyni dövründə bu göstərici 83,887 milyard dollar olub ki, bu da illik müqayisədə 8,8 faiz azalma deməkdir.

Bildirilir ki, Cənubi Qafqaz ölkələri - Azərbaycan, Ermənistan və Gürcüstan kiçik və açıq iqtisadiyyatlara malikdir və qlobal bazarlarla inteqrasiya olunublar. 2025-ci ilin yanvar-oktyabr aylarında regionun ticarət dövriyyəsində idxalın payı 43,467 milyard dollar, ixracın ümumi dəyəri isə təxminən 33 milyard dollar təşkil edib.

Cənubi Qafqaz ölkələri arasında ticarət dövriyyəsində Azərbaycan lider mövqeyə malikdir və onun payı 51,4 faiz təşkil edir. Gürcüstanın payı 26,9 faiz, Ermənistanın payı isə 21,7 faiz səviyyəsindədir.

"Gnomon Wise"ın məlumatına görə, regionda xarici ticarət ölkələrin iqtisadi artımına mühüm töhfə verir və ticarət əlaqələrinin gücləndirilməsi regionun iqtisadi sabitliyi üçün əhəmiyyətlidir.





# Mədəniyyət






● Fətəli xan Xoyski - 150

**XX yüzillik Azərbaycan tarixinə yeni siyasi baxışlar əsri kimi daxil olmuşdur. Qabaqcıl ziyalılarımız böyük ictimai-siyasi hadisələrlə zəngin olan bu dövrün təlatümlü, ağrılı ilk onilliklərində xalqın azadlıq mücadiləsində, milli istiqlal hərəkatında müstəsna rol oynamışlar. Rusiyanın və Qərbin inqilabi hərəkatlarla yaşadığı bir vaxtda Azərbaycan müsəlman ölkəsi kimi daha ciddi maneələrlə rastlaşmışdı. Belə bir vaxtda bütövlüyümüzü və milli mənafeyimizi qorumaq ən zəruri məsələlərdən biri idi. Məhz azad düşüncə sahibləri olan milli ruhlu ziyalılarımız ayıq təfəkkürləri və mütərəqqi fikirləri ilə yeni siyasi-ideoloji mühitin əsasını qoymuş, milli hərəkatı xalqımızın istiqlalına qədər yüksəldə bilmişlər.**



# Dövlətçilik tariximizdə şərəfli yer tutan siyasi xadim

Belə tarixi şəxsiyyətlərdən biri də Şərqdə ilk Demokratik Respublikanın yaradıcılarından öncülü Fətəli xan Xoyski olmuşdur. O, Azərbaycanda milli istiqlal hərəkatının və Xalq Cümhuriyyətinin təməl daşını qoymuş, zəngin və keşməkeşli mübarizələrlə dolu ömür yaşamışdır.

Bu il Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, cümhuriyyətin banilərindən biri və ilk baş naziri Fətəli xan İsgəndər xan oğlu Xoyskinin 150 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Sərəncamda istiqlal mücahidinin fəaliyyətinə yüksək qiymət verilmiş, dövlətçilik tariximizdə şərəfli yeri və xidmətləri xüsusi vurğulanmışdır: "Fətəli xan Xoyski XX əsrin əvvəllərindən milli-mədəni intibahını yaşayan Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatda üzərinə götürdüyü çətin vəzifəni şərəflə yerinə yetirmiş fədakar ziyalılar nəslinin parlaq nümayəndəsidir. Geniş dünyagörüşlü, cəsarətli, vətənpərvər şəxsiyyət və böyük siyasi xadim kimi o, daim Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində mövqe tutmuş, tarixi İstiqlal Bəyannaməsini imzalayanlardan biri olmuşdur.

Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumət kabinetləri Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarını atdığı vaxtdan etibarən demokratik dövlət idarəçiliyinin təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və hərbi quruculuq sahələrində mühüm nailiyyətlər qazanmış, Azərbaycanın müstəqilliyinin xarici dövlətlər tərəfindən tanınması və diplomatik münasibətlərinin yaradılması işinə layiqli töhfələr vermişdir".

## Əsilli-nəcabətli ailənin övladı

Fətəli xan Xoyski 1875-ci ilin dekabrında Şəki şəhərində anadan olmuşdur. Atası İsgəndər xan Xoyski rus ordusunun general-leytenantı idi. Əsilli-nəcabətli ailəyə mənsub olan Fətəli xanın babası İsmayıl xan Xoyski və ulu babası Cəfərqulu xan X1X əsrin əvvəllərində qədim və zəngin mədəniyyət ənənələri ilə məşhur olan Şəki xanlığının hakimi olmuşlar. Cəfərqulu xan 1814-cü ildə vəfat etdikdən sonra Şəki xanlığını onun oğlu İsmayıl xan idarə etmişdir. 1819-cu ildə İsmayıl xanın vəfatı ilə Şəki xanlığı ləğv olunmuş və Rusiyanın tərkibinə qatılmışdır. Bu nəsildən görkəmli sərkərdələr, dövlət xadimləri və ziyalılar çıxmışdır. O cümlədən Fətəli xan Xoyski də dövrünün qaynar və zəngin ictimai-siyasi hadisələrində öz dəst-xətilə, vətəninə və xalqına sədaqəti ilə seçilən, dövlətçilik tariximizdə mühüm yeri olan şəxsiyyətlərdəndir.

Fətəli xan ibtidai təhsilini Şəki şəhərində aldıqdan sonra ailəsinin Gəncəyə köçməsilə əlaqədar şəhərdə klassik gimnaziyanı, 1901-ci ildə isə Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Tələbəlik illərində universitetin gənclər hərəkatına qoşulmuş, Rusiyada nəinki insanlar, həm də xalqlar arasında yürüdülən ayrı-seçkilik siyasətinin şahidi olmuş və buna qarşı etirazlarını bildirmişdir. Geniş dünyagörüşlü siyasətçi kimi formalaşan bu gənc ziyalı əvvəlcə Gəncədə, sonra isə Gürcüstanın Suxumi, Batumi və Kutaisi dairə məhkəmələrində müxtəlif vəzifələrdə işləmişdir. 1905-ci ilin avqustunda Nijni Novqorod şəhərində keçirilən Rusiya müsəlmanlarının I qurultayında yaradılan "İttifaqi müslimin" təşkilatının işində fəal iştirak etmiş, hüquq və iqtisadiyyat komissiyalarının tərkibində gərgin fəaliyyət göstərmişdir. 1907-ci ildə Yekaterinodar dairə məhkəməsində prokuror müavini təyin edilmişdir. Bu, F.Xoyskinin ictimai fəaliyyətində yeni mərhələ olmuşdur. O, Yelizavetpol (Gəncə) quberniyasından İkinci Dövlət Dumasına nümayəndə seçilmiş və Dumanın müsəlman fraksiyasına daxil olmuşdur.

## Dövlət Dumasının deputatı

Fevralın 2-də Peterburqun məşhur Tavriya sarayında toplanan Rusiya parlamentinin iclaslarında çıxış edən Fətəli xan çar hökumətinin Zaqafqaziyada və Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini kəskinliklə tənqid etmişdir. Bu zaman Azərbaycandan Xoyski ilə yanaşı, Xəlil bəy Xasməmmədov, İsmayıl Tağıyev, Məhəmməd ağa Şahtaxtinski, Zeynal Zeynalov, Mustafa Mahmudov və başqaları millət vəkili missiyasını daşıyırdılar. F.Xoyski dumanın müsəlman deputatları fraksiyasına daxil idi. O, Rusiyanın müstəmləkə xalqlarına məhəlli muxtariyyət verilməsini hökumətdən tələb edirdi. Göstərirdi ki, yerli xalqların hüquqlarının pozulmasına və torpaqların imkanlı adamların əllərinə keçməsinə yol vermək olmaz. Çarizmin köçürmə siyasəti torpaq məsələsi ədalətlə həllini tapana qədər dayandırılmalıdır.

Fətəli xan deputat səlahiyyətlərindən istifadə edərək X.Xasməmmədov və M.Mahmudovla birlikdə Rusiyanın müdafiə nazirinə sorğu göndərmiş, hərbi səhra məhkəməsinin ölüm hökmü çıxardığı qafqazlı hərbçilərin əfv olunmasını xahiş etmişdir. Bundan başqa, o, 173 deputatın imzası ilə milli və dini fərqlərə görə, vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran qanunların ləğv olunması haqqında Dövlət Dumasına layihə təqdim etmişdir. Lakin 1907-ci il iyunun 3-də çarın manifesti ilə ikinci Dövlət Duması öz işinə xitam verdiyi üçün F.Xoyskinin və onun həmkarlarının qaldırdıqları məsələlər öz həllini tapmamışdı.

Fətəli xan sonralar Bakı və Gəncə dairə məhkəmələrində iş kəsmək üçün andçı-müvəkkil, hüquq məsləhətçisi vəzifələrini icra etməklə yanaşı, siyasi xadim kimi də fəaliyyətini dayandırmamış, xalq arasında böyük nüfuz qazanmışdır. O, 1917-ci ilin martında Bakıda yaradılmış Milli Müsəlman Şurası müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdir. Həmin ilin aprelində isə Bakıda çağırılmış Ümumqafqaz Müsəlmanları Qurultayında iştirak etmişdir.

F.Xoyski burjua inqilabından sonra heç bir partiyaya mənsub olmasa da, 1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda keçirilən "Türk ədəmi-mərkəziyyət partiyası"- "Müsavat"ın I qurultayının iştirakçısı olmuş, müxtəlif məsələlərlə bağlı çıxışlar etmiş və həmin qurultayda irəli sürülən "Azərbaycana muxtariyyət" şüarını kəskinliklə müdafiə etmişdir.

Tədqiqatçıların araşdırmalarında göstərilir ki, Fətəli xanın bioqrafiyasında parlaq səhifələrdən biri onun Bakı Şəhər Dumasının sədri seçilməsidir. Onun 10 mindən çox səs almış müsəlman blokunu təmsil edən şəxs kimi Dumanın sədri seçilməsi o dövr üçün çox böyük göstərici idi. F.Xoyskinin rəhbərlik etdiyi dövrdə Bakı Şəhər Duması hakimiyyəti kütləvi, amansız qırğınlar yolu ilə ələ keçirməyə nail olan Bakı Sovetinin yeganə rəqibi olmuşdur.

Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyan 1918-ci ilin mayında Leninə göndərdiyi teleqramda "Xoyskilərə qarşı" əldə silah mübarizə aparacaqlarını yazırdı. Fətəli xanın qətiyyətli, çevik, konkret fəaliyyəti isə o zaman hamını heyran qoyurdu.

Az sonra Tiflisdə Zaqafqaziya qanunvericilik orqanı olan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatlardan ibarət Zaqafqaziya seymi fəaliyyətə başlamışdır. Seymin müsəlman fraksiyasına F.Xoyski də daxil olmuşdur. O, Zaqafqaziya seyminin üzvü və müstəqil Zaqafqaziya Federativ Respublikasının maarif naziri vəzifəsini icra etmişdir. Lakin Zaqafqaziya Federasiyası da nə xarici, nə də daxili siyasətdə elə bir mühüm dəyişikliyə nail ola bilməmişdi.

## Cümhuriyyətin baş naziri

1918-ci il mayın 27-də F.Xoyskinin də daxil olduğu seymin azərbaycanlı deputatları Azərbaycan Milli Şurasını yaratmışlar. Mayın 28-də isə Milli Şura Azərbaycanın istiqlaliyyəti haqqında bəyannaməni elan etmişdir və təkcə türkdilli xalqlar arasında deyil, bütün müsəlman dünyasında birinci dəfə olaraq respublika üsul-idarəsinə qədəm qoyan xalqımızın ilk müstəqil hökumətini təşkil etmək bitərəf F.Xoyskiyə tapşırılmışdı. Bir saatlıq fasilədən sonra Fətəli xan hökumətin təşkili haqqında məruzə ilə çıxış etmişdir. Bir faktı da qeyd edək ki, Azərbaycanın müstəqil respublika elan olunması haqqında dünyanın əsas siyasi mərkəzlərinə 30 may 1918-ci ildə radioqram göndərmək şərəfi də hökumət başçısı F.Xoyskiyə nəsib olmuşdur. Hökumətin təşkili ilə bağlı Üzeyir bəy Hacıbəyli yazırdı: "Yeni vücuda gəlmiş Azərbaycan hökumətinin birinci rəisi-vüzərası olmaqla Azərbaycan tarixində mühüm mövqe tutmuş Fətəli xan həzrətləri bu yeni dövlətin vəziyyətini taxta paralarından əmələ gəlmiş bir gəmiyə bənzədir ki, bu kimi fırtınalı bir gündə dərya üzərində hər saat, hər an dağa-daşa çırpılıb dağıla bilmək təhlükəsi qarşısında qalmış, bütün ümidini gəmiçinin istedad və məharətinə bağlamışdır... Bu zəif gəmini bu fırtınalı gündə bu dağın, bu daşın arasından salamat keçirmək və sahili-nicata çıxarmaq kimi çətinliyi Fətəli xan həzrətləri öz boynuna götürməyi qəbul etdi və gəmisini kamali-ehtiyat və ehtimal ilə sahili-nicata çıxarmaqda, fırtına sakit olana qədər dağa və daşa vurmayıb bunların arasından keçirməkdə böyük ustalıq və məharət göstərdi". Fətəli xan hökumətdə həm Nazirlər Şurasının sədri, həm də daxili işlər naziri vəzifəsini tutmuşdur.

Ölkədə yaranmış vəziyyətlə bağlı 1918-ci il iyunun 16-da Milli Şura və hökumət Gəncəyə köçmüşdü. İyunun 17-də Azərbaycan Milli Şurasının göstərişinə əsasən, Fətəli xan Xoyskinin rəhbəliyi ilə müxtəlif partiyaların nümayəndələrinin təmsil olunduğu ikinci hökumət kabineti təşkil edilmişdi. Həm də Milli Şuranın buraxılması və bütün qanunverici hakimiyyətin müvəqqəti hökumətin əlində cəmləşməsi haqqında qərar verilmişdir. O zaman hökumət proqramı ilə çıxış edən Xoyski bildirmişdir ki, onun başlıca vəzifəsi Azərbaycanın azadlıq və istiqlalı uğrunda mübarizə aparmaqdır.

Bu aylarda Müvəqqəti hökumət Bakı uğrunda mübarizə aparmaqla yanaşı, dövlət aparatını qurmaqla məşğul idi. Ən böyük problem milli kadrların çatışmaması ilə bağlı idi. Çarizmin siyasətinin Azərbaycana vurduğu ən böyük zərbələrdən biri dövlət aparatına yerli əhalinin buraxılmaması idi. Yeni yaranmış dövlət orqanları məmurlarının xeyli hissəsini qeyri-millətlərin nümayəndələri təşkil edirdi. Odur ki, Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli fərmanında deyilirdi: "Dövləti lisan türk (Azərbaycan) dili qəbul edilərək, irəlidə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istimalına müsaidə edilsin". Bununla da həmin gün Azərbaycan dili dövlət dili elan edilmişdir. Avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qərar qəbul olunmuşdur.

Müvəqqəti hökumətin diqqətini cəlb edən işlərdən biri də avqust ayında yaradılmış Fövqəladə Təhqiqat Komissiyası idi. Bu komissiyanın funksiyasına yerli əhaliyə qarşı vəhşiliklərin, o cümlədən mart qırğınlarının dəqiq öyrənilməsi, günahkarların müəyyən edilməsi və onların məhkəməyə verilməsi daxil idi. Bir sözlə, paytaxt Bakıya köçürülənə qədər F.Xoyski hökuməti ölkənin iqtisadi və siyasi həyatı ilə bağlı bir sıra mühüm tədbirlər həyata keçirmişdi.

## "Bizim də həyatda azad yaşamağa hüququmuz vardır"

1918-ci il sentyabrın 15-də Bakı oyuncaq Sentrokaspi qüvvələrindən təmizləndikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti paytaxta köçmüşdür. Bu münasibətlə Fətəli xan çıxış edərək demişdir: "Bizim də həyatda yaşamağa, azad yaşamağa hüququmuz vardır. Heç bir zirehli maşın, məftilli çəpər, mina və s. texniki qurğu, heç bir ingilis, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər". 1918-ci il noyabrın 9-da hökumət baçısının məruzəsi üzrə Azərbaycan özünün üçrəngli bayrağını təsdiq etmişdir, milli valyutamız dövriyyəyə buraxılmışdır.

Azərbaycan dövlətçiliyinin tarixində ən böyük hadisələrdən biri də 1918-ci il dekabrın 7-də Məclisi-məbusanın (parlamentin) açılışı olmuşdur. M.Ə.Rəsulzadədən sonra parlamentdə çıxış edən F.Xoyski sevinc içərisində millət vəkillərinə müraciətlə demişdir: "Möhtərəm Azərbaycan parlaman əzası! Bu gün öylə böyük, əziz və mübarək gündür ki, bunu biz, azərbaycanlılar yuxuda da görməzdik. Bu gün o günümüzdür ki, milli müqəddəratımızı öz əlimizə almışıq. Hökumət məni vəkil etmişdir. Bu bayram münasibətilə sizi təbrik edirəm. Hökumət sizin hüzurunuzda məsul olduğundan borcudur öz fəaliyyəti və nə kimi şərait altında işlədiyi haqqında sizə məlumat versin". Görülən işlər barədə danışan Fətəli xan ayrı-ayrı firqələr arasındakı ziddiyyətləri xatırladaraq demişdir ki, iki qardaş arasında da mübahisə olur. Fəqət, mübahisəli məsələlərimiz dostanə surətdə həll edilməlidir.

Parlament Müvəqqəti hökumətin istefasını qəbul etdikdən sonra yeni Nazirlər Kabinetinin tərkibini müəyyən etməyi və hökumətə başçılığı yenidən Fətəli xan Xoyskiyə tapşırmışdı. Fətəli xan səhhətinin pisləşməsi ilə əlaqədar milli hökumətə başçılıq etmək iqtidarında olmadığını bildirməsinə baxmayaraq, bu məsul vəzifə təkidlə ona həvalə edilmişdir. 1918-ci il dekabrın 26-da təşkil edilən üçüncü hökumət kabinetində o, Nazirlər Kabinetinin sədri və xarici işlər naziri vəzifəsini tutmuşdur.

F.Xoyskinin dövründə Azərbaycanda dövlətçiliyin əsası qoyulmuşdur. Yelizavetpol şəhəri və quberniyası yenidən Gəncə və Gəncə quberniyası adlandırılmış, Qaryagin qəzası Cəbrayıl qəzası adı ilə əvəz edilmiş, çoxpartiyalı parlament sisitemi yaradılmış, Azərbaycan Respublikasının pul və poçt markaları buraxılmış, ana dilində məktəb və seminariyalar açılmış və digər mütərəqqi islahatlar həyata keçirilmişdir. Professor V.İ.Razumovskinin 1922-ci ildə çap etdirdiyi "Bakı şəhərində universitetin əsasının qoyulması" sərlövhəli məqalədən məlum olur ki, Bakı Dövlət Universitetinin yaranması təşəbbüsü Fətəli xan Xoyskiyə məxsus olmuşdur. Həmin illərdə sinfi ziddiyyətlərin qalmasına baxmayaraq, bütün görülən işlər bu dövr üçün əhəmiyyətli və müsbət xarakter daşımışdır.

Nizami Azərbaycan ordusunun yaradılmasını F.Xoyski milli müstəqilliyə doğru atılmış ən böyük addım kimi qiymətləndirmiş, dövlətçiliyin etibarlı təməl daşı hesab etmişdir. Zaqafqaziyanın maarif naziri işləyərkən o, Azərbaycanda ibtidai və ali məktəblərin açılmasına cəhd göstərmişdir. Tiflis şəhərində Zaqafqaziya darülfününün təsis məsələsi qaldırılmışdır. O zaman maarif naziri işləyən Fətəli xan bu məsələ barəsində demişdir: "… nə üçün Tiflisdə? Axı burada həm ali texniki məktəb, həm də Gürcüstan Universiteti var. Yaxşı olmazmı, bu darülfünun hər bir şəraiti olan Bakıda təsis edilsin…" Bundan başqa, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributlarının təsisi məsələsində F.Xoyski və onun başçılıq etdiyi kabinet xüsusi rol oynamışdır. Fətəli xanın vaxtilə Dövlət Dumasında qaldırdığı torpaq məsələsi onun rəhbərlik etdiyi kabinet tərəfindən həyata keçirilmişdir. Torpaqların kəndlilərə paylanması üçün komissiyalar yaradılmışdır. Bütün bunlar vətən və millət mənafeyini müqəddəs amala çevirən ziyalının saf əqidəsindən, məsləkindən irəli gəlirdi.

1919-cu ilin martın əvvəllərində F.Xoyskinin başçılıq etdiyi hökumət kabineti istefaya çıxmışdı.

Fətəli xan Xoyski Nəsib bəy Yusifbəylinin 1919-cu il dekabrın 23-də təşkil etdiyi ikinci hökumət kabinetində xarici işlər naziri vəzifəsini icra etmişdir.

## Azadlıq və istiqlal mübarizəsinin önündə

1920-ci il yanvarın 2-də RSFSR-in xarici işlər üzrə xalq komissarı G.V.Çiçerin ağ qvardiyaçı general Denikinə qarşı vahid cəbhə yaratmaq üçün Xoyskiyə nota ilə müraciət etmişdir. Həmin ayın 19-da Fətəli xanın verdiyi cavabda göstərilirdi ki, Azərbaycan Respublikası sovet Rusiyasının daxili işlərinə qarışmır və bu məsələdə bitərəfdir. Çiçerin 23 yanvar tarixli ikinci notasında yenə də həmin məsələyə qayıdır. F.Xoyski fevralın 1-də Çiçerinə öz hökumətinin rəsmi fikrini bildirir, onun təklifini rədd edir.

1920-ci il fevralın 20-də Çiçerinin üçüncü notası və martın 7-də Xoyskinin cavabı eyni məsələyə həsr olunmuşdur. Martın axırında Çiçerin sonuncu notanı göndərir, aprelin 27-də F.Xoyski Azərbaycan parlamentində cavab notasını oxuyarkən XI ordunun Bakıya yaxınlaşdığı xəbəri alınır.

Bu hadisədən sonra Fətəli xan öz ailəsi ilə birlikdə Tiflisə gedir. 1920-ci il iyunun 19-da F.Xoyski məsləkdaşı Xəlil bəy Xasməmmədovla Tiflisin İrəvan meydanından keçərkən muzdlu erməni qatilləri tərəfindən güllə atəşinə tutulur. X.Xasməmmədov yaralanır, Fətəli xan isə həlak olur. Görkəmli ictimai-siyasi xadim F.Xoyskinin məzarı Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadənin qəbri yanındadır.

Fətəli xan Xoyski ömrünün sonuna qədər vətəninə və torpağına sədaqətlə xidmət etmişdir. Dövlətçilik tariximizdə şərəfli yeri və peşəkar siyasətçi dəst-xətilə seçilmişdir. Görkəmli istiqlal mücahidinin xidmətləri tariximizin yaddaşına əbədi həkk olunmuşdur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Bəxtiyar Vahabzadə haqqında elmi araşdırmalar toplusu çap olunub

**XX yüzil Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Bəxtiyar Vahabzadə haqqında elmi araşdırmalar toplusu çap olunub. "Bəxtiyar Vahabzadə zirvəsi" adlanan kitabı çapa Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Vaqif Sultanlı hazırlayıb.**




Kitaba "Həyatın rəngləri, zamanın təzadları, sözün ağrıları" adlı "Ön söz" yazan Vaqif Sultanlı şairin yaradıcılığı ilə bağlı düşüncələrini belə ifadə edir: "Bəxtiyar Vahabzadə sənətə yaşadığı dönəmin şərtləri ilə uyuşmayan cəsarət örnəyi gətirib. Özəlliklə, xalqın tarixinə, taleyinə münasibətdə şairin sərgilədiyi barışmaz vətəndaşlıq mövqeyi olduqca önəmlidir. Təkcə yazıları ilə deyil, ictimai mövqeyi ilə də cəmiyyətə cəsarət ruhu verdiyi üçündür ki, ən çətin dönəmlərdə siyasi şəxsiyyətlərə deyil, bir sənətkar kimi ona güvənilməsi buradan qaynaqlanır.

Bəxtiyar Vahabzadənin iki fərqli siyasi sistemdə yaşayıb yaratması, həyatının böyük bir dövrünün imperiya illərinə, daha az dönəminin ölkənin bağımsızlığa qovuşduğu çağlara təsadüf etməsi yaradıcılığının məzmununa təsirsiz ötüşməyib. Lakin imperiya illərinin sərt senzura yasaqlarına baxmayaraq, o, milli mövqeyini tərk etməmiş, ideologiyanın əsirinə, rejimin quluna çevrilməmiş, sovet cəlladlarının qanlı repressiyalarından qorxmadan ölümün gözünə dik baxan bir çox sələfləri kimi yazıları ilə ən sərt dönəmlərdə belə həqiqəti söyləməyin mümkünlüyü örnəyini göstərib".

Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyi münasibətilə hazırlanmış kitaba görkəmli elm adamlarının, ədəbiyyatşünasların məqalələri daxil edilib.

# Görkəmli bəstəkar Tofiq Bakıxanovun 95 illik yubileyinə həsr olunmuş konsert proqramı təşkil edilib

**Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq artisti, "Şöhrət" və "Şərəf" ordenlərinin laureatı, görkəmli bəstəkar Tofiq Bakıxanovun 95 illik yubileyinə həsr olunmuş konsert proqramı təşkil olunub.**



Filarmoniyadan bildirilib ki, əvvəlcə akademik Rafael Hüseynov, Naxçıvan Muxtar Respublikasının Bakıdakı nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov və sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Dövlət Universitetinin dosenti, musiqişünas Günay Məmmədova çıxış edərək bəstəkarın milli musiqi irsimizdəki yerindən söz açıblar.

Ağaverdi Paşayevin rəhbərliyi, eləcə də İlahə Hüseynova və Elman Əliyevin dirijorluğu ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri və solistlər - Səbinə Əlizadə, Gülnaz İsmayılova, Talıb İsgəndərli, Şahnaz Əliyeva, Fikrət Məmmədov, Cavid Hüseynli, Ruzə İbişova, Almaz Orucova, Nuriyyə Hüseynova, Fəxri Kazım-Nicat, Leyla Dadaşova və Gülüstan Əliyevanın iştirakı ilə dinləyicilərə olduqca zəngin proqram təqdim olunub.

Konsert Tofiq Bakıxanovun "Naxçıvan" simfoniettasının III hissəsi olan "Cəngi" ilə açılıb. Ardınca "Gözəlliklər nəğməkarı", "Arpaçay", "Səbr eylə", "Nurlu Naxçıvan", "Yadıma düşdü", "Min bir kəlam kimi" əsərlər səsləndirilib.

Konsertdə Tofiq Bakıxanovun zəngin yaradıcılığının müxtəlif çalarları da dinləyicilərə nümayiş etdirilib. Bəstəkarın 95 illik yubileyinə həsr edilmiş bu konsert proqramı onun irsinə dərin ehtiramın ifadəsi olaraq böyük coşqu ilə yekunlaşıb.

# Xalq rəssamı Sakit Məmmədov TURKKON-un fəxri üzvü seçilib

**Azərbaycan Respublikasının Xalq rəssamı, UNESCO Rəssamlar İttifaqının üzvü, Avropa Təbiət Elmləri Akademiyasının fəxri professoru Sakit Məmmədov ilə görüş keçirilib.**



Görüşdə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun elmi katibi, filologiya elmləri doktoru Aynel Məşədiyeva və Turan Dövlətləri Birləşmiş Konfederasiyasının (TURKKON) xarici təşkilatlanma üzrə sədr müavini Mesut Gülaçtının rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

Dilçilik İnstitutundan bildirilib ki, görüş zamanı incəsənət sahəsində əməkdaşlıq imkanları, TURKKON-un strateji istiqamətləri və planları ətrafında geniş fikir mübadiləsi aparılıb. Tərəflər incəsənətin birləşdirici gücü, ortaq layihələrin potensialı və müxtəlif mədəni platformalarda əməkdaşlığın yeni mərhələləri barədə fikirlərini bölüşüblər.

Görüşün ən önəmli məqamlarından biri isə Sakit Məmmədovun Turan Dövlətləri Birləşmiş Konfederasiyasının fəxri üzvü seçilməsi olub. Bu qərar rəssamın sənət aləminə verdiyi böyük töhfələrin, beynəlxalq səviyyədə türk dünyası incəsənətini uğurla təbliğ etməsinin yüksək qiymətləndirilməsi kimi qarşılanıb.

# Mirzə Qədim İrəvani "Xalq Əmanəti" layihəsinin 26-cı nəşrində






**Xalq Bankın həyata keçirdiyi "Xalq Əmanəti" layihəsinin 26-cı nəşri XIX əsrin görkəmli rəssamı, Azərbaycanın dəzgah boyakarlığının banisi Mirzə Qədim İrəvaniyə həsr olunub.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən, Mirzə Qədim İrəvaninin 200 illiyinin qeyd olunması ilə əlaqədar ölkəmizdə müxtəlif yubiley tədbirləri keçirilir. Bu sırada M.Q.İrəvaninin həyat və yaradıcılığından bəhs edən bədii albom Azərbaycan, ingilis və rus dillərində hazırlanaraq nəfis tərtibatda nəşr edilmişdir. Mirzə Qədim İrəvaninin əsərləri dünyanın məşhur muzeylərində və kolleksiyalarda sərgilənir. Onun yaradıcılığında Sərdar sarayını bəzəyən divar rəsmləri və rəngkarlıq əsərləri xüsusi yer tutur, günümüzə çatan əsərləri isə İrəvan diyarının və bütövlükdə Azərbaycanın mədəni irsinin mühüm tərkib hissəsini təşkil edir.

2025-ci il dekabrın 4-dən etibarən Xalq Bankın əsas binasında yerləşən rəsm qalereyasında M.Q.İrəvaninin əsərlərindən ibarət sərgini həftəiçi 5 gün saat 18:00-dan 21:00-dək, şənbə və bazar günləri isə saat 10:00-dan 16:00-dək İnşaatçılar prospekti, 22 L ünvanında seyr etmək mümkündür.

"Xalq Əmanəti" layihəsi ASC Xalq Bankı tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir. Layihə Azərbaycan xalqının mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərinin dünyaya tanıdılması məqsədini daşıyır. Layihə çərçivəsində nəşr olunan kitablar - Azərbaycan, ingilis, rus dillərində çap olunur. Nəşrlər ölkənin ali və orta təhsil müəssisələrinə, uşaq evləri və kitabxanalara, müxtəlif fondlar, dövlət müəssisələrinə, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına və sənətsevərlərə hədiyyə olunur. Bu günədək Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Tağı Tağıyev, Mikayıl Abdullayev, xalça rəssamı Lətif Kərimov, Əməkdar rəssam Cahid Camal, Ələkbər Rzaquliyev, Mahmud Tağıyev, eləcə də Əməkdar incəsənət xadimi Vəcihə Səmədova, Kamal Əhmədlə yanaşı, Şamo Abasov, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinov, şəhid-heykəltaraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilib və bədii albomlar nəşr olunub. Xalq şairləri Məmməd Araz, Hökumə Billuri, Hüseyn Arif, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, unudulmaz Mikayıl Müşfiqin və Güney Azərbaycan şairlərinin əsərlərindən ibarət antologiya, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üçcildliyi, həmçinin dünyaşöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" "Xalq Əmanəti" layihəsi çərçivəsində işıq üzü görüb.

***B.MİRZƏYEV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## BEYNƏLXALQ HƏYAT

# Keniya parlamenti britaniyalı hərbçiləri müxtəlif cinayətlərdə ittiham edir

Keniya parlamenti ölkədə təlim keçən Britaniya qoşunlarını cinsi zorakılıq, qətl, insan haqlarının pozulması və ətraf mühitin çirkləndirilməsində ittiham edir. Parlamentin hesabatında hərbi təlim bazalarının yaxınlığında yerləşən Laikipia və Samburu rayonlarının sakinlərinin ifadələri gətirilir.



Keniya parlamentinin Müdafiə, Kəşfiyyat və Beynəlxalq Əlaqələr Komitəsinin ikiillik araşdırmadan sonra dərc etdiyi 94 səhifəlik hesabata görə, Britaniya ordusu dəfələrlə etik normaları və insan haqları standartlarını pozub və ətraf mühit qaydalarına məhəl qoymayıb. Komissiya bu cür hərəkətlərdən zərər çəkmiş mülki şəxslərin, qurbanların, icma liderlərinin, vətəndaş cəmiyyəti təşkilatlarının və dövlət qurumlarının şifahi və yazılı ifadələrinə əsaslanıb.

Yerli sakinlər Britaniya ordusunun təlim bölməsinin (BATUK) əsgərlərinin iştirak etdiyi davalar və ölümcül yol qəzaları da daxil olmaqla, qətllər, hücumlar və xəsarətlərdən şikayətləniblər. Hesabatda iddia edilir ki, BATUK getdikcə inkişaf tərəfdaşı deyil, işğalçı qüvvə kimi qəbul edilir və zərər çəkən sakinlərə müstəmləkə dövrünün ədalətsizliklərini xatırladırlar. Sənəddə vurğulanır ki, paytaxt Nayrobidən təxminən 150 kilometr şimalda yerləşən Nanyuki şəhərində hərbi qulluqçular həmçinin yerli sakinlərin işgəncəyə məruz qalması, qanunsuz saxlanılması, təqib edilməsi və qovulmasında iştirak ediblər.

Hesabatda 1990-cı illərə aid hadisələr sənədləşdirilib. Ən çox diqqətçəkən hadisələrdən biri 2012-ci ildə Aqnes Vanjirunun qətli olub. Onun cəsədi təxminən üç ay sonra Nanyuki qarnizon şəhərindəki hotelin septik çənində tapılıb. Vanjirunun qətlində ittiham olunan keçmiş Britaniya əsgəri ötən ay Böyük Britaniyada verilən order əsasında həbs edilib və hazırda Keniyaya ekstradisiya ilə üzləşib. O, ittihamı rədd edir və vəkilləri onun ekstradisiyaya etiraz etmək niyyətində olduğunu bildiriblər. İyun ayında Keniyada Britaniya ordusunun təlim düşərgəsinin yaxınlığında bir qadına təcavüz etməkdə ittiham edilən ingilis əsgəri həbs olunub.

Hesabatda bildirilir ki, Britaniya ordusu diplomatik toxunulmazlığa istinad edərək və Keniya Xarici İşlər Nazirliyi vasitəsilə yalnız imzasız sənəd göndərərək komitə qarşısına çıxmaqdan israrla imtina edib. Bu davranış "parlamentin səlahiyyətlərinə və geniş şəkildə Keniya xalqının suverenliyinə institusional etinasızlıq" kimi xarakterizə olunub.

Böyük Britaniya Müdafiə Nazirliyi bundan təəssüfləndiyini və sorğunun qaldırdığı suallara cavab verən və qeyd olunan narahatlıqları aradan qaldırmaq üçün görülən tədbirləri açıqlayan bəyanat yaydığını bildirib. Nazirlik əlavə edib ki, "komitənin hesabatında yeni iddialar ortaya çıxdıqda, dəlillər mövcud olan kimi yurisdiksiyamız daxilində olanlarla bağlı tam araşdırma aparmağa hazırıq".

# Ekstremal hadisələr daha dağıdıcı olacaq

Cənubi və Cənub-Şərqi Asiyada baş verən son daşqınlar və torpaq sürüşmələri regionun gələcəkdə üzləşəcəyi iqlim risklərinin miqyasını göstərir. Portland Dövlət Universitetinin coğrafiya professoru Hijun Çan qeyd edib ki, ekstremal hava hadisələri daha az baş verə bilər, lakin onların təsirləri xeyli dərəcədə daha dağıdıcı olacaq.

Son həftələr İndoneziya, Şri-Lanka, Tailand və Malayziyada güclü yağışlar 1400-dən çox insanın ölümünə səbəb olub və milyonlarla insan evlərini tərk etmək məcburiyyətində qalıb.

Regiondakı ölkələr axtarış-xilasetmə işlərini davam etdirdikcə və yüzlərlə itkin düşmüş insanları axtardıqca, zərərin miqyası artmaqda davam edir. Dağıdılmış infrastruktur bir çox yaşayış məntəqəsinə girişi əngəlləyir və hökumətlər fövqəladə vəziyyət elan edir, təxliyələri, ərzaq təchizatını və tibbi yardımı sürətləndirir. Professor H.Çan "Anadolu" Agentliyinə verdiyi şərhdə bu hadisələrin təsadüf olmadığını və iqlim sistemindəki sürətli dəyişikliklərlə əlaqəli olduğunu vurğulayıb ki, bu da regionun həssaslığını artırır. Onun sözlərinə görə, ölümcül daşqınlar və torpaq sürüşmələri iqlim və meteoroloji şəraitlə sıx bağlıdır. O qeyd edib ki, antropogen iqlim dəyişikliyi su dövranını gücləndirir, yəni isti hava daha çox nəm saxlayır ki, bu da daha intensiv yağıntılara səbəb olur. "Bu cür ekstremal hadisələrin tezliyi əhəmiyyətli dərəcədə artmayıb, bəzi bölgələrdə hətta azala bilər. Lakin onların intensivliyi bir çox ərazidə artıb. Başqa sözlə, ekstremal hadisələr daha az ola bilər, lakin baş verdikdə zərər daha böyükdür", - deyə alim izah edib.

Çan bildirib ki, Cənub-Şərqi Asiya hər il musson yağışlarına məruz qalır, lakin tədqiqatlar musson aktivliyindəki və siklon generasiya zonalarındakı dəyişiklikləri sənədləşdirib. O həmçinin El-Ninyo və Hind okeanının istiləşməsi kimi regional iqlim hadisələrinin son fəlakətlər seriyasına təsirini qeyd edib.

Cənubi və Cənub-Şərqi Asiyanın sahil bölgələri yüksək əhali sıxlığı və sosial və texnoloji infrastrukturun olmaması səbəbindən xüsusilə həssasdır. Bölgədəki bir çox sistem əvvəlki iqlim şəraiti üçün hazırlanmış köhnə qurğulardan asılıdır. H.Çan deyir: "Keçmişdəki ekstremal hadisələrdən məhdud sosial öyrənmə və koordinasiyalı hökumət tədbirlərinin olmaması güclü yağışa səbəb olan zəncirvari təhlükələr riskini daha da artırır". Ekspert vurğulayır ki, sahil boyunca təbii meşəlik ərazilər güclü yağışa qarşı "təbii bufer" rolunu oynayır. Urbanizasiya səbəbindən bu buferlərin yox olması ilə yağış suları təbii drenaj yollarını itirir və bu da geniş yayılmış daşqınlara səbəb olur. Beton və asfalt səthlərin böyüməsi səth sularının hərəkətini sürətləndirir. "Ağaclar kəsildikdə, torpaq nəm saxlamaq qabiliyyətini



itirir və bu, sürüşmə riskini artırır", - deyə Çan əlavə edib.

Professor qeyd edir ki, son illər fəlakətlərə cavab sistemləri təkmilləşib - alimlər ekstremal yağıntı hadisələrini və əlaqəli təhlükələri əvvəlcədən proqnozlaşdırmağı öyrəniblər. Lakin o bunun kifayət olmadığını bildirib.

Ekspert ictimaiyyətə vaxtında və şəffaf risklərin çatdırılmasının, xilasetmə bölmələrinin sayının artırılmasının və yeni iqlim reallıqlarını nəzərə almaq üçün infrastrukturun modernləşdirilməsinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, hökumətlər yeni infrastruktur layihələri planlaşdırarkən "təbiətə əsaslanan həllər" tətbiq etməlidir. Bu cür strategiyaların həyata keçirilməsi dövlət qurumları, akademik icma, özəl sektor və vətəndaşlar arasında əməkdaşlıq tələb edir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Arabir yağış yağacağı gözlənilir

Azərbaycan ərazisində bu günə gözlənilən hava şəraiti açıqlanıb.



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı, bəzi yerlərdə leysan xarakterli olacağı gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 8-10, gündüz 11-14 dərəcə isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunu, nisbi rütubət isə 80-90 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən şərq rayonlarında leysan xarakterli olacağı ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-10, gündüz 14-17 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 4-9 dərəcə isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° şaxta, bəzi yerlərdə 1°-dək isti, gündüz 9-13° isti təşkil edəcək.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöldə hava əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4° şaxtadan 1°-dək isti, gündüz 5-10° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti təşkil edəcək.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda əsasən yağmursuz hava gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4-8° isti, gündüz 12-17° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında yağış yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-7° isti, gündüz 9-14° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 4-9° isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-10° isti, gündüz 14-17° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq, şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-10° isti, gündüz 12-15° isti, dağlarda gecə 3-5° isti, gündüz 9-12° isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Nəsibəxanım Alməmmədovaya atası

**KAMRAN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4131
Sifariş 2456

Qiyməti 60 qəpik